RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 139 (9306) 7 İYUL 2023-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# İlham Əliyev Qoşulmama Hərəkatını daha güclü qlobal təsisata çevirib




**"Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi dövründə "Bandunq prinsipləri" əsasında ədaləti, beynəlxalq hüququ və üzv ölkələrin qanuni maraqlarını qətiyyətlə qorudu".**

İyulun 5-də Bakıda Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun "Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli" mövzusunda nazirlər görüşündəki çıxışında Prezident İlham Əliyevin söylədiyi kimi, Azərbaycan QH-yə sədrlik etdiyi dörd ilə yaxın müddət ərzində xeyli qlobalmiqyaslı uğurlara imza atıb, beynəlxalq problemlərin həlli istiqamətində mühüm nailiyyətlər əldə edib.

Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi COVID-19 pandemiyasının dünyada tüğyan etdiyi bir zamanla üst-üstə düşsə də, həmin çətin dövrdə ölkəmiz QH sədrliyi qismində mühüm beynəlxalq təşəbbüslərlə çıxış edib və ölkəmizin qlobal problemdən həmrəylik sayəsində çıxma təklifləri Hərəkata üzv dövlətlər tərəfindən yekdilliklə dəstəklənib ki, bu da nəticədə qlobal bəladan birgə çıxış üçün geniş imkanlara yol açıb.

→ 6

## Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin 100 illiyinin qeyd edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

2023-cü ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin fəaliyyətə başlamasının 100 illiyi tamam olur.

Dövrün görkəmli ədəbi simalarının və məşhur sənət adamlarının tədrisə cəlb edildiyi Bakı Teatr Məktəbinin bazasında təşkil olunmuş Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti ölkənin zəngin ənənələrə malik ali təhsil müəssisələrindəndir. Ötən müddət ərzində universitet milli mədəniyyətin və incəsənətin tərəqqisi işinə mühüm töhfələr vermişdir. Azərbaycanın tanınmış mədəniyyət və incəsənət xadimləri arasında bu nüfuzlu təhsil ocağının çox sayda məzunu vardır. Universitetin yetirmələri hazırda respublikamızda və onun hüdudlarından kənarda müvəffəqiyyətlə çalışırlar. Fəaliyyətini dövlətin mədəniyyət və təhsil strategiyalarının hədəflərinə uyğun, müasir tələblər səviyyəsində quran universitet mədəniyyətin və incəsənətin bütün başlıca sahələrini əhatə edən müvafiq ixtisaslar üzrə genişprofilli şəbəkə formalaşdırmış, həmçinin dünyanın bir sıra ölkələrinin ali təhsil və mədəniyyət mərkəzləri ilə qarşılıqlı faydalı tərəfdaşlıq əlaqələri yaratmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, milli mədəniyyətin, incəsənətin inkişafında və bu istiqamətdə mütəxəssis hazırlığında Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin xüsusi xidmətlərini nəzərə alaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin 100 illiyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyul 2023-cü il*

## T.İ.Sinyavskayanın "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin təbliği sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Tamara İlyiniçna Sinyavskaya "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyul 2023-cü il*

## Dünya mətbuatı Qoşulmama Hərəkatının Bakı nazirlər görüşünü diqqət mərkəzində saxlayır

Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun Bakıda keçirilən "Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli" mövzusunda nazirlər görüşü beynəlxalq KİV-in diqqət mərkəzində qalmaqda davam edir. AZƏRTAC xəbər verir ki, müxtəlif media resurslarında yayılmış məqalələrdə Bakı nazirlər görüşünün mühüm mesajların verildiyi, qlobal problemlərə münasibətdə müxtəlif yanaşmaların nümayiş etdirildiyi platformaya çevrildiyi vurğulanıb. Eyni zamanda Azərbaycan Prezidenti İlham Əliyevin çıxışında səsləndirdiyi fikirlərə geniş yer verilib.

→ 7

## Bakıda Qoşulmama Hərəkatı Gənclər Təşkilatının mənzil qərargahı açılıb




İyulun 5-6 tarixlərində Bakıda keçirilən Qoşulmama Hərəkatının (QH) Əlaqələndirici Bürosunun Nazirlər İclası çərçivəsində Qoşulmama Hərəkatı Gənclər Təşkilatının (QHGT) mənzil qərargahının açılış mərasimi olub.

AZƏRTAC xəbər verir ki, 2022-ci ildə Qoşulmama Hərəkatının Gənclər Sammiti zamanı Şuşa Akkordu ilə qəbul edilmiş QHGT-nin Nizamnaməsinə uyğun olaraq, Qoşulmama Hərəkatı Gənclər Təşkilatının mənzil qərargahı Bakı şəhərində yerləşir.

→ 4

## Fransa müstəmləkəçiliyinə qarşı Bakı Təşəbbüs Qrupunun yaradılmasına dair qərar qəbul edilib

Fransa müstəmləkəçiliyinə qarşı Bakı Təşəbbüs Qrupu yaradılıb.

AZƏRTAC xəbər verir ki, iyulun 6-da Bakı Konqres Mərkəzində Qoşulmama Hərəkatının (QH) Əlaqələndirmə Bürosunun nazirlər görüşü çərçivəsində "Kolonializmin tamamilə aradan qaldırılmasına doğru" mövzusuna həsr olunan tədbirdə iştirakçılar Fransanın müasir müstəmləkəçilik siyasətinin aradan qaldırılması yolları, Afrika qitəsində və dünyanın müxtəlif regionlarında hazırda mövcud olan köləliyin kökünün kəsilməsi üçün zəruri addımların atılması istiqamətində fikir mübadiləsi aparıblar.

Sonda bəyanat qəbul edilib.

Bəyanatda iştirakçılar Fransa müstəmləkəçiliyinə qarşı Bakı Təşəbbüs Qrupu yaradılmasına dair razılığa gəliblər.

## Azərbaycan ilə Əlcəzair arasında əlaqələrin perspektivlərinə dair fikir mübadiləsi aparılıb

### Prezident İlham Əliyev Əlcəzairin xarici işlər və xaricdəki milli icma nazirini qəbul edib



→ 2

## Azərbaycan inkişaf etməkdə olan ölkələr üçün nümunədir

### Prezident İlham Əliyev Nepalın xarici işlər nazirini qəbul edib



→ 2

## Tatyana Valovaya Azərbaycanın verdiyi dəstəyi yüksək qiymətləndirir

### Prezident İlham Əliyev BMT-nin Cenevrədəki ofisinin baş direktorunu qəbul edib



→ 2

## Albaniya Prezidenti Bayram Beqay Azərbaycana rəsmi səfərə gəlib

**Albaniya Respublikasının Prezidenti Bayram Beqay iyulun 6-da Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident Bayram Beqayı və xanımı Armanda Beqayı hava limanında Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Fariz Rzayev və digər rəsmi şəxslər qarşıladılar.



# İLHAM ƏLİYEV irqçiliyə, ədalətsizliyə, separatçılığa qarşı qlobal mübarizə platforması yaradır

## Azərbaycan ilə Əlcəzair arasında əlaqələrin perspektivlərinə dair fikir mübadiləsi aparılıb

### Prezident İlham Əliyev Əlcəzairin xarici işlər və xaricdəki milli icma nazirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 6-da Əlcəzair Xalq Demokratik Respublikasının xarici işlər və xaricdəki milli icma naziri Əhməd Attafı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Əhməd Attaf Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti Abdelmacid Tebbunun salamlarını dövlətimizin başçısına çatdırdı, Prezident İlham Əliyevin onun dəvəti ilə Ərəb Dövlətləri Liqasının Zirvə toplantısında xüsusi qonaq qismində iştirakına görə təşəkkürünü bildirdi.

Prezident İlham Əliyev salamlara və Ərəb Dövlətləri Liqasının Zirvə toplantısında iştiraka dəvətə görə Əlcəzair Prezidentinə təşəkkürünü bildirdi və onun da salamlarını Abdelmacid Tebbuna çatdırmağı xahiş etdi. Dövlətimizin başçısı həmçinin Əlcəzair Prezidentini ölkəmizə rəsmi səfərə dəvət etdi.

Əhməd Attaf Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyinə, Hərəkatın təsisatlanması istiqamətində həyata keçirdiyi işlərə görə təbriklərini çatdırdı.

Dövlətimizin başçısı ölkələrimiz arasında tarixi əlaqələrin olduğunu qeyd etdi, Sovetlər Birliyi dövründə çox sayda azərbaycanlı mütəxəssisin Əlcəzairdə fəaliyyət göstərdiyini, bu ölkənin inkişafına öz töhfələrini verdiyini vurğuladı, eyni zamanda həmin dövrdə Əlcəzairdən olan çox sayda tələbənin də Azərbaycanda təhsil aldığını bildirdi.

Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatının təsisatlanması çərçivəsində həyata keçirdiyi işlərdən danışdı, ölkəmizin təşəbbüsü ilə bu Hərəkatın gənclər təşkilatının və parlament şəbəkəsinin yaradıldığını dedi, Azərbaycanın eyni zamanda Qoşulmama Hərəkatı çərçivəsində qadın platformasının yaradılması təşəbbüsü ilə çıxış etdiyini, sədrlik dövründə bu istiqamətdə də müvafiq tədbirləri həyata keçirəcəyini vurğuladı.

Prezident İlham Əliyev Qoşulmama Hərəkatına Azərbaycanın sədrliyinin uğurla həyata keçirilməsində göstərdiyi dəstəyə görə Əlcəzair tərəfinə təşəkkürünü bildirdi.

Görüşdə Azərbaycan ilə Əlcəzair arasında əlaqələrin müxtəlif sahələrdə, o cümlədən enerji sahəsində inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı, beynəlxalq təşkilatlar çərçivəsində, həmçinin OPEC+ formatında əməkdaşlıq məsələləri müzakirə olundu.

## Tatyana Valovaya Azərbaycanın verdiyi dəstəyi yüksək qiymətləndirir

### Prezident İlham Əliyev BMT-nin Cenevrədəki ofisinin baş direktorunu qəbul edib



**İyulun 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Cenevrədəki ofisinin baş direktoru Tatyana Valovayanı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Tatyana Valovaya Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşündə BMT-ni təmsil etdiyinə görə məmnunluğunu bildirdi və Azərbaycanın Hərəkatda uğurlu sədrliyi münasibətilə təbriklərini çatdırdı. O, BMT-nin Cenevrə ofisi və Cenevrədə ixtisaslaşmış BMT təşkilatları ilə ölkəmiz arasında əməkdaşlığın uğurla inkişaf etdiyini vurğuladı.

Tatyana Valovaya BMT-nin Qadınlar Davamlı İnkişaf Məqsədi üzrə təşəbbüsünün inkişaf etdirilməsində Azərbaycanın verdiyi dəstəyi yüksək qiymətləndirdi, Prezident İlham Əliyevin minaların təmizlənməsi üzrə yeni Dayanıqlı İnkişaf Məqsədinin yaradılması təşəbbüsünün çox dəyərli və vacib olduğunu vurğuladı. O, BMT çərçivəsində üzv dövlətlərlə birgə bu istiqamətdə müzakirə aparılmasının mümkünlüyünü və önəmini diqqətə çatdırdı.

Dövlətimizin başçısı Azərbaycanın Qoşulmama Hərəkatının sədri kimi təşkilatın təsisatlanmasına və ölkəmizin multilateralizmə daim böyük əhəmiyyət verdiyini bildirdi, Hərəkatın təsisatlanması istiqamətində ölkəmiz tərəfindən aparılan işlərin, xüsusilə də Parlament Şəbəkəsinin və Gənclər Təşkilatının yaradılması təşəbbüslərini qeyd etdi. Prezident İlham Əliyev həmçinin Azərbaycanın Qoşulmama Hərəkatı çərçivəsində qadın platformasının yaradılması istiqamətində təşəbbüslə çıxış etdiyini vurğuladı. Azərbaycanın Ermənistan işğalından azad edilmiş torpaqlarımızın minalarla çirkləndirilməsi problemi ilə üzləşdiyini qeyd edən dövlətimizin başçısı minaların təmizlənməsinin də Dayanıqlı İnkişaf Məqsədi kimi təsbit olunmasının vacibliyini bildirdi. Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatı çərçivəsində Minaların Təsirinə Məruz Qalmış Ölkələrin Həmfikirlər Qrupunun yaradılması təşəbbüsü ilə çıxış etdiyini və ölkəmizin humanitar minatəmizləmə sahəsində müasir texnologiyalardan səmərəli şəkildə istifadə etdiyini bildirdi. Dövlətimizin başçısı vurğuladı ki, 2020-ci il noyabrın 10-dan sonra 300-dən çox azərbaycanlı mina partlaması nəticəsində həlak olub və ya ağır yaralanıb.

Görüşdə BMT sistemində çalışan Azərbaycan vətəndaşlarının mövcud kvotalara uyğun olaraq sayının artırılması məsələsinin vacibliyi də müzakirə edildi.

## Azərbaycan inkişaf etməkdə olan ölkələr üçün nümunədir

### Prezident İlham Əliyev Nepalın xarici işlər nazirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 6-da Nepal Federativ Demokratik Respublikasının xarici işlər naziri Narayan Prakaş Saudu qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Bakının gözəlliyinin onu valeh etdiyini deyən Narayan Prakaş Saud Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin qısa müddət ərzində böyük nailiyyətlər əldə etdiyini vurğuladı, Azərbaycanın inkişaf etməkdə olan ölkələr üçün nümunə olduğunu dedi. Nepalın xarici işlər naziri ölkəmizin Qoşulmama Hərəkatına uğurlu sədrliyi münasibətilə təbriklərini çatdırdı.

Nepallı tələbələrin Azərbaycanın təqdim etdiyi təqaüd proqramları çərçivəsində təhsil aldıqlarını deyən qonaq buna görə minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev Azərbaycanla Nepalın beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlığını qeyd etdi, ölkələrimiz arasında münasibətlərin həmişə yaxşı olduğunu, lakin əlaqələri daha da genişləndirmək üçün böyük imkanların mövcudluğunu vurğuladı.

Dövlətimizin başçısı ölkəmizin təşəbbüsü ilə Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin və Qoşulmama Hərəkatı Gənclər Təşkilatının yaradıldığını dedi, hazırda Qoşulmama Hərəkatının qadınlar platformasının yaradılması üzərində iş aparıldığını qeyd etdi. Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin uğurla həyata keçirilməsində göstərdiyi dəstəyə görə Nepala təşəkkürünü bildirdi.

Görüşdə ölkələrimiz arasında biznesin, iqtisadi-ticari əlaqələrin inkişaf etdirilməsi, bu xüsusda nümayəndə heyətlərinin mübadiləsi məsələləri müzakirə olundu.

## Fransanın müstəmləkə siyasəti qəbuledilməzdir

**İyulun 6-da Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvləri Bakıda keçirilən Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun "Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli" mövzusunda nazirlər görüşünün bir qrup iştirakçısı ilə görüşüblər.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonaqları Azərbaycan parlamentində görməkdən məmnunluğunu bildirən Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov onlara spiker Sahibə Qafarovanın salamlarını çatdırıb. Komitə sədri qonaqların Qoşulmama Hərəkatının Bakıda keçirilən tədbirində iştirakından məmnunluğunu bildirib. O, Azərbaycanın dünyanın ən böyük təşkilatlarından biri olan Qoşulmama Hərəkatına sədrliyi dövründə görülən işlərdən danışıb, bu təşkilat çərçivəsində keçirilən görüşlərin və qaldırılan məsələlərin əhəmiyyətini qeyd edib.

Səməd Seyidov qonaqlara Milli Məclisin strukturu, say tərkibi, beynəlxalq təşkilatlarda fəaliyyəti, Azərbaycan parlamentinin Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinə sədrliyi barədə məlumat verib.

Söhbət zamanı Fransanın neokolonializm siyasəti, Yeni Kaledoniya xalqının Fransa ilə müstəqillik uğrunda apardığı mübarizə, dünyada ədalət prinsipinin qorunması və digər mövzularda fikir mübadiləsi aparılıb.

Görüşdə Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvləri Asim Mollazadə, Sevil Mikayılova, Cavanşir Feyziyev, Fransız Polineziyası Assambleyasının prezidenti Antoni Geros, Fransa parlamentinin deputatı Jan Viktor Castor, nümayəndə heyətinin üzvləri Luk Frensis Karol, Klaudet Duhamel və digər şəxslər iştirak ediblər.

*"Azərbaycan"*

## Azərbaycanla Əlcəzair arasında münasibətlərin hazırkı səviyyəsi məmnunluq doğurur

**İyulun 6-da Milli Məclisin Sədri Sahibə Qafarova Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşündə iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Əlcəzair Xalq Demokratik Respublikasının xarici işlər və xaricdəki milli icma naziri ƏhmədAttafın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonağı səmimiyyətlə salamlayan Milli Məclisin Sədri Bakıda keçirilən Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşünün əhəmiyyətini vurğulayaraq, belə tədbirlərin beynəlxalq gündəlikdə duran bir çox məsələlərin, o cümlədən ikitərəfli münasibətlərin müzakirəsi üçün uğurlu platforma olduğunu qeyd edib.

Ölkələrimizi birləşdirən dostluq münasibətləri və ortaq dəyərlərdən söz açan parlamentin spikeri ölkələrimiz arasında münasibətlərin hazırkı səviyyəsinin məmnunluq doğurduğunu qeyd edib. Sahibə Qafarova Əlcəzairin, Ermənistanla münaqişə dövründə İslam Əməkdaşlıq Təşkilatında Azərbaycanı dəstəklədiyini bildirib, həmçinin Qoşulmama Hərəkatının sədri kimi Azərbaycanın təşəbbüslərinə dəstək verdiyini xüsusi vurğulayıb.

Milli Məclisin Sədri gələn il iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd olunacağını bildirib, ölkəmizin Əlcəzairlə münasibətlərin bundan sonra da inkişaf etdirilməsinə əhəmiyyət verdiyini vurğulayıb.

İkitərəfli münasibətlərin inkişafında yüksəksəviyyəli səfərlərin və görüşlərin əhəmiyyətindən danışan spiker Sahibə Qafarova Əlcəzairin mərhum Prezidenti Abdelkader Bensalahın 2019-cu ilin oktyabrında Azərbaycana, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2022-ci ilin noyabrında Ərəb Dövlətləri Liqasının 31-ci Zirvə toplantısında iştirak etmək üçün Əlcəzairə etdiyi səfərləri xüsusi vurğulayıb.

Parlamentlərarası əlaqələrin hazırkı vəziyyətini müsbət səciyyələndirən spiker Sahibə Qafarova Əlcəzair parlamentinin Sədri İbrahim Bouğalinin Azərbaycan Prezidenti, Qoşulmama Hərəkatının sədri İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin keçən il Bakı şəhərində baş tutmuş I konfransında iştirakını məmnunluqla xatırlayıb. Milli Məclisin Sədri cari ilin yanvar ayında İslam Əməkdaşlığı Təşkilatının Parlament İttifaqı Konfransının 17-ci sessiyasında iştirak etmək üçün Əlcəzair Xalq Demokratik Respublikasına işgüzar səfəri çərçivəsində Əlcəzair Milli Xalq Assambleyasının Sədri İbrahim Bouğali ilə keçirdiyi görüşü qeyd edib.

Qanunverici orqanlar arasındakı əməkdaşlığın inkişafında parlamentin dostluq qruplarının üzərinə düşən vəzifələrdən danışan spiker, dostluq qruplarının müntəzəm qarşılıqlı səfərlərinin təşkil olunmasının, əməkdaşlığa dair geniş fikir mübadiləsinin aparılmasının vacibliyindən söz açıb. Spiker parlamentlərin komitələri arasında əməkdaşlığın da ikitərəfli əlaqələrə müsbət töhfələr verəcəyini bildirib.

Görüşdə Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşündə çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ermənistan tərəfindən ərazilərimizin 30 illik işğalı, 44 günlük Vətən müharibəsi, işğaldan azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı bərpa-quruculuq işləri və regionda münaqişədən sonrakı vəziyyət barədə iştirakçılara verdiyi müfəssəl məlumatlardan danışan Milli Məclisin Sədri ölkəmizin sülh gündəliyinə sadiq olduğunu, müharibədən sonra Ermənistana sülh müqaviləsi imzalamağı təklif etdiyini nəzərə çatdırıb. Sahibə Qafarova sülh prosesinə qarşı atılan addımların yolverilməz olduğunu bildirib.



Qəbula görə təşəkkürünü ifadə edən qonaq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşündəki çıxışını yüksək qiymətləndirdiyini söyləyib, Azərbaycanı Hərəkata sədrliyə başladığı mürəkkəb beynəlxalq vəziyyətdə dünyada tüğyan edən COVID- 19 virusu ilə mübarizədə atdığı qərarlı addımlara görə təbrik edib. Məhz ölkəmizin sədrliyi dövründə Hərəkatın Gənclər Təşkilatının və Parlament Şəbəkəsinin yaradılmasının tarixi qərar olduğunu bildirən qonaq bu institutların gələcək fəaliyyətinə uğurlar diləyib.

Qonaq spiker Sahibə Qafarovanın ölkələrimiz arasındakı ikitərəfli münasibətlərin inkişafı perspektivlərinə dair fikirlərini dəstəklədiyini, bu istiqamətdə müvafiq addımların atılacağına dair əminlik ifadə edib.

Əlcəzairin xarici işlər və xaricdəki milli icma naziri gələn il ölkəsinin BMT TŞ-yə qeyri-daimi üzvlüyü dövründə dünyada silahlı münaqişələrə son verilməsinə, sülhün və sabitliyin bərqərar olunması işinə xüsusi diqqət yetiriləcəyini, lazımi addımların atılacağını bildirib.

Görüşdə tərəfləri maraqlandıran digər mövzularda da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

## Milli Məclisin iclasında

# Bank sektorunda tənzimləmə və nəzarət təkmilləşdirilir

**İyulun 6-da Milli Məclisin spikeri Sahibə Qafarovanın sədrliyi ilə parlamentin növbəti iclası keçirilib.**



Gündəliyin təsdiqindən sonra iclasda cari məsələlərlə bağlı müzakirələr aparılıb. Müzakirələrdə komitə sədrləri Siyavuş Novruzov, Zahid Oruc, deputatlar Ceyhun Məmmədov, Elşad Mirbəşiroğlu, Bəhruz Məhərrəmov, Elman Nəsirov, Vahid Əhmədov, Fazil Mustafa, Kamal Cəfərov, Musa Qasımlı çıxış ediblər. Millət vəkilləri çıxışlarında Azərbaycan Prezidenti İlham Əliyevin Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun Bakıda keçirilən görüşündə söylədiyi nitqini yüksək dəyərləndiriblər. Deputatlar dövlət başçısının Fransanın neokolonializm siyasəti, Fransada irqçilik meyillərinin, milli azlıqlara qarşı təzyiqlərin artması ilə bağlı tənqidi fikirlərini dəstəkləyiblər, Qərbdə irqçi və islamofob meyillərin artmasından narahatlıqlarını ifadə ediblər. Prezident Emmanuel Makronun aşkar şəkildə Azərbaycanın ərazi bütövlüyünə qarşı çıxmasını və separatizmi dəstəkləməsini, regionda sülhün bərqərar olması prosesinə mane olmasını pisləyən çıxışçılar bildiriblər ki, indiki Fransanın demokratiyadan, insan hüquqlarından, ədalətdən, bərabərlikdən və humanizmdən danışmağa haqqı yoxdur.

Azərbaycan Prezidentinin BMT Təhlükəsizlik Şurasında islahatların keçirilməsi ilə bağlı fikirlərini yüksək qiymətləndirən deputatlar Qoşulmama Hərəkatının sədri İlham Əliyevin nitqini yeni dünya düzənində qlobal məqsəd və hədəflərə doğru birgə fəaliyyət üçün yol xəritəsi kimi xarakterizə ediblər. Millət vəkilləri həmçinin gündəmdəki məsələlərə münasibətlərini bildiriblər, bəzi aktual mövzularla bağlı fikirlərini səsləndiriblər.

Sonra spiker Sahibə Qafarova diqqətə çatdırıb ki, bugünkü iclasda 49 məsələ müzakirəyə çıxarılıb. O qeyd edib ki, birinci məsələ "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Preferensial Ticarət Sazişinə dəyişiklik haqqında" Protokolun təsdiq edilməsi barədə qanun layihəsidir. Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, qanun layihəsi beynəlxalq sənədin təsdiqi ilə bağlı olduğuna görə "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbinə əsasən, bir oxunuşda qəbul ediləcək. Spiker məsələyə dair məlumat vermək üçün İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini Əli Məsimliyə söz verib.

Qeyri-neft ixracının artımı üçün əlverişli şəraitin yaradılması məqsədilə Azərbaycanın xarici ölkələrlə ticarət əməkdaşlığını mütəmadi inkişaf etdirdiyini deyən Əli Məsimli respublikamızın əsas ticarət tərəfdaşlarından biri olan Türkiyə ilə 2020-ci il fevralın 25-də Bakı şəhərində "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Preferensial Ticarət Sazişi" imzaladığını bildirib. Həmin sazişə dəyişikliklə bağlı olan bu protokol 2023-cü il aprelin 29-da Türkiyənin Samsun şəhərində bağlanıb.

Təqdim olunan protokolda Azərbaycan və Türkiyə arasındakı preferensial ticarət sazişində qeyd olunmuş mallara əlavə olaraq daha 15 növ sənaye və digər mallara preferensial ticarət rejimi çərçivəsində güzəştlərin tətbiq olunmasından danışan komitə sədrinin müavini bildirib ki, sənədin icrası qardaş ölkə ilə ticarət dövriyyəsinin artırılması istiqamətində hədəflərin gerçəkləşməsinə töhfə verəcək.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidovun rəhbərlik etdiyi komitənin müsbət rəyi və deputat Qüdrət Həsənquliyevin sənədlə bağlı fikirləri dinlənildikdən sonra layihə səsə qoyularaq qəbul edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova gündəliyin 2-ci məsələsindən başlayaraq, növbəti 37 qanun layihəsinin ölkə Prezidentinin bir məktubu ilə parlamentə daxil olduğunu və mahiyyətcə bir-birinə bağlı olduğunu deyib. Spiker xatırladıb ki, bu qanun layihələri bank işi sahəsində tənzimləmənin və nəzarətin təkmilləşdirilməsi, maliyyə bazarlarının sabitliyinin təmin olunması və bu sahədə xidmətlərdən istifadə edənlərin hüquqlarının qorunması ilə bağlıdır. Parlamentin Sədri nəzərə çatdırıb ki, təqdim olunan qanun layihələrinin 27-si (2-28-ci məsələlər) üçüncü oxunuşda müzakirəyə çıxarılır. 29-cu məsələdən başlayaraq növbəti 10 məsələ isə uyğunlaşdırma və dəqiqləşdirmə xarakterli qanun layihələridir. Ona görə də həmin layihələr bir oxunuşda qəbul ediləcək. Spiker təqdim olunan qanun layihələrinə parlamentin dörd komitəsində baxıldığını bildirib və əvvəlcə komitələrin təqdimatlarını dinləməyi, sonra müzakirələrin birgə aparılmasını təklif edib. Sahibə Qafarova diqqətə çatdırıb ki, bu 37 məsələdən 26-na İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb və həmin layihələrlə bağlı məlumat vermək üçün komitə sədrinin müavini Əli Məsimliyə söz verib.

Əli Məsimli "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Qanunda dəyişiklik edilməsi barədə, "Banklar haqqında" qanunda dəyişiklik edilməsi barədə, Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında, eyni zamanda "Banklar haqqında" qanunda dəyişikliklər edilməsi barədə" 2016-cı il 4 mart tarixli 140-VQD nömrəli, "Bank olmayan kredit təşkilatları haqqında" qanunda dəyişikliklər edilməsi barədə" 2016-cı il 4 mart tarixli 141-VQD nömrəli, "Kredit ittifaqları haqqında" qanunda dəyişikliklər edilməsi barədə" 2016-cı il 4 mart tarixli 142-VQD nömrəli, "Poçt haqqında" qanunda dəyişikliklər edilməsi barədə" 2016-cı il 4 mart tarixli 143-VQD nömrəli, "Sığorta fəaliyyəti haqqında" qanunda dəyişikliklər edilməsi barədə" 2016-cı il 4 mart tarixli 144-VQD nömrəli, "Qiymətli kağızlar bazarı haqqında" qanunda dəyişikliklər edilməsi barədə" 2016-cı il 4 mart tarixli 145-VQD nömrəli və "İnvestisiya fondları haqqında" qanunda dəyişikliklər edilməsi barədə" 2016-cı il 4 mart tarixli 146-VQD nömrəli qanunlarda dəyişiklik edilməsi haqqında, həmçinin "Bank olmayan kredit təşkilatları haqqında", "Kredit ittifaqları haqqında", "Poçt haqqında", "Əmanətlərin sığortalanması haqqında", "Kredit büroları haqqında", "Valyuta tənzimi haqqında", "İnvestisiya fondları haqqında", "Qiymətli kağızlar bazarı haqqında", "Sığorta fəaliyyəti haqqında", "İcbari sığortalar haqqında", "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında", "Sahibkarlıq fəaliyyəti haqqında", "Hesablama Palatası haqqında", "Mühasibat uçotu haqqında", "Dövlət satınalmaları haqqında" və "Auditor xidməti haqqında" qanunlarda dəyişiklik edilməsi barədə üçüncü oxunuşda olan qanun layihələri ilə bağlı məlumat verib.

O bildirib ki, qanun layihələrinin birinci və ikinci oxunuşlarında ətraflı məlumat verilib. Eyni zamanda müzakirələrdə deputatların qaldırdıqları məsələlərə Mərkəzi Bank tərəfindən ətraflı aydınlıq gətirilib. Əli Məsimli vurğulayıb ki, təklif olunan dəyişikliklərin qəbulu nəticəsində Mərkəzi Bankın funksiyalarının daha səmərəli həyata keçirilməsi üçün çox etibarlı hüquqi zəmin yaranacaq.

Komitədə baxılan və bir oxunuşdan keçən "Auditorun peşə məsuliyyətinin icbari sığortası haqqında", "Qiymətli metallar və qiymətli daşlar haqqında", "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında", "Reklam haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Büdcə sistemi haqqında" qanunlarda dəyişikliklər edilməsi barədə qanun layihələri isə "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə təklif olunan dəyişikliklərə uyğunlaşdırma xarakteri daşıyır.

Sonra spiker Sahibə Qafarova bildirib ki, 9 məsələyə - 4-cü, 6-cı, 20-ci, 25-ci, 27-ci, 28-ci, 29-cu, 30-cu və 31-ci məsələlərə parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. O, layihələrə dair məlumat vermək üçün sözü Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərova təqdim edib.

Kamal Cəfərov üçüncü oxunuşda olan Mülki Məcəllədə dəyişiklik edilməsi haqqında, İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında, "Publik hüquqi şəxslər haqqında" qanunda dəyişiklik edilməsi barədə, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanunda dəyişiklik edilməsi barədə, "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" qanunda dəyişiklik edilməsi barədə, "İcra haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihələri ilə əlaqədar bildirib ki, məsələlərə dair əvvəlki oxunuşlarda ətraflı məlumat verilib və sənədlərlə bağlı komitəyə heç bir irad və təklif daxil olmayıb.

Komitədə baxılan Mülki Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında, İnzibati Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında və Seçki Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələri isə uyğunlaşdırma və dəqiqləşdirmə xarakteri daşıyır.

Sonra Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov gündəliyin 19-cu məsələsi - "Tibbi sığorta haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı məlumat verib. O, layihənin ikinci oxunuşundan sonra komitəyə heç bir irad və təklif daxil olmadığını bildirib.

Spiker Sahibə Qafarova diqqətə çatdırıb ki, 32-ci məsələyə Aqrar siyasət komitəsində baxılıb və məsələyə dair məlumat vermək üçün komitənin sədri Tahir Rzayevə söz verib.

Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev bildirib ki, "Aqrar sığorta haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə təklif olunan dəyişikliklərə əsasən, "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri "Azərbaycan Respublikasının Mərkəzi Bankı" sözləri ilə əvəz olunur.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini Əli Məsimli təqdim edilən son 11 qanun layihəsi barədə komitənin müsbət rəyini diqqətə çatdırandan sonra müzakirəyə təqdim olunan 37 qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, gündəliyin növbəti 11 məsələsi ikinci oxunuşda olan qanun layihələridir.

Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov "Dərman vasitələri haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) barədə məlumat verib. O, qanun layihəsi ətrafında komitədə və parlamentin iclasında aparılan müzakirələrdən bəhs edərək deputatlar tərəfindən səsləndirilən fikirlərə və verilən təkliflərə münasibət bildirib.

Komitə sədri qeyd edib ki, layihədə dərman vasitələrinin beynəlxalq tanınma sisteminə keçirilməsi, dərman vasitələrinin qeydiyyatının sadələşdirilməsi, rəqabət mühitinin dairəsinin genişləndirilməsi, dünyanın aparıcı dərman vasitələri istehsalçılarının məhsullarına əlçatanlığın təmin olunması məsələləri ehtiva olunur. Sənəddə dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi ilə bağlı məqamlar öz əksini tapıb. Habelə bioloji aktiv qida əlavələri ilə əlaqədar tənzimləmələr təkmilləşdirilir.

Deputatlar Rəşad Mahmudov, Fəzail Ağamalı, Vahid Əhmədov, Hikmət Məmmədov məsələ barədə öz fikirlərini və bəzi qeydlərini açıqlayıblar.

Komitə sədri Əhliman Əmiraslanov, səhiyyə nazirinin müavini Rasim İsmayılov qaldırılan məsələlərə aydınlıq gətirdikdən sonra qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (ikinci oxunuş) diqqətə çatdırıb. O, layihədə hər hansı bir dəyişikliyin olmadığını söyləyib və səsə qoyulmasını xahiş edib.

Sənəd "Siyasi partiyalar haqqında" qanunda müəyyən edilmiş hüquq normalarının pozulmasına görə inzibati məsuliyyətin təkmilləşdirilməsi məqsədilə hazırlanıb.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Daha sonra Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edib. O, birinci oxunuşda müzakirələrdən sonra sənəddə hər hansı əlavə və dəyişikliyin edilmədiyini bildirib.

Layihədə təklif olunan dəyişikliklər mövcud normaların qanunvericilik sisteminə uyğunlaşdırılması və təkmilləşdirməsi məqsədilə hazırlanıb. Dəyişikliklər Konstitusiya Məhkəməsi tərəfindən sorğu və şikayətlərə baxılması şərtlərinin dəqiqləşdirilməsini, verilən sorğu, müraciət və ya şikayətlərə qoşulan sənədlərin siyahısına əlavələrin edilməsini və digər məsələləri nəzərdə tutur.

Komitə sədrləri Siyavuş Novruzov, Zahid Oruc, deputatlardan Erkin Qədirli, Qüdrət Həsənquliyev, Tahir Kərimli məsələ ilə bağlı bəzi qeydlərini səsləndiriblər. Deputat Kamal Cəfərov səsləndirilən fikirlərə münasibət bildirib.

Müzakirələrin sonunda qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov "Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edib. O, layihə barədə birinci oxunuşda ətraflı məlumat verildiyini, əlavə təklif və sualların olmadığını bildirib, sənədin səsə qoyulmasını xahiş edib.

Azərbaycan Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında təqdim olunmuş qanun layihəsi Azərbaycan Respublikasının və xarici ölkələrin müvafiq orqanları arasında hüquqi yardım və ekstradisiya sahəsində qarşılıqlı əlaqələrin daha da möhkəmləndirilməsi məqsədilə hazırlanıb.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Sonra deputat Nizami Səfərov "Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin 25 illiyi (1998-2023)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) diqqətə çatdırıb. Millət vəkili layihənin birinci oxunuşda konseptual baxımdan qəbul olunduğunu, mətnində hər hansı düzəlişin olmadığını qeyd edib.

Sənədə əsasən, "Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin 25 illiyi (1998-2023)" yubiley medalı ilə minatəmizləmə fəaliyyətinin təşkili, təkmilləşdirilməsi, inkişafı və möhkəmləndirilməsi sahələrində xüsusi xidmətləri olan Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər təltif edilirlər.

Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Parlamentin Sədri Sahibə Qafarova növbəti 3 məsələnin də yeni medalların təsis edilməsi ilə bağlı olduğunu və ölkə Prezidentinin bir məktubu ilə Milli Məclisə daxil olduğunu deyib. O, bu məsələlərin - "Azərbaycan Respublikası Prezidentinin təhlükəsizliyini təmin edən orqanın 30 illiyi (1993-2023)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi, "Azərbaycan Respublikasının strateji obyektlərin mühafizəsi orqanlarının 30 illiyi (1993-2023)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi və "Azərbaycan Respublikasının xüsusi rabitə və informasiya təhlükəsizliyi orqanlarının 30 illiyi (1993-2023)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihələri olduğunu bildirib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov həmin 3 qanun layihəsi barədə də məlumatı diqqətə çatdırıb. O, bu qanun layihələri ilə bağlı birinci oxunuşda geniş məlumat verildiyini, məsələyə dair heç bir sual və təklifin olmadığını deyib.

Təqdim olunan layihələrdə adı çəkilən qurumların əməkdaşlarının müvafiq medallarla təltif edilməsi nəzərdə tutulur. Sənədlərdə təltif edilən şəxslərin dairəsi, təltif edən orqan, medalların taxılma qaydası və təsviri müəyyən edilir.

Deputat Sahib Alıyev məsələ barədə öz fikirlərini səsləndirdikdən sonra qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Mahir Abbaszadə "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikası qanun layihəsini (ikinci oxunuş) təqdim edib. O, bildirib ki, layihə ölkə Prezidentinin müvafiq fərman və sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi"nin və "2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı"nın həyata keçirilməsi ilə əlaqədar nəzərdə tutulmuş ödəniş xidmətləri üzrə hüquqi bazanın təkmilləşdirilməsi məqsədilə hazırlanıb.

Millət vəkili qeyd edib ki, qanun layihəsinin qəbulu ölkədə ödəniş xidmətlərinə çıxış imkanlarının genişləndirilməsinə, nağdsız ödənişlərin əhatə dairəsinin innovativ texnologiyalar və rəqəmsal ödəniş alətləri əsasında daha da genişləndirilməsinə təkan verəcək. Bildirilib ki, sənəd innovativ onlayn və mobil ödənişlərin inkişafının daha etibarlı və təhlükəsiz fəaliyyətini, istehlakçıların daha etibarlı müdafiəsini təmin edəcək. Ümumilikdə layihə ölkənin yeni ödəniş ekosisteminin yaranmasında, ödəniş bazarında yeniliyin, rəqabətliliyin legitimliyinin təmin edilməsində əhəmiyyətli rol oynayacaq.

9 fəsil, 68 maddədən ibarət qanun layihəsi ödəniş sistemlərinin, ödəniş xidmətlərinin, ödəniş təşkilatlarının, elektron pul təşkilatlarının və ödəniş sistemi operatorlarının fəaliyyətinin hüquqi əsaslarını və bu sahədə tənzimləmə və nəzarətin hüquqi, təşkilati və iqtisadi əsaslarını müəyyən edir.

Sənəddə pul vəsaitlərinin təhlükəsizliyinin təmin olunması, mühasibat uçotu və maliyyə hesabatlarının aparılması, müraciətlərə baxılması qaydaları müəyyənləşdirilir. Habelə elektron pulla bağlı tənzimləmə prosesi, açılmış ödəniş hesabları və ödəniş xidmətlərinin göstərilməsi ilə bağlı məlumatlandırma şərtləri, ödəniş sərəncamının icrası və tərəflərin məsuliyyəti ilə əlaqədar məqamlar ehtiva olunur. Layihədə ödəniş sistemlərinin təşkili qaydaları, hesablaşmaların aparılması, lisenziyalaşdırma və qeydiyyata dair tələblər, elektron pul təşkilatları və operatorların müqavilə əsasında fəaliyyəti, xarici ödəniş təşkilatının və xarici elektron pul təşkilatının yerli filialının lisenziyalaşdırılması, nəzarət subyektlərinin rəhbərlərinə qarşı tələblər, dövlət tənzimlənməsi və bir sıra digər məsələlər öz əksini tapıb.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova gündəliyin son iki məsələsinin ölkə Prezidentinin bir məktubu ilə parlamentə daxil olduğunu və mahiyyətcə bir-birinə yaxın olduğunu bildirib. O qeyd edib ki, bu məsələlər - "Dövlət satınalmaları haqqında" (ikinci oxunuş) və Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Energetika haqqında", "Büdcə sistemi haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" və "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihələridir.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli həmin qanun layihələri barədə məlumat verib. O diqqətə çatdırıb ki, 10 fəsil, 59 maddədən ibarət "Dövlət satınalmaları haqqında" qanun layihəsi həm yerli, həm də beynəlxalq təcrübəyə əsasən mükəmməl şəkildə hazırlanıb. Sənəd dövlət satınalmalarının iqtisadi, hüquqi və təşkilati əsaslarını və qaydalarını müəyyən edir.

Layihədə qanunun tətbiq dairəsi, dövlət satınalmalarına nəzarətin gücləndirilməsi, rəqabətin təmin edilməsi, dövlət satınalmalarının elektronlaşdırılması, bu sahədə şəffaflığın təmin edilməsi, satınalma komissiyalarının fəaliyyətinin təkmilləşdirilməsi, mikro, kiçik və orta sahibkarlıq subyektlərinin satınalmada iştirakı və digər məsələlər əks olunub.

Sonra Əli Məsimli Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Energetika haqqında", "Büdcə sistemi haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" və "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsinə dair məlumatı təqdim edib. Deputat bildirib ki, adları çəkilən qanunlara "Dövlət satınalmaları haqqında" yeni qanun layihəsi ilə əlaqədar uyğunlaşdırma xarakterli bəzi düzəlişlər təklif olunur.

Deputat Aydın Hüseynov məsələ ilə bağlı bəzi fikirlərini səsləndirdikdən sonra qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# İLHAM ƏLİYEV irqçiliyə, ədalətsizliyə, separatçılığa qarşı qlobal mübarizə platforması yaradır

## Qoşulmama Hərəkatının Bakı nazirlər görüşünün bağlanış mərasimi keçirilib, Bakı Bəyannaməsi qəbul olunub



**Bakıda Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşünün bağlanış mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, bağlanış mərasimində Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov çıxış edib.

İki gün davam edən tədbirin yekunu olaraq Bakı Bəyannaməsi qəbul edilib.

Qoşulmama Hərəkatına üzv ölkələrin Parisdə keçiriləcək Olimpiya və Paralimpiya Oyunlarının layihəsi də qəbul olunub. Həmçinin Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı sənəd (xatirə bəyannaməsi) qəbul olunub.

## Bakıda Qoşulmama Hərəkatı Gənclər Təşkilatının mənzil qərargahı açılıb

**İyulun 5-6 tarixlərində Bakıda keçirilən Qoşulmama Hərəkatının (QH) Əlaqələndirici Bürosunun Nazirlər İclası çərçivəsində Qoşulmama Hərəkatı Gənclər Təşkilatının (QHGT) mənzil qərargahının açılış mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, 2022-ci ildə Qoşulmama Hərəkatının Gənclər Sammiti zamanı Şuşa Akkordu ilə qəbul edilmiş QHGT-nin Nizamnaməsinə uyğun olaraq, Qoşulmama Hərəkatı Gənclər Təşkilatının mənzil qərargahı Bakı şəhərində yerləşir.

Rəmzi açılış lenti kəsildikdən sonra qonaqlar mənzil qərargahı və qərargah daxilində təsis olunan QH gənclərinin tədqiqat mərkəzinin şəraiti ilə tanış olublar. Mərkəz QH gənclərinin üzləşdiyi məsələlərin araşdırılması və onların həlli istiqamətində təhlillərin aparılması məqsədilə təsis olunub.

Açılış mərasimi Qoşulmama Hərəkatı Gənclər Təşkilatının (QHGT) sədri Orduxan Qəhrəmanzadə bildirib ki, QHGT-nin mənzil qərargahının yaradılması müvafiq qurumlarla sıx əməkdaşlıq şəraitində QH gənclərinin maraqlarını beynəlxalq forumlarda təmsil etmək, onların şəxsi və peşəkar bacarıqlarının inkişaf etdirilməsi üçün geniş imkanlar yaradacaqdır. Sədrin çıxışından sonra QHGT-nin 2021-2023-cü illərdə göstərdiyi fəaliyyəti əhatə edən, habelə




QHGT-nin yeni istifadəyə verilmiş veb-saytı haqqında videoçarxlar təqdim olunub.

Xarici işlər naziri Ceyhun Bayramov çıxış edərək QHGT-nin uğurlu fəaliyyətinin QH gənclərinin müasir çağırışlara birgə cavab verməsində əhəmiyyətini vurğulayaraq, mənzil qərargahında çalışan əməkdaşlara fəaliyyətlərində uğurlar arzu edib.

Gənclər və idman naziri Fərid Qayıbov çıxışında Gənclər və İdman Nazirliyi tərəfindən QHGT-nin fəaliyyətinə göstərilən hər cür dəstəyin davam etdiriləcəyini qeyd edib.

Tədbirin sonunda Azərbaycan, Venesuela və Uqanda xarici işlər nazirləri, eləcə də gənclər və idman naziri Fərid Qayıbov QHGT-nin xatirə kitabına ürək sözlərini yazıblar. Eyni zamanda qonaqlara QHGT adından hədiyyələr təqdim olunub.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə təsis olunan Qoşulmama Hərəkatı Gənclər Şəbəkəsi 2022-ci il 29 iyul tarixində Şuşa Sazişi ilə təşkilata çevrilib. Azərbaycanın sədrliyi dövründə Hərəkatın institusional inkişafı üçün atılmış mühüm addımlardan biri olan QHGT hazırda QH gənclərinin inkişafına təkan verən platforma olaraq genişspektrli fəaliyyətlər icra etməkdədir.

## Qoşulmama Hərəkatının Bakı görüşündə 100-ə yaxın ölkə, 11 beynəlxalq təşkilat təmsil olunub

Azərbaycan Prezidenti İlham Əliyevin Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşünün açılışında müasir beynəlxalq münasibətlər sistemi kontekstində proqram xarakterli çıxışı tədbir iştirakçıları və dünya mətbuatında böyük marağa səbəb olub. Bu gün də çıxışlar zamanı həmin fikirlərə istinad olunmasına şahidlik etdik. AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə müsahibəsində xarici işlər naziri Ceyhun Bayramov söyləyib.

XİN başçısı qeyd edib ki, Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşünün ölkəmizdə keçirilməsi bütün nümayəndə heyətləri tərəfindən təqdir edilib. Onlar yaradılan şəraitə görə Azərbaycana təşəkkür ediblər.

"Bakı görüşündə həyata keçirilən uğurlu siyasətin nəticələrinin şahidi olduq", - deyən Ceyhun Bayramov vurğulayıb ki, tədbirdə 100-ə yaxın ölkədən və 11 beynəlxalq təşkilatdan nümayəndələr iştirak ediblər.

## Ceyhun BAYRAMOV: "Nazirlər görüşü Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə son böyük tədbirdir"

**"Bildiyiniz kimi, iki gün ərzində Bakıda Qoşulmama Hərəkatına üzv dövlətlərin xarici işlər nazirlərinin görüşü keçirildi. Bu, Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə ölkəmiz tərəfindən keçirilən son böyük tədbirdir".**

AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə açıqlamasında Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov deyib.

O qeyd edib ki, tədbirin hazırlıq mərhələsi uzun müddət bundan əvvəl başlamışdı. Bir neçə gün ərzində 120 ölkəyə aid böyük sənədlər paketinin hazırlanması mümkün deyildi. Nyu Yorkda əlaqələndirici şəxslər, 120 ölkənin nümayəndələri tərəfindən mətn üzərində iki ay iş getmişdi. Sənədlərin 90 faizindən çoxu həmin müddətdə hazırlandı. Nazirlər iclasından iki gün əvvələdək bu proses davam etdi", - deyə nazir əlavə edib.

Ölkəmizin sədrliyi ilə bağlı bütün sənədlər paketinin tam razılaşdırıldığını və Kampala sammiti üçün təqdim olunduğunu diqqətə çatdıran C.Bayramov deyib ki, əsas sənəd 1356 maddədən ibarətdir. Bundan başqa əlavə sənədlər qəbul olunub.

## Ceyhun Bayramov həmkarları ilə cari və regional məsələləri müzakirə edib

İyulun 6-da xarici işlər naziri Ceyhun Bayramov Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşü çərçivəsində Azərbaycanda səfərdə olan Venesuela Bolivar Respublikasının xarici əlaqələr üzrə xalq hakimiyyəti naziri İvan Gil-Pinto ilə görüşüb.

Bu barədə AZƏRTAC-a XİN-in Mətbuat xidməti idarəsindən bildirilib.

Qeyd olunub ki, nazir Ceyhun Bayramov Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşündə iştirakına görə Venesuela tərəfinə təşəkkür edərək Hərəkatın tarixən fəal üzvlərindən biri kimi ölkəmizin bütün təşəbbüslərinə göstərilən tam dəstəyi yüksək qiymətləndirib. Ölkəmizin sədrliyi dövründə irəli sürdüyü təşəbbüslərdən söz açan nazir Ceyhun Bayramov Hərəkatın Parlament və Gənclər Şəbəkəsinin yaradıldığını məmnunluqla xatırladaraq, bu gün Venesuela nazirinin iştirakı ilə Qoşulmama Hərəkatı Gənclər Təşkilatının Mənzil Qərargahının açılışının əhəmiyyətini vurğulayıb.

Nazirlər iki ölkə arasında neft, qaz, turizm, hava nəqliyyatı və digər istiqamətlər üzrə əməkdaşlıq münasibətlərinin genişləndirilməsi perspektivləri ətrafında fikir mübadiləsi aparıblar. Ölkəmizin coğrafi cəhətdən uzaq olmasına baxmayaraq, Venesuela ilə münasibətlərin inkişafına önəm verdiyi, neft və qaz sektorunda şirkətlər arasında potensial əməkdaşlığın ümidverici olduğu qarşı tərəfin diqqətinə çatdırılıb.

Venesuelanın xarici əlaqələr üzrə xalq hakimiyyəti naziri Dri İvan Gil-Pinto isə öz növbəsində Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşünə dəvətə görə təşəkkürünü bildirərək COVID-19 pandemiyası dövründə mövcud çətinliklərə baxmayaraq, Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi münasibətilə təbrik edib.

Görüş çərçivəsində "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Venesuela Bolivar Respublikasının Xarici Əlaqələr üzrə Xalq Hakimiyyəti Nazirliyi arasında Diplomatik İnstitutları və Universitetləri arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu" imzalanıb.

* * *

İyulun 6-da Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov Qoşulmama Hərəkatı Əlaqələndirici Bürosunun Nazirlər İclasında iştirak etmək üçün ölkəmizdə səfərdə olan Nikaraquanın xarici işlər naziri Denis Ronaldo Monkada Colindres ilə görüşüb.

Görüş zamanı tərəflər beynəlxalq çoxtərəfli platformalarda, xüsusilə də Qoşulmama Hərəkatı çərçivəsində fəaliyyətlər və gələcək planlar barədə ətraflı müzakirə aparıblar.

C.Bayramov Qoşulmama Hərəkatı çərçivəsində sədrliyimiz dövründə ölkəmizin təşəbbüslərinə göstərilən dəstəyə görə minnətdarlığını bildirib.

Nazirlər ölkələrimiz arasında ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsi, xarici işlər nazirlikləri arasında mütəmadi əsasda məsləhətləşmələrin keçirilməsinə dair razılıq ifadə ediblər.

Nikaraquanın xarici işlər naziri Denis Ronaldo Monkada ölkəsinin Azərbaycanın QH-yə uğurlu sədrliyini və Azərbaycan Prezidentinin QH sədri qismində COVID-19-a qarşı mübarizə ilə bağlı irəli sürdüyü qlobal əhəmiyyətli təşəbbüsləri təqdir etdiyini bildirib.

Tərəflər beynəlxalq gündəlikdəki cari məsələlər, o cümlədən regional vəziyyət barədə fikir mübadiləsi aparıblar.

* * *

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovun Qoşulmama Hərəkatının (QH) Əlaqələndirmə Bürosunun nazirlər görüşü çərçivəsində Uqanda Respublikasının xarici işlər naziri Cece Odonqo ilə görüşündə Azərbaycan XİN-lə Uqanda XİN arasında siyasi məsləhətləşmələr haqqında Anlaşma Memorandumu imzalanıb.

Görüşdə iki ölkə arasında mövcud ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyində duran məsələlər müzakirə olunub.

C.Bayramov Uqanda tərəfinin Azərbaycanın QH-yə sədrliyi dövründə göstərdiyi dəstəyi minnətdarlıqla xatırlayıb. Bu xüsusda, Azərbaycan tərəfindən də Uqandanın Hərəkata sədrliyinə troyka üzvü kimi yaxından dəstək göstəriləcəyini qeyd edib. QH-nin coğrafi baxımdan bir-birinə uzaq ölkələri vahid platformada birləşdirməsi baxımından əhəmiyyətini qeyd edən nazir Ceyhun Bayramov bu kimi görüşlərin üzv ölkələr arasında münasibətlərin inkişafına və əlaqələrin genişləndirilməsi perspektivlərinin müzakirəsinə töhfə verdiyini bildirib.

Cece Odonqo Azərbaycanın mürəkkəb bir dövrdə QH-yə sədrlik etməsinə baxmayaraq, Hərəkatın nüfuzunun artmasında göstərdiyi nümunəvi səylərə görə təşəkkürünü ifadə edib. Bu xüsusda, Azərbaycanın uğurlu sədrlik təcrübəsinin davam etdirilməsi üçün mövcud təcrübənin bölüşülməsinin vacibliyini qeyd edib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

İyulun 6-da xarici işlər naziri Ceyhun Bayramov Qoşulmama Hərəkatının (QH) Əlaqələndirmə Bürosunun nazirlər görüşü çərçivəsində Somali Federativ Respublikasının xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Abşir Ömər Cama ilə görüşüb.

Görüşdə Azərbaycan və Somali arasında əməkdaşlığın mümkün perspektivləri müzakirə olunub.

Ceyhun Bayramov iki ölkə arasında əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində qarşılıqlı təmasların artırılmasının vacibliyini qeyd edib. Bu xüsusda, əlaqələrin genişləndirilməsi üçün mövcud perspektivlərin müzakirəsi məqsədilə siyasi məsləhətləşmələrin keçirilməsinin əhəmiyyəti vurğulanıb.

C.Bayramov Azərbaycanın QH-yə sədrliyi dövründə Hərəkatın inkişafının, üzv dövlətlər arasında münasibətlərin möhkəmləndirilməsinin prioritet istiqamətlərdən olduğunu bildirib. Azərbaycanın QH-yə sədrliyi dövründə həyata keçirilən təşəbbüslər, xüsusilə QH Parlament Şəbəkəsi, QH Gənclər Təşkilatının yaradılmasının əhəmiyyəti vurğulanıb.

Nazir Abşir Ömər Cama Somalinin hər zaman Azərbaycanın ərazi bütövlüyü və suverenliyini dəstəklədiyini qeyd edərək, iki ölkə arasında qarşılıqlı hörmət və həmrəyliyə əsaslanan münasibətlərin daha da inkişafında Somalinin maraqlı olduğunu diqqətə çatdırıb.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Somali Federativ Respublikasının Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyi arasında siyasi məsləhətləşmələr haqqında Anlaşma Memorandumu imzalanıb.

* * *

İyulun 6-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Qoşulmama Hərəkatının koordinasiya bürosunun nazirlər görüşündə iştirak etmək üçün Azərbaycanda səfərdə olan Esvatini Krallığının turizm və ətraf mühit naziri Moses Vilakati ilə görüşüb.

Görüş zamanı Azərbaycan Respublikası və Esvatini Krallığı arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq perspektivləri müzakirə edilib.

Xarici işlər naziri Ceyhun Bayramov Esvatini Krallığının 2019-cu ildə Bakıda keçirilən Qoşulmama Hərəkatının Zirvə görüşü daxil olmaqla, Hərəkatın fəaliyyətində aktiv və səmərəli iştirakı məmnunluqla qeyd edib.

Görüşdə həmçinin Azərbaycan və Esvatini arasında turizm, ətraf mühitin mühafizəsi, mədəniyyət və digər sahələrdə mövcud əməkdaşlıq perspektivləri müzakirə edilib.

Öz növbəsində nazir Moses Vilakati Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyini məmnunluqla qeyd edib. Nazir, həmçinin ölkələr arasında ikitərəfli münasibətlərin, habelə çoxtərəfli platformalarda əməkdaşlığın hazırkı səviyyəsindən məmnunluq ifadə edib.

Görüş zamanı tərəflər digər qarşılıqlı maraq doğuran məsələləri müzakirə ediblər.

Nazirlər iki ölkə arasında siyasi məsləhətləşmələrin vacibliyini vurğulayıblar.

## Azərbaycan ilə Qırğızıstan arasında hərbi əməkdaşlıq məsələləri müzakirə edilib

**İyulun 6-da Qırğızıstan Respublikasının müdafiə naziri general-leytenant Baktıbek Bekbolotovun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə səfər edib.**

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, nümayəndə heyəti əvvəlcə Şəhidlər xiyabanına gələrək ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş vətəndaşlarımızın məzarlarını ziyarət edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Sonra Müdafiə Nazirliyində təntənəli qarşılama mərasimi keçirilib. Fəxri qarovulun önündən keçildikdən sonra hər iki ölkənin Dövlət himnləri səsləndirilib. General-leytenant B.Bekbolotov protokola uyğun olaraq "Şərəf kitabı"nı imzalayıb.



Müdafiə naziri general-polkovnik Zakir Həsənov qonaqları salamlayaraq onları ölkəmizdə görməkdən məmnun olduğunu bildirib. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunda aparılan islahatlar, azad edilən ərazilərdə görülən işlər, həmçinin Azərbaycan-Ermənistan şərti sərhədi və Qarabağ iqtisadi rayonundakı əməliyyat şəraiti barədə danışıb.

General-polkovnik Z.Həsənov bildirib ki, ordumuzun uğurlu əməliyyatlarından düzgün nəticə çıxarmayan Ermənistan üçtərəfli Bəyanatın müddəalarına zidd olaraq silahlı qüvvələrinin qalıqlarını hələ də ərazilərimizdə saxlamaqla regionda sülhün və təhlükəsizliyin təmin olunmasına ciddi maneə yaradır. Azərbaycan Ordusu hər an istənilən təhdidin qarşısını almağa qadirdir.

Ölkəmizə səfərindən məmnun olduğunu bildirən Qırğızıstanın müdafiə naziri isə öz növbəsində səmimi qəbula görə minnətdarlığını bildirib. Xalqlarımızın tarixi dostluq və qardaşlıq əlaqələrinin bütün sahələrdə olduğu kimi hərbi əməkdaşlığın da inkişafına böyük töhfə verdiyini qeyd edib.

Görüşdə Azərbaycan ilə Qırğızıstan arasında hərbi, hərbi-texniki, hərbi təhsil və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə edilib.

## Paşinyanın Azərbaycan əleyhinə yanlış təəssürat yaratmaq məqsədi daşıyan fikirləri tamamilə əsassızdır

**"Ermənistanın baş naziri Nikol Paşinyan tərəfindən hökumətin 6 iyul tarixli iclasında Azərbaycan əleyhinə beynəlxalq ictimaiyyət arasında yanlış təəssürat yaratmaq məqsədi daşıyan fikirləri tamamilə əsassızdır".**

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycanın Xarici İşlər Nazirliyinin yaydığı məlumatda yer alıb.

Məlumatda deyilir: "Ermənistan tərəfinin beynəlxalq hüququn norma və prinsiplərinə və üçtərəfli Bəyanat çərçivəsində öhdəliklərinə uyğun olaraq erməni qüvvələrini Azərbaycan ərazilərindən çıxarmaq əvəzinə, ərazimizdə mövcud olan silahlı qüvvələrin Ermənistana məxsus olmadığına dair işğal dövründə səsləndirilən iddiaların təkrarlanması bu ölkənin yanlış siyasətdən əl çəkmədiyini göstərir.

Ermənistan Respublikasının Müdafiə Nazirliyinin komandanlığı altında fəaliyyət göstərən və Ermənistan məhkəmələri tərəfindən məhkum olunan silahlı qüvvələrin Ermənistana məxsus olmadığını iddia etmək heç bir məntiqə sığmır.

Azərbaycanın ərazilərini işğal altında saxlamaqla və qonşu ölkələrə qarşı ərazi iddiaları irəli sürməklə özünü blokadada saxlayan Ermənistanın Azərbaycanın kommunikasiyaların açılmasında maraqlı olmadığını iddia etməsi və üçtərəfli Bəyanata zidd olaraq Ermənistanın Naxçıvana maneəsiz keçidi təmin etməkdən imtina etməsi Ermənistanın öhdəliklərini heçə saydığını nümayiş etdirir. Azərbaycana qarşı mina təhdidini təkzib edən baş nazirə xatırlatmaq istərdik ki, məhz Ermənistan tərəfindən basdırılmış minalar 2020-ci il 44 günlük müharibədən sonra 300 nəfərdən çox azərbaycanlının mina qurbanına çevrilməsinə səbəb olub. Bununla yanaşı, Ermənistan tərəfindən uzun müddət mövcudluğu təkzib edilən və beynəlxalq təzyiqlərdən sonra təqdim edilən xəritələrin əksəriyyətinin faydasız olduğu və insanların həlak olduğu partlayışların 55 faizinin xəritələr təqdim edilməyən ərazilərdə baş verdiyi məlumdur. Ermənistan tərəfi həqiqətən də sülhdə maraqlıdırsa, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə yalnız sözdə deyil, əməldə də riayət etməli, bölgədə sülh və təhlükəsizliyə təhdid olan erməni silahlı qüvvələrini Azərbaycan ərazisindən dərhal çıxarmalıdır".

# İLHAM ƏLİYEV irqçiliyə, ədalətsizliyə, separatçılığa qarşı qlobal mübarizə platforması yaradır

## İlham Əliyevin liderliyi Qoşulmama Hərəkatını dünyada alternativ güc mərkəzinə çevirib

**Azərbaycan 2019-2022-ci illərdə Qoşulmama Hərəkatına sədrlik edib və daha sonra yekdilliklə Azərbaycanın sədrliyi daha bir il uzadılıb. 2019-2023-cü illər ərzində Azərbaycanın Qoşulmama Hərəkatına dördillik sədrliyi dövründə təşkilat sönük və zəif bir qurumdan dünyada alternativ güc mərkəzinə çevrilib və demək olar ki, artıq formalaşmaqda olan çoxqütblü dünya düzənində özü bir qütb kimi meydana çıxmaqdadır.**
**Bu qənaəti Qoşulmama Hərəkatının əsaslandığı məşhur "Bandunq prinsipləri"nin 1955-ci ildə qəbul edilməsi ilə başlayan tarixinə nəzər yetirməklə əsaslandırmaq olar.**



Qoşulmama Hərəkatının yaranması əsas etibarilə İkinci Dünya müharibəsindən sonra müstəmləkəçiliyə qarşı mübarizə nəticəsində müstəmləkəçilikdən azad olmuş və müstəqilliyini əldə etmiş ölkələrin öz suverenlik və istiqlallarını qorumaq, eləcə də soyuq müharibə dövründə dünyada hökmran olan iki qütb arasında qarşıdurmada alətə çevrilməmək və əzilməmək məqsədindən irəli gəlmişdir.

Qoşulmama Hərəkatı ilk günlərdən suverenlik, ərazi bütövlüyü, daxili işlərə qarışmama kimi prinsipləri əldə rəhbər tutmuşdur. Lakin qurumun fəaliyyəti uzun müddət ərzində mahiyyət etibarı ilə müzakirə platforması olaraq davam etmiş, real gücə çevrilə bilməmiş, daha çox mövcud dünya düzənini diktə edən güclərə qarşı müqavimət göstərmişdir.

Keçmiş SSRİ-nin dağılması, soyuq müharibənin bitməsi və ikiqütblü dünya düzəninin sona çatmasından sonra isə Qoşulmama Hərəkatı sanki aktuallığını itirmiş, sönük, zəif və səsi eşidilməyən bir platforma kimi xarakterizə olunmuşdur. Hərçənd BMT-dən sonra dünyada ikinci ən böyük qurum olduğu və özündə 100-dən artıq ölkəni birləşdirdiyi üçün onun potensialı böyük olmuşdur. Amma bu potensial onilliklər ərzində reallaşdırılmamışdır. Təbii ki, bunun bir sıra səbəbləri var idi. Onların sırasında Qoşulmama Hərəkatı üzvləri arasındakı müəyyən ziddiyyətləri, üzərinə məsuliyyət götürəcək lider dövlətin olmamasını və s. səbəbləri göstərmək olar.

Bu gün tam əminliklə bəyan etmək olar ki, 2019-cu ildə Azərbaycanın Qoşulmama Hərəkatına sədr seçilməsi ilə qurumun tarixində tamamilə yeni, enerjili və fəal bir dövr başlamışdır. Qoşulmama Hərəkatının qlobal məsələlərdə fəal iştirakı və ciddi mövqe ortaya qoyması, institusional inkişaf, o cümlədən qurumun təşkilatlanması və strukturunun genişlənməsi, dünya düzənində özünə layiqli rol oynamaq iddiasını praktik addımlarla ortaya qoyması xüsusilə vurğulanmalıdır. Bütün bunlar da Azərbaycanın və şəxsən Prezident İlham Əliyevin təşəbbüsü və liderliyi ilə həyata keçirilmişdir.

Qeyd olunan məsələlərlə bağlı konkret nümunələrə nəzər yetirək. Azərbaycanın təşəbbüsü ilə Qoşulmama Hərəkatı COVID-19 pandemiyasının alovlanmasından dərhal sonra bu fəlakətlə mübarizədə ön plana çıxdı, "peyvənd millətçiliyi"nə qarşı kəskin mövqe sərgilədi və bütün ölkələr üçün peyvəndlərin əlçatanlığına çağıran iki qətnamənin BMT tərəfindən qəbul edilməsinə nail oldu. Beləliklə, Qoşulmama Hərəkatının tarixində ilk dəfə olaraq effektiv qlobal liderlik nümayiş etdirildi.

Postpandemiya dövründə kasıb ölkələrə dəstək verilməsi məsələsini də Azərbaycanın təşəbbüsü ilə Qoşulmama Hərəkatı dünyanın diqqət mərkəzinə gətirdi. Digər tərəfdən, Azərbaycanın sədrliyi ilə Qoşulmama Hərəkatının institusional inkişafını hədəfləyən ciddi addımlar atıldı: Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi və Gənclər Təşkilatı təsis edildi, institusional inkişaf istiqamətində təşəbbüs və tədbirlər davam etdirildi.

İyulun 5-də Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun "Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli" mövzusunda nazirlər görüşündə Prezident İlham Əliyev təşkilatın bundan sonrakı fəaliyyətinin ana xətləri kimi xarakterizə oluna biləcək bəyanatlar verdi. Dövlət başçısı BMT-nin artıq müasir dövrün reallıqlarına uyğun olmadığını və buna görə də ciddi islahatlar aparılmalı olduğunu bildirdi. Fransanın nümunəsində baş qaldıran neokolonializm, yəni yeni müstəmləkəçilik meyillərinin qarşısının alınması zərurətini vurğuladı. Prezident İlham Əliyev dünyada multilateralizmin inkişafının vacibliyini və bu mənada Qoşulmama Hərəkatının öz layiqli yerini tutmasının zəruri olduğunu bəyan etdi.

Beləliklə, Azərbaycanın sədrliyi dövründə Qoşulmama Hərəkatı qısa müddət ərzində böyük inkişafa nail olub və zəif, sönük bir qurumdan mühüm, alternativ güc mərkəzinə çevrilib. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın Qoşulmama Hərəkatına qoyduğu miras təşkilatın gələcək inkişafı üçün fundamental baza kimi çıxış edir və dövlət başçısının bəyan etdiyi prioritetlər təşkilatın əsas fəaliyyət istiqamətlərini müəyyənləşdirir.

***Adil ƏLİYEV,***
***Milli Məclis Sədrinin müavini***

## "Müstəmləkəçiliyin tamamilə aradan qaldırılması" mövzusunda "dəyirmi masa"da yekun bəyanat imzalanıb






**Azərbaycan Respublikasının sədrlik etdiyi Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşü çərçivəsində iyulun 6-da Bakıda Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin təşəbbüsü ilə "Müstəmləkəçiliyin tamamilə aradan qaldırılması" mövzusunda "dəyirmi masa" keçirilib.**

AZƏRTAC xəbər verir ki, "dəyirmi masa"nın yekunlarına dair bəyanat qəbul edilib.

Bütün dünyada müstəmləkəçiliyə məruz qalan xalqlara, xüsusilə Karib adaları, Cənubi Amerika, Sakit okean və Hind okeanındakı son fransız müstəmləkələrinə həsr olunmuş bu tədbir maraqlı tərəflərə Fransa dövlətinin müstəmləkəçilik siyasətinin müvafiq ölkələrdə fəsadlarına dair fikir mübadiləsi aparmağa imkan verdi.

Əslində, bütün qitələrdən 120 ölkəni birləşdirən Qoşulmama Hərəkatı beynəlxalq hüququn fundamental prinsipləri, eləcə də "Bandunq prinsipləri" və xalqların mənafeyi əsasında müstəmləkəçiliyə qarşı mübarizədə qlobal platforma kimi hələ də müstəmləkə hökmranlığına qarşı mübarizə aparan xalqları dəstəkləmək üçün yeni məqsədlər müəyyənləşdirməyi özünə borc bilib.

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin təşəbbüsü ilə Martinika, Qayana, Yeni Kaledoniya, Fransız Polineziyasının müstəqillik tərəfdarları və GFLM alyansının katibliyi (Groupe Fer de Lance Melanesien) Qoşulmama Hərəkatının müstəmləkəçi və neokolonial təcrübələrə qarşı mübarizədə prinsipial mövqeyinin etibarlılığını bir daha təsdiqləyib və vurğulayıblar.

Azərbaycan Respublikasının paytaxtı Bakıda müxtəlif dekolonizasiya hərəkatlarının fikir mübadilələri nəticəsində bu xalqların gələcəyini, hətta uzunmüddətli perspektivdə sağ qalmalarını təhdid edən müstəmləkəçilik siyasətinin zərərli olduğu vurğulandı:

- Qayanada sosial vəziyyət xüsusilə pisləşir, əhalinin 50 faizindən çoxu yoxsulluğun astanasındadır və işsizlik 30 faizdir; təbii sərvətlər talan edilir və torpaqların 90 faizi Fransa dövlətinin şəxsi mülkiyyətindədir.

-Martinika və Qvadelupa iki böyük fəlakətlə üz-üzədir: gizli məskunlaşma strategiyalarının bir hissəsi olan əvəzetmə yolu ilə soyqırımı, təbii ekosistemlərə və əhalinin sağlamlığına ciddi şəkildə təsir edən xərçəngin rekord göstəriciləri ilə xlordekon zəhərlənməsi.

-Yeni Kaledoniyada Kanak və Sosialist Milli Azadlıq Cəbhəsi (FLNKS) 2021-ci ildəki 3-cü referenduma etiraz edir və müstəmləkə altına salınmış Yeni Kaledoniya xalqının müstəqil olmaq hüququnu bir daha təsdiqləyir.

-Polineziya indi tamamilə dekolonizasiya perspektivi ilə məşğuldur və cənab Oskar Temarunun rəhbərlik etdiyi "Tavini huiraatira no te Ao Maohi" Partiyası Qoşulmama Hərəkatında müşahidəçi statusu almaq istəyir.

Daha geniş mənada, Afrika Mundus sferasının qeyri-hökumət diplomatik şəbəkəsi tərəfindən dəstəklənən, Bakıda olan antimüstəmləkəçi hərəkatlar həm afroəsilli insanlara, həm də yerli xalqlara təsir edən müstəmləkə cinayətlərinə görə kompensasiya tələb edirlər.

Onlar dünya ölkələrini, eləcə də beynəlxalq təşkilatları, o cümlədən BMT-ni özlərinin fundamental hüquqlarına hörmətin təmin edilməsinə yönəlmiş addımları dəstəkləməyə çağırırlar.

Onlar xalqlar arasında qlobal əməkdaşlığa, xalqların bərabərliyinə və suverenliyinə hörmətə əsaslanan beynəlxalq münasibətlərə yeni yanaşma formalaşdırmaq məqsədilə xalqlarının tam azad edilməsinə, müstəmləkəçiliyin kökünün kəsilməsinədək mübarizələrini davam etdirməyi və gücləndirməyi öhdələrinə götürürlər.

Tərəflər Fransa müstəmləkəçiliyinə qarşı Bakı Təşəbbüs Qrupunun yaradılması barədə razılığa gəliblər və əməkdaşlığı davam etdirməyə hazır olduqlarını bildiriblər.

Bəyanatı Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev, Yeni Kaledoniyada Kanak və Sosialist Milli Azadlıq Cəbhəsindən Rok Vamytan və Maqali Tinqal, Dekolonizasiya və Sosial Emansipasiya Hərəkatından Moris Pindard, Sindi Polüks, Jan-Viktor Kastor, Martinikanın Azadlığı Partiyasından Fransis Karol, Suveren Martinika Uğrunda Demokratlar və Ekoloqlar Hərəkatından Klodet Düamel, "Tavini Huiraatira no te Ao Maohi" Partiyasından Oskar Temaru, Antoni Geros, Leon Tefo, Ella Tokaragi, "Africa Mundus"dan Emmanuel Arqo və Edvin Daiti imzalayıblar.

## Fransanın dövlət maraqları bir ovuc erməni diasporunun əlindədir

**Bu gün dünyada ciddi proseslər gedir. Siyasətçilərin və politoloqların yekdil fikirləri belədir ki, beynəlxalq aləmdə yenidən nüfuz uğrunda birləşmiş Qərblə digər güclər arasında ciddi qarşıdurma hökm sürür.**
**Yeni dünya düzəninin qurulması adlandırılan bu proses ağrısız keçmir. Rusiya-Ukrayna müharibəsinə, Çin-Amerika qarşıdurmasına da bu kontekstdən baxmaq lazımdır.**

Dünyanın siyasi mənzərəsini anlamaq üçün dövlətlərin apardığı siyasətə diqqət yetirmək lazımdır. ABŞ-nin, Rusiyanın, Çinin, Türkiyənin, Böyük Britaniyanın apardığı siyasətin məqsədini aydın görmək olur. Ancaq bunu Avropanın aparıcı ölkələrindən olan Fransa barədə demək mümkün deyil. Məsələn, Almaniya hədəfinə çatmaq üçün təmkinli siyasət yürüdür, ölkənin milli və iqtisadi maraqlarına üstünlük verir. Fransanın dövlət maraqları isə bir ovuc erməni diasporunun əlində qalıb. Ümumiyyətlə, bu ölkə həmişə ermənipərəst siyasəti ilə seçilib. Təsadüfi deyil ki, keçmiş Dağlıq Qarabağ münaqişəsini həll etmək üçün Fransanın ATƏT-in Minsk qrupuna həmsədr seçilməsinə Heydər Əliyev kəskin etiraz etmişdi. Səbəb kimi bu ölkənin ermənipərəst siyasət yürütməsi, münaqişə ilə bağlı sərgilədiyi beynəlxalq hüquqa - zidd davranış olmuşdu. Fransanın ovaxtkı Prezidenti Jak Şirak and-aman etmişdi ki, bu işdə ədalət olacaq. Ancaq verdiyi sözə əməl etməmişdir. Ondan sonrakı prezidentlər də ermənipərəst siyasəti davam etdirmişlər. Amma onlar nə qədər ermənipərəst olsalar da, Azərbaycanın ərazi bütövlüyünü dilə gətirmişlər. Təəssüf ki, E.Makron haqqında hətta bu sözləri də demək mümkün deyil.

Bu gün dünya birliyi Fransa Prezidentinin iddiaları ilə imkanları arasında sıxışıb qalmasına şahidlik edir. Bir sıra beynəlxalq problemlərin həllində vasitəçi, bəzən də diktə edən tərəf olmağa çalışan E.Makron öz ölkəsində yığılıb qalan problemləri həll edə bilmir. Bilsəydi, indi ölkəni etiraz dalğası bürüməzdi. O etiraz dalğası ki, E.Makron onu polis zorakılığı ilə yatırtmaq istəyir.

Fransa həm də miqrantlara qarşı qeyri-insani davranışı ilə seçilən ölkəyə çevrilib. E.Makronun yanlış siyasəti nəticəsində bu ölkədə radikal millətçilik gündən-günə artır. Bu yaxınlarda Fransa polisi tərəfindən heç bir zərurət olmadığı halda 17 yaşlı Əlcəzair kökənli gəncin güllələnməsi çox mətləblərdən xəbər verir. Təsadüfi deyil ki, bununla bağlı BMT hüquq-mühafizə orqanlarında irqçilik və ayrı-seçkiliyin dərin problemlərini ciddi şəkildə həll etməyə çağıran bəyanat vermişdir. Bu bir daha göstərir ki, Fransada irqçilik və ayrı-seçkilik dövlət siyasəti səviyyəsinə qədər yüksəlib.

Fransanın tarixi keçmişi də ləkəlidir. Bu ölkənin Afrikada və Asiyada işğal etdiyi ərazilərdə törətdiyi vəhşiliklər hələ də unudulmayıb. Hazırda Afrika qitəsində 20-dən çox ölkə qeyri-rəsmi şəkildə Fransanın müstəmləkəsidir. Fransa həmin ölkələrin bütün təbii sərvətlərini talan etməkdə davam edir. Həmin ölkələrdən Fransanın qanunsuz şəkildə əldə etdiyi illik gəlir mütəxəssislər tərəfindən 500 milyard dollar dəyərində qiymətləndirilir.

Fransa işğal etdiyi Afrika ölkələrində tədrisi zorla fransız dilində aparmağı tələb edir. Bunun nəticəsidir ki, hazırda "qara qitə"də 20-dən çox ölkədə dövlət dili fransız dilidir. Bu yaxınlarda Fransada Əlcəzair əsilli 17 yaşlı gəncin öldürülməsinə etiraz olaraq Əlcəzair dövləti tərəfindən tədrisin fransızca aparılmasına qadağa qoyan qanun qəbul edilib. Ümumiyyətlə, Afrikada yerli əhali onlara qarşı apardığı siyasətə görə Fransaya nifrət edir. Bu üzdən həmin ölkələrdə Fransaya qarşı tez-tez etiraz aksiyaları keçirilir.

Fransanın ədalətsiz və qərəzli siyasətinin şahidi olan ölkələrdən biri də, qeyd etdiyimiz kimi, Azərbaycandır. Fransa BMT-nin daimi üzvü kimi erməni işğalına son qoyulması barədə 4 qətnaməyə səs verən ölkədir. Buna baxmayaraq, 44 günlük Vətən müharibəsində qazanılmış tarixi qələbəmizdən sonra Fransa Prezidenti Emmanuel Makron ölkəmizin ərazi bütövlüyünü şübhə altına alan bəyanatlarla çıxış etməyə başlamış, postkonflikt dövründə Ermənistanla Azərbaycan arasında vasitəçi rolunu oynamaq istəmişdir. Lakin ölkəmizin sərt təpkisi ilə qarşılaşdıqda geri çəkilməyə məcbur olmuşdur.

Sadaladığımız və sadalamadığımız faktların nəticəsidir ki, Emmanuel Makron Fransa tarixində ən aşağı reytinqi olan prezidentdir. Aparılan sorğular göstərir ki, Fransanın hazırkı dövlət başçısı öz xalqının etimadını doğrulda bilmir. Bu yaxınlarda onun Marseldə erməni icması ilə görüşü isə Fransa siyasi tarixində bir qara ləkə kimi qalacaq. Həmin görüşdə E.Makronun açıqlamaları bir daha göstərdi ki, dünyanın qüdrətli bir dövlətinin başçısı erməni lobbisinin əlində alətə çevrilib.

Prezident İlham Əliyev iyulun 5-də Bakı Konqres Mərkəzində Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun "Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli" mövzusunda keçirilən nazirlər görüşündə bütün bunlar barədə demişdir: "Fransanın soyqırımlarla dolu hakimiyyəti dövründə 1,5 milyona yaxın əlcəzairli qətlə yetirilib. Hələ də Paris muzeyində əlcəzairli azadlıq döyüşçülərinin kəllə sümükləri müharibə qənimətləri kimi saxlanılır. Bu, utancverici və iyrənc hərəkətdir. Biz Fransa prezidenti Emmanuel Makrondan həmin qəhrəmanların qalıqlarını Əlcəzairə təhvil verməsini tələb edirik. Özünü yalandan insan haqlarının və beynəlxalq hüququn müdafiəçisi kimi qələmə verən Fransa hələ də digər ölkələrin daxili işlərinə qarışır. Fransa qoşunlarının bu yaxınlarda Mali və Burkina-Fasodan çıxarılması onun Afrikadakı amansız neokolonializm siyasətinin uğursuzluğa məhkum olduğunu bir daha göstərdi. Təəssüf ki, Fransa Azərbaycanın Qarabağ bölgəsində erməni separatizmini dəstəkləyərək, geosiyasi rəqabət, xarici hərbi mövcudluq və "Orientalizm" müstəmləkəçilik siyasəti ilə Cənubi Qafqaz regionunda da eyni mənfur təcrübəni tətbiq etməyə çalışır... Fransa öz müstəmləkə keçmişinə, qanlı müstəmləkə cinayətlərinə və soyqırımı aktlarına görə Qoşulmama Hərəkatına üzv olan Afrika, Cənub-Şərqi Asiya ölkələrindən və digər ölkələrdən üzr istəməlidir".

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Qoşulmama Hərəkatının Bakı mesajları

**Azərbaycanın mühüm beynəlxalq tədbirlər mərkəzinə çevrilməsi Bakıda keçirilən Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun "Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli" mövzusunda nazirlər görüşü ilə bir daha təsdiqləndi. Tədbirdə müxtəlif ölkələrdən yüksəksəviyyəli rəsmi şəxslər iştirak etdilər. Ölkəmiz Qoşulmama Hərəkatına üçillik sədrliyi dövründəki səmərəli fəaliyyətinin bariz nümunəsini bu tədbirdə də göstərdi.**

120 ölkəni birləşdirən Qoşulmama Hərəkatı beynəlxalq hüququn fundamental prinsipləri, xalqların mənafeyi əsasında müstəmləkəçiliyə qarşı mübarizədə qlobal platforma kimi hələ də müstəmləkə hökmranlığına qarşı mübarizə aparan xalqları dəstəkləmək üçün yeni məqsədlər müəyyənləşdirməyi özünə borc bilir. Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşü çərçivəsində iyulun 6-da Bakıda Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin təşəbbüsü ilə "Müstəmləkəçiliyin tamamilə aradan qaldırılması" mövzusunda keçirilən "dəyirmi masa" da Fransanın müstəmləkəçilik siyasətinin bir sıra ölkələrdə törətdiyi fəsadlara dair fikir mübadiləsi aparmağa imkan verdi.

Özünü yalandan insan haqlarının və beynəlxalq hüququn müdafiəçisi kimi qələmə verən Fransanın hələ də digər ölkələrin daxili işlərinə qarışması, Azərbaycanın Qarabağ bölgəsində də erməni separatizmini dəstəkləyərək, geosiyasi rəqabət, xarici hərbi mövcudluq və "Orientalizm" müstəmləkəçilik siyasəti ilə Cənubi Qafqaz regionunda da eyni mənfur təcrübəni tətbiq etməyə çalışması tədbirdə bir daha diqqətə çatdırıldı.

Qeyd edək ki, Prezident İlham Əliyev də Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun "Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli" mövzusunda nazirlər görüşündə Fransada etnik azlıqlara qarşı davamlı və geniş şəkildə yayılmış irqçi, ayrı-seçkilik salan fikirlərin, rəsmi şəxslər və parlamentin iki palatasının üzvləri tərəfindən irqi nifrət xarakterli çıxışların getdikcə artdığını, bu yaxınlarda Əlcəzair əsilli 17 yaşlı yeniyetmənin Fransa polisi tərəfindən qətlə yetirilməsinin bu ölkədə irqçiliyin və islamofobiyanın daha bir əlaməti olduğunu vurğulamışdır.

"Dəyirmi masa"da da bu məsələ müzakirə olunaraq diqqətə çatdırıldı ki, Fransa bir çox hallarda bəzi ölkələrə insan hüquqları, demokratiya ilə bağlı "dərs" verməyə çalışır. Digər tərəfdən, özündə insan hüquqları kobud şəkildə pozulur, irqi, dini mənsubiyyətə görə insanlar diskriminasiyaya məruz qalırlar. Bu da Fransanın insan hüquqları və demokratiyaya yanaşmasında riyakarlığını göstərir. Xüsusilə Makronun rəhbərliyi dövründə Fransada hakimiyyət orqanları ilə cəmiyyət üzvləri arasında qarşıdurmalar intensivləşib və kəskin xarakter alıb. Tədbirdə eyni zamanda qeyd olundu ki, Fransa Yaxın Şərqdə vətəndaş müharibələrinin əsas qızışdırıcı ölkələrindən biridir. Bütün bunlar Fransanın müasir dövrdə insan hüquq və azadlıqlarının qorunmasına, təhlükəsizlik problemlərinə biganə yanaşmasını göstərir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

## *Polineziyadan olan deputat:* "Fransanın nüvə silahından əziyyət çəkən insanlarla bağlı qəbul etdiyi qərar həqiqəti əks etdirmir"

**Fransa nüvə silahı sınaqları əhalini zəhərlədi və bu səbəbdən nəsillərlə davam edən xərçəng xəstəlikləri artıb.**

AZƏRTAC xəbər verir ki, bunu mətbuat konfransında Fransız Polineziyası Assambleyasının deputatı Antoni Geros deyib.

O, Fransanın nüvə silahından əziyyət çəkən insanlarla bağlı qəbul etdiyi qərarın həqiqəti əks etdirmədiyini vurğulayıb. "Polineziyalılar xərçənglə bağlı bütün xərcləri özləri ödəyirlər. Tibbi ekspertizalar kifayət qədər deyil. Fransa nüvədən zərər çəkən şəxslərin xərclərinin bir faizini belə ödəməyib. Onların əhalini zəhərləməsi beynəlxalq məhkəmələrdə sübut edilməlidir", - deyə deputat bildirib.



# İLHAM ƏLİYEV irqçiliyə, ədalətsizliyə, separatçılığa qarşı qlobal mübarizə platforması yaradır




# İlham Əliyev Qoşulmama Hərəkatını daha güclü qlobal təsisata çevirib

*Əvvəli 1-ci səh.*

### Etimadları doğruldan fəaliyyət

BMT-dən sonra dünyanın ikinci ən böyük təşkilatı olan Qoşulmama Hərəkatına 2011-ci ildə tamhüquqlu üzv olan Azərbaycan 120 ölkəni birləşdirən hərəkatın təşəbbüslərinə çox aktiv şəkildə qoşulub.

Hərəkata üzv olduğu qısa zamanda həyata keçirdiyi xarici siyasət sayəsində bu təsisat daxilində də böyük nüfuz və etimad qazanan ölkəmiz 2019-cu ildə Bakıda Qoşulmama Hərəkatının Zirvə toplantısını müvəffəqiyyətlə həyata keçirib, 2019-2022-ci illərdə sədrliyi üzərinə götürüb. Ölkəmizin sədrlik dövründə uğurlu fəaliyyəti və ona olan yüksək etimadın nəticəsi olaraq QH-yə üzv ölkələrin yekdil qərarı ilə Azərbaycanın sədrliyi bir il daha uzadılıb.

Azərbaycan Qoşulmama Hərəkatına uğurla sədrlik etdiyi ötən illər ərzində öz fəaliyyətini tarixi "Bandunq prinsipləri" üzərində qurub. "Bandunq prinsipləri" bütün ölkələrin suverenliyinə, ərazi bütövlüyünə hörmət, dövlətlərin daxili işlərinə qarışmamaq və qarşılıqlı maraqların qorunması və əməkdaşlığın təşviqini özündə ehtiva edir.

Hərəkata sədrlik etdiyi dövrdə Prezident İlham Əliyevin təşəbbüsü ilə təşkilat tərəfindən mühüm qlobal tədbirlər həyata keçirilib, xüsusən QH-nin pandemiya ilə mübarizə tədbirləri beynəlxalq səviyyədə təqdir olunub.

"Beynəlxalq ictimaiyyət COVID-19 pandemiyası ilə necə mübarizə aparacağı barədə çaşqın vəziyyətdə olarkən, misli görünməmiş bu çağırışla mübarizədə qlobal səyləri birləşdirən Qoşulmama Hərəkatı oldu", - deyən Prezident İlham Əliyev qeyd edib ki, 2020-ci ilin mayında Azərbaycanın təşəbbüsü ilə təşkil edilmiş Qoşulmama Hərəkatının liderlər səviyyəsində onlayn sammiti 2020-ci ilin dekabrında BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi ilə nəticələndi. Bundan əlavə, Qoşulmama Hərəkatının bəzi zəngin ölkələr tərəfindən yürüdülən "peyvənd millətçiliyi"nə güclü etirazı və bunun ardınca bütün ölkələr üçün peyvəndlərə ədalətli və universal çıxışla bağlı BMT qətnamələrinin qəbul edilməsi Qoşulmama Hərəkatının koronavirusla mübarizədə liderliyinə dəlalət edir.

Hərəkata sədrliyi dövründə ehtiyacı olan ölkələrə yardım göstərmək Azərbaycanın sədrliyinin digər prioriteti olub. Belə ki, ölkəmiz əksəriyyəti Qoşulmama Hərəkatına üzv olan 80-dən çox ölkəyə ya ikitərəfli qaydada, ya da Ümumdünya Səhiyyə Təşkilatı vasitəsilə COVID-19 ilə bağlı maliyyə və humanitar dəstək göstərib. Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları məbləğində könüllü töhfə verən Azərbaycan həmçinin beş ölkəni peyvəndlə təmin edib.

Xatırladaq ki, İlham Əliyev bu il martın 2-də Bakıda keçirilən Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşündə həmçinin Afrika və inkişaf etməkdə olan kiçik ada dövlətlərinə postpandemiya dövründə bərpanı dəstəkləmək üçün iki qlobal çağırış elan edib. Azərbaycan ilk donor kimi hər iki çağırış üçün bir milyon ABŞ dolları ayırıb.

### Hərəkatın gələcəyinə mühüm miraslar

Ölkəmizin sədrliyi ilə hərəkatın institusional inkişafı istiqamətində də xeyli nailiyyətlər qazanılıb. Qoşulmama Hərəkatının 2021-ci və 2022-ci illərdə Parlament Şəbəkəsinin, eləcə də Gənclər Təşkilatının təsis edilməsi Prezident İlham Əliyevin təşəbbüslərinin tarixi əhəmiyyətli nəticələridir.

Hazırda isə Azərbaycanın sədrliyi ilə Qoşulmama Hərəkatının qadınlar platformasının yaradılması üzərində iş gedir.

"Multilateralizmin əsl müdafiəçisi və BMT-dən sonra ikinci böyük təsisat kimi Qoşulmama Hərəkatı yenidən formalaşan dünya nizamında öz yerini tapmalıdır", - deyən Prezident İlham Əliyev bildirib ki, biz "Bandunq prinsipləri" ətrafında qətiyyətlə dayanmalı, suverenliyin və ərazi bütövlüyünün pozulması, ölkələrin daxili işlərinə müdaxilə hallarına qarşı öz səsimizi ucaltmalıyıq. Hərəkatımızın dünya məsələlərində daha ön mövqedə olması mühüm əhəmiyyət kəsb edir.

Hazırda dünyada baş verən qlobalmiqyaslı problemlərə toxunan İlham Əliyev vurğulayıb ki, hazırda beynəlxalq təşkilatlar, xüsusilə BMT bəşəriyyətin gözləntilərinə cavab vermir. BMT-də ciddi islahatların aparılması qaçılmazdır. BMT Təhlükəsizlik Şurasında Qoşulmama Hərəkatına bir daimi yer verilməlidir: "Zənnimizcə, Qoşulmama Hərəkatına, İslam Əməkdaşlıq Təşkilatına və Afrika İttifaqına sədrlik edən ölkələr BMT Təhlükəsizlik Şurasında veto hüququ ilə rotasiya əsasında yer almalıdırlar".

### Fransa iyrənc əməllərinə görə üzr istəməlidir

İlham Əliyev Bakıda keçirilən bu mötəbər beynəlxalq görüşdə Azərbaycanın neokolonializm meyillərinin artmasından olduqca narahat olduğunu dilə gətirdi. Dekolonizasiya prosesi nəticəsində yaranmış Qoşulmama Hərəkatı keçmişin bu utancverici mirasına qarşı qətiyyətlə mübarizə aparmalı və onun tamamilə aradan qaldırılmasına öz töhfəsini verməli olduğunu söylədi.

Neokolonializmi hələ də davam etdirən ölkələrdən birinin Fransa və bu ölkənin Avropadan kənarda idarə etdiyi ərazilərin fransız müstəmləkə imperiyasının iyrənc qalıqları olduğunu deyən Prezident İlham Əliyev qeyd edib ki, Fransa öz müstəmləkə keçmişinə, qanlı müstəmləkə cinayətlərinə və soyqırımı aktlarına görə Qoşulmama Hərəkatına üzv olan Afrika, Cənub-Şərqi Asiya ölkələrindən və digər ölkələrdən üzr istəməlidir: "Təəssüf ki, Fransa Azərbaycanın Qarabağ bölgəsində erməni separatizmini dəstəkləyərək, geosiyasi rəqabət, xarici hərbi mövcudluq və "Orientalizm" müstəmləkəçilik siyasəti ilə Cənubi Qafqaz regionunda da eyni mənfur təcrübəni tətbiq etməyə çalışır".

### Hərəkatın ən uğurlu dövrü

Ölkəmizin Qoşulmama Hərəkatına sədrliyi dövründə əldə etdiyi ən mühüm və tarixi uğur isə 2020-ci ildə Vətən müharibəsində Qələbəsi oldu. Cəmi 44 gün ərzində Ermənistanı hərb meydanında məğlubiyyətə uğradan Azərbaycan torpaqlarını işğaldan azad etdi.

Xüsusi bir məqamı qeyd edək ki, həm işğal zamanı, həm də işğaldan sonra Qoşulmama Hərəkatına üzv ölkələr Azərbaycanın haqlı və ədalətli mövqeyini dəstəkləyiblər. Elə sözügedən görüşdə bu məqama toxunaraq QH-yə üzv ölkələrə minnətdarlığını bildirən Azərbaycan Prezidenti vurğuladı ki, xüsusilə 2020-ci və 2022-ci illərdə Qoşulmama Hərəkatı ölkələrinin BMT Təhlükəsizlik Şurasında Azərbaycan əleyhinə olan birtərəfli və qərəzli bəyanatların qəbul edilməsinin qarşısını aldıqları iki hala istinad edir.

Dünyada nüfuzu sürətlə artan və fəaliyyətində daim sülhü, tolerantlığı, multikultural dəyərləri təbliğ edən ölkəmiz bəşəri qərarların qəbul olunmasına və icrasına töhfələr bəxş edir. Buna görədir ki, 120 ölkəni birləşdirən mühüm siyasi təşkilat olan Qoşulmama Hərəkatı məhz Azərbaycanın sədrliyi dövründə özünün ən uğurlu dövrünü yaşayır və güclü qlobal platformaya çevrilib.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Azərbaycanın sədrliyi dövründə Qoşulmama Hərəkatının nüfuzu yüksəlib

**120 ölkəni birləşdirən Qoşulmama Hərəkatına 2019-cu ilin payızından Azərbaycan uğurla sədrlik edir. Bu dövrdə təsisatın Bakıda müxtəlif tədbirləri baş tutub.**

İyulun 5-də isə Bakıda təşkilatın növbəti tədbiri - Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun "Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli" mövzusunda nazirlər görüşü keçirilib.

Görüşdə çıxış edən Prezident İlham Əliyev ölkəmizin təşkilata sədrliyi dövründə görülən mühüm işlərdən danışıb. Dövlət başçısı bildirib ki, Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi dövründə "Bandunq prinsipləri" əsasında ədaləti, beynəlxalq hüququ və üzv ölkələrin qanuni maraqlarını qətiyyətlə qoruyub.

### Ölkəmizin sədrliyi olduqca mürəkkəb tarixi dövrə təsadüf edib



Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu qəzetimizə açıqlamasında deyib ki, Qoşulmama Hərəkatı Azərbaycanın sədrliyi dövründə fəaliyyətinin yeni keyfiyyət mərhələsini yaşayıb.

Deputat qeyd edib ki, ölkəmiz QH çərçivəsində hər zaman yüksək nüfuza sahib olub, ehtirama layiq görülüb: "Bunun obyektiv səbəbi odur ki, Azərbaycan QH-nin fəaliyyətinin əsasında duran "Bandunq prinsipləri"ni öz fəaliyyətində əsas götürüb. Təsadüfi deyil ki, Azərbaycanın 2019-cu ildən təşkilata sədrliyi dövründə təsisata üzv ölkələrin davranışlarında bu prinsiplərə istinad edilməsinin vacibliyi geniş təşviq olunub. Ümumiyyətlə, ölkəmizin rəhbərliyi dövründə Qoşulmama Hərəkatının dünya miqyasında nüfuzu əhəmiyyətli dərəcədə artıb. Nəzərə almaq lazımdır ki, Azərbaycanın təşkilata üzvlük tarixi elə də uzaq deyil. 2011-ci ilin may ayında Azərbaycan Qoşulmama Hərəkatına tamhüquqlu üzv seçilib. 2019-cu ildən etibarən sədrliyin Azərbaycana keçməsi haqqında yekdilliklə qərar qəbul olundu".

2019-cu ilin oktyabrında QH-nin XVIII Zirvə toplantısının Bakıda baş tutduğunu xatırladan E.Mirbəşiroğlu bildirib ki, bu iclasda Azərbaycanın ərazi bütövlüyünə açıq dəstək ifadə olunan üç mühüm qətnamə qəbul edilib. "Qoşulmama Hərəkatı beynəlxalq əhəmiyyətli məsələlərin müzakirə olunduğu mühüm konfranslar keçirib. Bu tədbirlərin əksəriyyəti Bakıda baş tutub. Nəzərə almaq lazımdır ki, təsisata Azərbaycanın rəhbərliyi olduqca mürəkkəb tarixi dövrə - pandemiyaya təsadüf etdi", - deyə deputat əlavə edib.

O vurğulayıb ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə 2020-ci ilin may ayında QH-yə üzv ölkələrin təmas qruplarının COVID-19-la mübarizəyə həsr olunmuş toplantısı keçirilib və burada həmin dövr üçün aktual olan məsələlər müzakirə olunub. Eyni zamanda həmin toplantıda dövlət başçısı 2020-ci ildə BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsini təklif edib.

Rəsmi Bakının rəhbərliyi dövründə Azərbaycanın səyləri, təşəbbüsləri nəticəsində təsisat daxilində mühüm institusional inkişaf olduğunu deyən E.Mirbəşiroğlu bu dövrdə QH-nin Parlament Şəbəkəsinin və Gənclər Təşkilatının yaradıldığını xatırladıb. Bu isə gələcəkdə təşkilat çərçivəsində daha sıx ünsiyyət imkanları təqdim etməyə imkan verəcək: "Bütün bunları nəzərə alaraq qeyd etmək lazımdır ki, iyulun 5-6-da QH-nin Əlaqələndirmə Bürosunun nazirlər iclasının Bakıda baş tutması Azərbaycanın sədrliyi dövründə təşkilatın dinamik fəaliyyət göstərdiyini bir daha sübut edir. İclas çərçivəsində də müasir çağırışlarla mübarizədə birlik və əzmkarlıq mövzusunda, dünyanı narahat edən məsələlər ətrafında fikir mübadiləsi aparıldı. Təbii ki, bununla yanaşı, təmasların da inkişaf etməsi gələcəkdə həm iki, həm də çoxtərəfli əməkdaşlıq sistemini inkişaf etdirəcək".



### Azərbaycan təsisatda mühüm rola malikdir

Azərbaycanın bir çox beynəlxalq təşkilatlar çərçivəsində fəal rol oynadığını vurğulayan Milli Məclisin deputatı Ceyhun Məmmədov bildirib ki, bu gün dünyada ölkəmizə diqqət, etimad günü-gündən artır.

O qeyd edib ki, həm BMT, həm də QH Azərbaycanın ən çox əməkdaşlıq etdiyi təşkilatlardandır: "Bu təşkilatlar içərisində Qoşulmama Hərəkatı ilk yerdə durur. Bu, dünyanın ikinci böyük təşkilatıdır. Təsisatın aktivliyi Azərbaycanın sədrliyi dövründə daha da artıb. Ölkəmizdə Qoşulmama Hərəkatının bir çox konfransları, görüşləri keçirilir. Bu da onu deməyə əsas verir ki, Azərbaycan bu təşkilat çərçivəsində də öz işini düzgün formada qurub".

Deputat bildirib ki, Azərbaycan təşkilatda fəaliyyətini uğurla davam etdirir. Prezident İlham Əliyevin də iclasdakı çıxışında təşkilatın rolu və fəaliyyətindən geniş bəhs etdiyini deyən C.Məmmədov xatırladıb ki, dövlət başçısının təşəbbüsü ilə pandemiya dövründə xüsusi iclas keçirilib və bir sıra dövlətlərə humanitar yardım edilib. "Cənab Prezident dəfələrlə "peyvənd millətçiliyi" ilə bağlı fikirlərini, mövqeyini bildirib. Bu gün Azərbaycan Qoşulmama Hərəkatında mühüm rola malikdir. Ölkəmiz təşkilat vasitəsi ilə qarşısına qoyduğu hədəflərə nail olmaq üçün davamlı tədbirlər həyata keçirir. Azərbaycan Qoşulmama Hərəkatında dünyada cərəyan edən proseslərlə bağlı mövqe ortaya qoyan, davamlı addımlar atan bir ölkəyə çevrilib. Bu gün ölkəmizə inam böyükdür. Əminəm ki, növbəti dövrdə də təşkilatda fəaliyyətimiz uğurla davam edəcək. Həm Qarabağ, həm də digər məsələlərdə bütün hədəf və məqsədlərimizə nail olacağıq", - deyə o əlavə edib.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## *Emmanuel ARQO:* "Fransa BMT-nin Afrika mənşəli insanların hüquqları ilə bağlı qərarına əməl etmir"

**Prezident İlham Əliyevin beynəlxalq səviyyədə Fransa ilə bağlı səsləndirdiyi fikirlər xalqımız üçün çox böyük ruh yüksəkliyi oldu. Fransa kimi müstəmləkəçi ölkələr BMT-nin Afrika mənşəli insanların hüquqları ilə bağlı qərarına əməl etmirlər.**




AZƏRTAC xəbər verir ki, bunu Qoşulmama Hərəkatının "Müstəmləkəçiliyin tamamilə aradan qaldırılmasına doğru" mövzusunda keçirilən tədbirin iştirakçısı, Fransadakı "Afrika Mundus" Təşkilatının rəhbəri Emmanuel Arqo deyib.

Braziliyada Afrika mənşəli insanların hüquqlarının qorunması ilə bağlı konfrans keçirmək istədiklərini vurğulayan E.Arqo deyib: "Qoşulmama Hərəkatının toplantısı kimi genişmiqyaslı tədbirdə bizə verilən dəstək çox önəmli idi. Bunun üçün Prezident İlham Əliyevə təşəkkür edirəm. Dünya ictimaiyyətinin bizə dəstək verməsini, hüquqlarımızın bərpa olunmasını istəyirik".

## *Klodet DÜAMEL:* "Fransanın "qətiyyətli siyasət" dediyi bizim ləyaqətimizi alçaltmaqdır"

**Fransanın "qətiyyətli siyasət" dediyi bizim ləyaqətimizi alçaltmaqdır. Bunlar bizi belə bir inanca gətirib çıxarıblar ki, guya, biz insan varlığı deyilik, yarıminsanıq.**



AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə müsahibəsində Müstəqil Martinika naminə Ekoloqlar və Demokratlar Hərəkatının nümayəndəsi Klodet Düamel deyib.

"Yaşlı nəsil də "qətiyyətli" siyasətin qurbanı olur, bu düşüncəyə inanır, gələcək nəslə bu fikri ötürür. Nəticədə gənc nəsil də bu düşüncədə, mədəniyyətdə, dünyagörüşündə yetişir. Belə olan halda onlar öz suverenliyini, müstəqilliyini anlamırlar. Bu da Fransanın xalqlar üzərində dominantlığına şərait yaradır", - deyə Martinika nümayəndəsi qeyd edib.

O bildirib ki, xalqın ləyaqəti Fransa üçün alış-veriş predmetinə çevrilir. "Yerli xalq öz torpaqlarının sahibi deyil. Bizim mədəniyyətimiz, təhsilimiz, dilimiz, iqtisadiyyatımız Fransanın təsiri altındadır. Yerli xalq olaraq itirilmiş hüquqlarımızı bərpa etmək üçün digər xalqlarla birgə mübarizəyə qoşulmalıyıq və bu cür tədbirlər bizi birləşdirməkdə rol oynaya bilər", - deyə o əlavə edib.

## *Jan-Viktor KASTOR:* "Hazırda Fransadakı qarşıdurmalar Makronun siyasəti nəticəsində yaranıb"

**Hazırda Fransada olan qarşıdurmalar Emmanuel Makronun siyasəti nəticəsində yaranıb. Azad şəkildə sözünü demək istəyən insanlara güc tətbiq edilir və onlar susdurulur.**



AZƏRTAC xəbər verir ki, bunu mətbuat konfransında Fransa Milli Assambleyasının Fransız Qvianasından olan deputatı Jan-Viktor Kastor deyib.

O qeyd edib ki, dövlətə edilən müraciətlər gərginliklə qəbul olunur. Gənclərin öldürülməsi, polis zorakılığı, haqsız yerə həbsləri buna nümunə göstərmək olar.

## *Rok VAMYTAN:* "Artıq Fransanın müstəmləkəçilik prosesinə son verməsinin vaxtıdır"

**Biz artıq 160 ildir Fransanın müstəmləkəsi altında yaşayırıq. AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Yeni Kaledoniya parlamentinin sədri Rok Vamytan deyib.**



"Artıq Fransanın insanlara yenidən azadlıq vermək üçün əlindən gələni etməsinin vaxtıdır. Çünki müstəmləkəçilik prosesinə son vermək vaxtıdır", - deyə Rok Vamytan vurğulayıb.

# İLHAM ƏLİYEV irqçiliyə, ədalətsizliyə, separatçılığa qarşı qlobal mübarizə platforması yaradır

# Dünya mətbuatı Qoşulmama Hərəkatının Bakı nazirlər görüşünü diqqət mərkəzində saxlayır

**Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun Bakıda keçirilən "Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli" mövzusunda nazirlər görüşü beynəlxalq KİV-in diqqət mərkəzində qalmaqda davam edir.**

AZƏRTAC xəbər verir ki, müxtəlif media resurslarında yayılmış məqalələrdə Bakı nazirlər görüşünün mühüm mesajların verildiyi, qlobal problemlərə münasibətdə müxtəlif yanaşmaların nümayiş etdirildiyi platformaya çevrildiyi vurğulanıb. Eyni zamanda Azərbaycan Prezidenti İlham Əliyevin çıxışında səsləndirdiyi fikirlərə geniş yer verilib.

ABŞ-ninn **"www.msn.com"** saytında dərc olunan məqalədə bildirilib ki, Prezident İlham Əliyev Qoşulmama Hərəkatına üzv dövlətləri Fransanın yeni müstəmləkəçilik siyasətinə qarşı mübarizə aparmağa çağıraraq deyib: "Dekolonizasiya prosesi nəticəsində yaranmış Qoşulmama Hərəkatı keçmişin bu utancverici mirasına qarşı qətiyyətlə mübarizə aparmalı və onun tamamilə aradan qaldırılmasına öz töhfəsini verməlidir".

Portal dövlətimizin başçısının neokolonializm siyasəti ilə bağlı fikirlərinə də yer verib: "Neokolonializmi hələ də davam etdirən ölkələrdən biri Fransadır. Fransanın Avropadan kənarda idarə etdiyi ərazilər fransız müstəmləkə imperiyasının iyrənc qalıqlarıdır".

Vurğulanıb ki, Azərbaycan Prezidenti həmçinin dünyada islamofobiya və ksenofobiya ilə bağlı narahatlığını ifadə edərək deyib: "Danimarkada, Niderlandda, İsveçdə müqəddəs Quranın yandırılması, təhqir olunması və buna ifadə azadlığı adı altında bəraət qazandırılması tamamilə məsuliyyətsizlikdir, qəbulolunmazdır və bu, pislənilməlidir".

Diqqətə çatdırılıb ki, o, həmçinin bu yaxınlarda əlcəzairəsilli 17 yaşlı yeniyetmənin fransız polisi tərəfindən öldürülməsini xatırladıb, eyni zamanda Fransanı başqa ölkələrin daxili işlərinə müdaxilə etdiyini vurğulayıb.

Ermənistanla sülh quruculuğu prosesindən də danışan Azərbaycanın dövlət başçısı bunun üçün Qarabağdakı bütün erməni silahlılarının bölgəni tərk etməli olduğunu diqqətə çatdırıb.

Afrika hökumətinin saytında **("gov.za")** bildirilib ki, Bakıda keçirilən nazirlər görüşündə gələn il Uqandanın paytaxtı Kampalada təşkil olunacaq Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının qarşıdan gələn 19-cu Zirvə toplantısına hazırlıq məsələləri müzakirə olunub, eyni zamanda qlobal məsələlərə dair prinsipial mövqelər nəzərdən keçirilib.

Kubanın **"Prensa Latina"** agentliyində yayılan xəbərdə Suriya xarici işlər naziri Feysəl Əl-Məkdadın Qoşulmama Hərəkatına üzv ölkələri terrorizmlə mübarizədə səyləri birləşdirməyə çağırdığı vurğulanıb.

Azərbaycan Prezidenti İlham Əliyevin Qoşulmama Hərəkatının (QH) Əlaqələndirmə Bürosunun nazirlər görüşündəki çıxışı ərəb ölkələrinin KİV-i tərəfindən də geniş işıqlandırılıb.

Bu ölkənin **"Noticias de Cuba"** portalında yayılan "Kuba Qoşulmama Hərəkatında Fələstinlə həmrəyliyi təsdiq edir" məqalədə Qoşulmama Hərəkatının Bakıda keçirilən iclasında bu ölkənin Fələstinin Birləşmiş Millətlər Təşkilatına tamhüquqlu üzv kimi daxil olmasına dəstəyini bir daha təsdiqlədiyi vurğulanıb.

Misir, Yəmən, Suriya, BƏƏ, Qətər, İordaniya, Küveyt və Əlcəzairin, habelə Pakistanın qəzet və portallarında oxuculara dövlətimizin başçısının çıxışından əsas məqamlar təqdim olunub.

**"Algeriamaintenant"** qəzetində dərc olunmuş "Azərbaycan Prezidenti Fransanı sərt tənqid edib" sərlövhəli məqalədə qeyd edilib ki, Əlcəzairin xarici işlər naziri Əhməd Attafın da iştirak etdiyi tədbirdə çıxış edən Prezident İlham Əliyev özünü yalandan insan haqlarının və beynəlxalq hüququn müdafiəçisi kimi qələmə verən Fransanın hələ də digər ölkələrin daxili işlərinə qarışdığını, təəssüf ki, Azərbaycanın Qarabağ bölgəsində erməni separatizmini dəstəkləyərək geosiyasi rəqabət, xarici hərbi mövcudluq və "Oriyentalizm" müstəmləkəçilik siyasəti ilə Cənubi Qafqaz regionunda da eyni mənfur təcrübəni tətbiq etməyə çalışdığını söyləyib. Yazıda diqqətə çatdırılıb ki, Azərbaycanın dövlət başçısı həmçinin Fransanın soyqırımlarla dolu hakimiyyəti dövründə 1,5 milyona yaxın əlcəzairlini qətlə yetirdiyini, hələ də Paris muzeyində əlcəzairli azadlıq döyüşçülərinin kəllə sümüklərinin müharibə qənimətləri kimi saxlanıldığını bildirib, bunu utancverici və iyrənc hərəkət adlandırıb. O, Fransa Prezidenti Emmanuel Makrondan həmin qəhrəmanların qalıqlarını Əlcəzairə təhvil verməsini tələb edib. O, eyni zamanda bu yaxınlarda Əlcəzairəsilli 17 yaşlı yeniyetmənin Fransa polisi tərəfindən qətlə yetirilməsinin bu ölkədə irqçiliyin və islamofobiyanın daha bir əlaməti olduğunu vurğulayıb.

Əlcəzairin **"EnTV"** telekanalının saytında, **"Eleane"** nəşrində, **"Əl Hərir"**, **"dz.54.dz"** informasiya portallarında isə "İlham Əliyev Fransa hökumətinə qarşı ağır ittihamlar irəli sürdü" sərlövhəli məqalədə diqqətə çatdırılıb ki, Qoşulmama Hərəkatına uğurla sədrlik edən Azərbaycanın dövlət başçısı neokolonializm siyasətini sərt tənqid edib, xüsusən Fransanın Avropadan kənarda idarə etdiyi ərazilərin fransız müstəmləkə imperiyasının iyrənc qalıqları olduğunu söyləyib. O vurğulayıb ki, Fransa Qəmər adalarının Mayot adası üzərində suverenliyinə, həmçinin Yeni Kaledoniya xalqının, o cümlədən özünün digər dənizaşırı icma və ərazilərində yaşayan xalqların hüquqlarına hörmət etməlidir. Azərbaycanın dövlət başçısı həmçinin Fransanın soyqırımlarla dolu hakimiyyəti dövründə 1,5 milyona yaxın əlcəzairlini qətlə yetirdiyini, hələ də Paris muzeyində əlcəzairli azadlıq döyüşçülərinin kəllə sümüklərinin müharibə qənimətləri kimi saxlanıldığını bildirib, bunu utancverici və iyrənc hərəkət adlandırıb. Prezident İlham Əliyev Fransada, xüsusilə də mediada və internetdə müəyyən etnik azlıqlara qarşı davamlı və geniş şəkildə yayılmış irqçi, ayrı-seçkilik salan fikirlər, rəsmi şəxslər və parlamentin iki palatasının üzvləri tərəfindən irqi nifrət xarakterli çıxışların getdikcə artdığını, bu yaxınlarda Əlcəzairəsilli 17 yaşlı yeniyetmənin Fransa polisi tərəfindən qətlə yetirilməsinin bu ölkədə irqçiliyin və islamofobiyanın daha bir əlaməti olduğunu vurğulayıb. O əlavə edib ki, "bu baxımdan biz BMT-nin polisin atəş açmasını pisləyən və Fransanı "hüquq-mühafizə orqanlarında irqçilik və ayrı-seçkiliyin dərin problemlərini ciddi şəkildə həll etməyə" çağıran bəyanatını dəstəkləyirik".

Ərəb ölkələrində geniş oxucu auditoriyasına malik olan İordaniyanın **"Nəbd"** qəzetində dərc olunmuş "İlham Əliyev Parisi sərt tənqid etdi" sərlövhəli məqalədə diqqətə çatdırılıb ki, Azərbaycanın dövlət başçısı Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşündəki çıxışında Fransanı neokolonializmdə ittiham edib və bildirib ki, əcdadları müstəmləkə siyasətinə məruz qalmış, qul kimi istifadə olunmuş, öldürülmüş, işgəncələr verilmiş və alçaldılmış insanlardan milyonlarla insanın qarşısında üzr istənilməsi yalnız Parisin tarixi günahının etirafı olmayacaq, həm də Fransanın əlcəzairli yeniyetmənin vəhşicəsinə öldürülməsindən sonra qarşılaşdığı dərin siyasi, sosial və humanitar böhranın nəticələrinin aradan qaldırılmasına kömək edəcək. Yazıda vurğulanıb ki, Prezident İlham Əliyev Azərbaycanın neokolonializm meyillərinin artmasından olduqca narahat olduğunu qeyd edib, dekolonizasiya prosesi nəticəsində yaranmış Qoşulmama Hərəkatının keçmişin bu utancverici mirasına qarşı qətiyyətlə mübarizə aparmalı və onun tamamilə aradan qaldırılmasına öz töhfəsini verməli olduğunu deyib. O əlavə edib ki, neokolonializmi hələ də davam etdirən ölkələrdən biri Fransadır. Bu ölkənin Avropadan kənarda idarə etdiyi ərazilər fransız müstəmləkə imperiyasının iyrənc qalıqlarıdır.

Küveytin **"q-8.press"** informasiya portalında dərc edilmiş "Prezident İlham Əliyev islamın zorakılıq və terrorla eyniləşdirilməsindən narahatlığını ifadə edib" sərlövhəli məqalədə qeyd edilib ki, Azərbaycanın dövlət başçısı Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşündəki çıxışında islamofobiya və dini rəmzlərin təhqir olunmasını qətiyyətlə pisləyib. O deyib: "Fikrimizcə, mədəniyyətlərarası və dinlərarası dialoqun təşviqi bizim gündəliyimizdə öndə duran məsələlər olmalıdır. Biz geniş vüsət alan islamofobiya və ksenofobiya hallarından, həmçinin islamın zorakılıq və terrorla eyniləşdirilməsi cəhdlərindən narahatıq. Danimarkada, Niderlandda, İsveçdə müqəddəs Quranın yandırılması, təhqir olunması və buna ifadə azadlığı adı altında bəraət qazandırılması tamamilə məsuliyyətsizlikdir, qəbulolunmazdır və bu, pislənilməlidir".

Qətərin rəsmi **QNA** informasiya agentliyinin saytında Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşü haqqında xəbər və Prezident İlham Əliyevin bu mötəbər tədbirdə çıxışından əsas məqamlar təqdim edilib.

Bu ölkənin **"www.gulf-times.com"** saytında dərc olunan məqalədə isə Qətərin xarici işlər üzrə dövlət naziri Sultan bin Saad əl-Murayxinin Qoşulmama Hərəkatının Bakıda keçirilən nazirlər görüşündə iştirak etdiyi, tədbirdə bəzi ölkələrdə "Qurani-Kərim"in nüsxələrinin yandırılması cinayətini kəskin şəkildə pislədiyi, bunu nifrət və islamofobiya hisslərini alovlandıran, qlobal miqyasda sülh və sabitliyə təhlükə yaradan irqçi cinayət hesab etdiyi bildirilib. Qeyd edilib ki, o, üzv ölkələri azadlıq və ədalət dəyərlərinə zidd olan, xalqlar və millətlər arasında ünsiyyətə xələl gətirən belə cinayətlərin təkrarlanmaması üçün kollektiv tədbirlər görməyə çağırıb.

Pakistanın nüfuzlu **"İslamabad-post"** qəzetində isə Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşündəki çıxışının ingilis dilində tam mətni dərc edilib.

Prezident İlham Əliyevin çıxışının əsas məqamları Yəmənin **"ManbarAden"** qəzetində dərc olunmuş "Azərbaycan Prezidenti Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşündə aktual beynəlxalq məsələlərdən bəhs etdi" sərlövhəli materialda da yer alıb.

İordaniyanın rəsmi **Petra**, BƏƏ-nin **WAM** informasiya agentlikləri də Bakıda keçirilən Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşü haqqında materiallar dərc edilib.

Moldovanın aparıcı **"Point", "Noi", "Timpul"** xəbər portalları da Azərbaycan Prezidenti İlham Əliyevin Qoşulmama Hərəkatının nazirlər görüşündəki çıxışına geniş yer ayırıb.

Məqalələrdə dövlətimizin başçısının Ermənistanın qeyri-konstruktiv mövqeyinə dair fikirlərinə xüsusi diqqət çəkilib.

Prezident İlham Əliyevə istinadla qeyd olunub ki, əgər Ermənistan həqiqətən də regionda çoxdan gözlənilən sülhdə maraqlıdırsa, onda onun silahlı qüvvələri Azərbaycanın Qarabağ bölgəsindən tamamilə çıxmalıdır. Bölgədəki erməni hərbi və yarımhərbi elementləri tərk-silah edilməlidir.

Məqalələrdə Prezident İlham Əliyevin həmçinin bu fikirləri oxucuların diqqətinə çatdırılıb: "Münaqişə başa çatdıqdan az sonra Azərbaycan Ermənistanla bir-birinin suverenliyinin və ərazi bütövlüyünün qarşılıqlı tanınması əsasında sülh sazişi imzalamaq üçün beş əsas prinsipini təqdim edib. Ermənistanın Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımağa məcbur olmasına baxmayaraq, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində hələ də Ermənistan silahlı qüvvələrinin qalıqları mövcuddur".

Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun Bakıda keçirilən "Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli" mövzusunda nazirlər görüşü Bosniya və Herseqovina mediası tərəfindən də geniş işıqlandırılıb.

**"Slobodna Bosna", "Bosna info", "Federalna"** və **"N1info"** kimi informasiya agentliklərinin yaydığı xəbərlərdə Prezident İlham Əliyevin görüşdəki çıxışı zamanı Fransanın neokolonializmi hələ də davam etdirən ölkələrdən biri olduğunu qeyd etdiyi bildirilib. Azərbaycan Prezidentinin Fransada, xüsusilə də mediada müəyyən etnik azlıqlara qarşı davamlı və geniş şəkildə yayılmış irqçi, ayrı-seçkilik salan fikirlərin davam etdiyini bildirdiyi qeyd olunub.

Yazılarda Prezident İlham Əliyevin Fransanı öz müstəmləkə keçmişinə, qanlı müstəmləkə cinayətlərinə və soyqırımı aktlarına görə Qoşulmama Hərəkatına üzv olan Afrika, Cənub-Şərqi Asiya ölkələrindən və digər ölkələrdən üzr istəməyə çağırdığı vurğulanıb.

Məqalələrdə Azərbaycan Prezidentinin görüşdəki çıxışı zamanı səsləndirdiyi bu fikirlərə yer verilib: "Bir neçə gün əvvəl Niderland kralı ölkəsinin müstəmləkə keçmişinə və qul ticarəti ilə məşğul olduğuna görə rəsmən üzr istəyib. Biz onun fransız həmkarını da həmin hərəkəti etməyə çağırırıq. Heç vaxt olmamaqdansa gec olması yaxşıdır. Əcdadları müstəmləkə siyasətinə məruz qalmış, qul kimi istifadə olunmuş, öldürülmüş, işgəncələr verilmiş və alçaldılmış insanlardan milyonlarla insanın qarşısında üzr istənilməsi yalnız Fransanın tarixi günahının etirafı olmayacaq, həm də Fransanın əlcəzairli yeniyetmənin vəhşicəsinə öldürülməsindən sonra qarşılaşdığı dərin siyasi, sosial və humanitar böhranın nəticələrinin aradan qaldırılmasına kömək edəcək".

Rusiyanın **"Kommersant" qəzeti, "News.ru", "Voyennoe obozreniye", "Novıye izvestiya", "Region Rossii"** nəşrləri, **"Vestnik Kavkaza"** agentliyi, **"Mir"** teleşirkəti və bir sıra digər mətbuat orqanları Prezident İlham Əliyevin görüşdəki çıxışı zamanı Fransanın neokolonializm siyasətini tənqid etdiyini bildiriblər. Qeyd olunub ki, Azərbaycan Prezidenti Fransanı erməni separatizmini dəstəkləməkdə təqsirləndirib, eyni zamanda Fransada irqçilik meyillərinin, milli azlıqlara qarşı təzyiqlərin artdığını deyib.

Azərbaycan liderinin BMT Təhlükəsizlik Şurası ilə əlaqədar söylədikləri də Rusiya KİV-ində yer alıb. Oxucuların diqqətinə çatdırılıb ki, Prezident İlham Əliyev Qoşulmama Hərəkatına sədrlik edən ölkələrin də BMT Təhlükəsizlik Şurasında təmsil olunması təklifini irəli sürüb. Həmçinin Azərbaycanın dövlət başçısının Ermənistandan silahlı dəstələrini Qarabağdan çıxarmasını tələb etdiyi vurğulanıb.

Gürcüstanın **"Kavkasia.net"** portalında rus dilində yayımlanan materialda Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistanı bütün qoşunlarını Qarabağdan çıxarmağa çağırdığı yazılır. Azərbaycanın dövlət başçısının çıxışına istinadla yayılan məlumatda deyilir: "Ermənistan Qarabağı Azərbaycanın bir hissəsi kimi tanımağa məcbur edilsə də, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisində hələ də Ermənistan silahlı qüvvələrinin qalıqları var. Əgər Ermənistan həqiqətən də regionda çoxdan gözlənilən sülhün əldə olunmasında maraqlıdırsa, o zaman onun silahlı qüvvələri Azərbaycanın Qarabağ bölgəsini tamamilə tərk etməlidir. Yerdəki erməni hərbi və hərbiləşdirilmiş birləşmələri tərk-silah edilməlidir".

Geniş oxucu kütləsinə malik olan **"apsny.ge"** portalında yayımlanan xəbərdə isə Prezident İlham Əliyevin BMT Təhlükəsizlik Şurası haqqında fikirləri yer alıb. Bildirilir ki, hazırda beynəlxalq təşkilatlar, xüsusən də BMT bəşəriyyətin ümidlərini doğrultmur. BMT istər-istəməz ciddi islahatlardan keçməlidir. BMT Təhlükəsizlik Şurası keçmişin yadigarıdır və indiki reallığı əks etdirmir.

**"Gaxa.ge"** portalında yayımlanan materialda da Azərbaycan Prezidentinin beynəlxalq təşkilatlar, xüsusən də BMT barədə söylədiyi fikirlər yer alıb. Həmin portalda yayımlanan digər materialda isə Prezident İlham Əliyevin Ermənistan və sülh sazişi ilə əlaqədar fikirlərindən bəhs olunur. Dövlətimizin başçısının fikirlərindən gətirilən sitatda deyilir: "Ermənistan həqiqətən də sülhün bərqərar olmasında maraqlıdırsa, o zaman onun silahlı qüvvələri Qarabağı tərk etməlidir. Ermənistanın Qarabağı Azərbaycanın bir hissəsi kimi tanımalı olmasına baxmayaraq, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində hələ də Ermənistan silahlı qüvvələrinin qalıqları var. Əgər Ermənistan həqiqətən də regionda çoxdan gözlənilən sülhün əldə olunmasında maraqlıdırsa, o zaman onun silahlı qüvvələri Azərbaycanın Qarabağ bölgəsindən tamamilə çıxarılmalıdır. Ermənistanın hərbi və hərbiləşdirilmiş elementləri yerindəcə tərk-silah edilməlidir".

Gürcüstanın **"24news.ge"** portalında yayımlanan məlumatda isə Prezident İlham Əliyevin Zəngəzur dəhlizi ilə bağlı fikirləri yer alıb. Bildirilir ki, Ermənistan Zəngəzur dəhlizinin açılmasına mane olur. Materialda deyilir: "Ərazilərimiz işğaldan azad edildikdən sonra Azərbaycan indi bir sıra nəhəng çağırışlarla üz-üzədir. Keçmişdə işğal altında olmuş ərazilərdəki dağıntıların miqyasından dəhşətə gəldik. Azərbaycanın şəhər və kəndləri Ermənistan tərəfindən qəsdən dağıdılmış, talan olunmuş, bütün mədəni və dini abidələr, məscidlər təhqir olunmuş, qarət edilmişdir. Ermənistan işğal etdiyi ərazilərdə urbisid, kultursid və ekosid törətmişdir. İşğal altında olmuş ərazilərdəki 67 məsciddən 65-i dağıdılıb, qalanlarından isə donuz və inəklər üçün tövlə kimi istifadə edilib ki, bu da bütün dünya müsəlmanlarına qarşı təhqirdir".

**"Qafqazturk.com"** saytında gürcü dilində yayımlanan materialda oxuculara Azərbaycan Prezidentinin regiondakı və dünyadakı çağırışlar, eləcə də Azərbaycanın üzləşdiyi problemlər barədə məlumat çatdırılır.

Bildirilir ki, Azərbaycan indi sınaq qarşısındadır. Otuz il əvvəl Ermənistan Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin təxminən 20 faizini işğal edib və həm Ermənistanda, həm də Azərbaycanın işğal olunmuş ərazilərində etnik təmizləmə həyata keçirib. Azərbaycan ərazilərini işğaldan azad etdikdən sonra bir çox problemlərlə üzləşib.

Portalın yaydığı daha bir materialda isə oxuculara Zəngəzur dəhlizi ilə bağlı məlumat verilir. Bildirilir ki, Ermənistan eyni zamanda Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək dəhlizin açılmasına mane olur ki, bu da təxminən üç il əvvəl imzaladığı kapitulyasiya aktına daxil olan digər öhdəlikdir.

Çinin **"China.org"** portalında yayımlanan "İranın xarici işlər naziri: Birtərəfli sanksiyalar açıq-aşkar "iqtisadi terrorizmdir" sərlövhəli məqalədə nazir Hüseyn Əmir Abdullahiyanın Azərbaycanın paytaxtı Bakıda keçirilən iclasda "birtərəfli və qeyri-qanuni" sanksiyaların açıq-aşkar "iqtisadi terrorizm" və hədəf alınan ölkələrin insan haqlarının açıq-aşkar pozulması olduğunu bildirdiyi diqqətə çatdırılıb. O, inkişafa nail olmağın hər bir xalqın haqqı olduğunu bildirib və Qoşulmama Hərəkatını dünyada maksimum inkişafın təşviqi üçün beynəlxalq səylərdə daha fəal rol oynamağa çağırıb.

İranın **İRNA** dövlət informasiya agentliyi, **"Mehr"** agentliyi, ingilis dilində dərc olunan **"Tehran times"** qəzeti və digər media qurumları Qoşulmama Hərəkatının Bakıda keçirilən tədbirini diqqətdə saxlayıblar.

**"Tehran times"** qəzeti yazır ki, tədbirdə İranın xarici işlər nazirinin iştirakı iki qonşu dövlətin münasibətlərinin də yaxınlaşmasına stimul verə bilər. Qəzetə müsahibə verən İran parlamentinin nümayəndəsi Əbülfəz Amoli bildirib ki, xarici işlər naziri Əmir Abdullahiyanın Bakı səfəri və oradakı görüşləri əlaqələrin bərpasında mühüm rol oynaya bilər. O qeyd edib ki, İran ilə Azərbaycan xalqları oxşar tarixə, dinə və adət-ənənələrə malikdir.

İranlı deputat Qoşulmama Hərəkatının Bakıda keçirilən tədbirini yüksək qiymətləndirib və deyib ki, bu görüş Azərbaycana öz diplomatiyasını təşviq etmək üçün imkan yaradıb.

**İRNA** xəbər agentliyinin saytında yayımlanan məqalədə qeyd edilib ki, İranın xarici işlər naziri iki ölkənin birgə beynəlxalq layihədə iştirakını xüsusi vurğulayıb. Nazir deyib ki, İran ilə Azərbaycan "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin formalaşmasında iştirak edir və beynəlxalq əhəmiyyətli bu layihə hər iki dövlətin iqtisadi inkişafına böyük töhfə verəcək.

**"Mehr"** xəbər agentliyi isə nazir Ə.Abdullahiyanın çıxışında səsləndirdiyi fikirlər və tədbirin yüksək səviyyədə təşkil olunması barədə informasiya dərc edib.

Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun Bakıda keçirilən nazirlər görüşü barədə məlumatlar Əfqanıstanın **"Bakhtar"** xəbər agentliyi, Nikaraquanın **"La Primerisima"** radiosu və digər ölkələrin kütləvi informasiya vasitələri tərəfindən dərc olunub və yayımlanıb.



# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 201 **QƏRAR** Bakı şəhəri, 20 iyun 2023-cü il

**“Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin rəis və sıravi heyətinin geyim forması və fərqlənmə nişanları ilə təmin edilməsi Qaydalarının və normalarının təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 10 mart tarixli 117 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin rəis və sıravi heyətinin geyim forması və fərqlənmə nişanları ilə təmin edilməsi Qaydalarının və normalarının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 10 mart tarixli 117 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 785, № 11, maddə 1943) aşağıdakı dəyişikliklər edilsin:

1. Həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin rəis və sıravi heyətinin geyim forması və fərqlənmə nişanları ilə təmin edilməsi Qaydaları"nın 6-cı, 10-cu hissələrində və 12-ci hissənin birinci, ikinci cümlələrində "Təchizat İdarəsi" sözləri "Maddi-Texniki Təminat Baş İdarəsi" sözləri ilə əvəz edilsin.

2. Həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə - "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin böyük, orta, kiçik rəis və sıravi heyətlərinin geyim forması və fərqlənmə nişanları ilə təmin edilməsi Norması" yeni redaksiyada təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 20 iyun tarixli 201 nömrəli Qərarı ilə təsdiq edilmişdir

**3 nömrəli əlavə**

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin böyük, orta, kiçik rəis və sıravi heyətlərinin geyim forması və fərqlənmə nişanları ilə təmin edilməsi NORMASI

| Sıra №-si | Əşyaların adı | Bir nəfər üçün əşyanın miqdarı (norması) | İstifadə müddəti | Qeyd |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 |
| **1. Geyim forması** | | | | |
| 1.1. | Parad-çıxış furajkası | 1 ədəd | 5 il | 1 |
| 1.2. | Gündəlik furajka | 1 ədəd | 1,5 il | 2 |
| 1.3. | Parad-çıxış pilotkası | 1 ədəd | 5 il | 3 |
| 1.4. | Gündəlik pilotka | 1 ədəd | 1,5 il | 3 |
| 1.5. | Yay səhra furajkası | 1 ədəd | 2 il | |
| 1.6. | Səhra furajkası | 1 ədəd | 2 il | |
| 1.7. | Qış səhra papağı | 1 ədəd | 2 il | |
| 1.8. | Qış papağı | 1 ədəd | 2 il | |
| 1.9. | Gündəlik palto | 1 ədəd | 5 il | |
| 1.10. | İsti qış gödəkçəsi | 1 ədəd | 2 il | |
| 1.11. | Qış səhra gödəkçəsi | 1 ədəd | 3 il | 4 |
| 1.12. | Plaş-palto | 1 ədəd | 4 il | 5 |
| 1.13. | Parad-çıxış geyim forması | 1 dəst | 5 il | 1 |
| 1.14. | Gündəlik geyim forması | 1 dəst | 1,5 il | 6 |
| 1.15. | Yay şalvarı | 1 ədəd | 1 il | |
| 1.16. | Gündəlik şalvar | 1 ədəd | 1 il | 7 |
| 1.17. | Yay yubkası | 1 ədəd | 1 il | |
| 1.18. | Gündəlik geyim forması (mont) | 1 dəst | 2 il | 2 |
| 1.19. | Səhra kostyumu | 1 dəst | 2 il | 8 |
| 1.20. | Plaş-örtük | 1 ədəd | 5 il | 9 |
| 1.21. | Pulover | 1 ədəd | 2 il | |
| 1.22. | Motosikletçi kostyumu | 2 dəst | 2 il | 10 |
| 1.23. | Motosikletçi dəbilqəsi | 1 ədəd | 5 il | 11 |
| 1.24. | Yay örtüyü | 1 ədəd | 2 il | 12 |
| 1.25. | İdman kostyumu | 1 dəst | 2 il | |
| 1.26. | Parad-çıxış forması üçün uzunqol köynək | 1 ədəd | 1 il | |
| 1.27. | Gündəlik geyim forması üçün uzunqol köynək | 2 ədəd | 2 il | 2 |
| 1.28. | Qısaqol köynək | 2 ədəd | 2 il | 2 |
| 1.29. | Parad-çıxış qalstuku | 1 ədəd | 1 il | |
| 1.30. | Gündəlik qalstuk | 2 ədəd | 1 il | 13 |
| 1.31. | Parad-çıxış şərfi | 1 ədəd | 2 il | |
| 1.32. | Gündəlik şərf | 1 ədəd | 2 il | |
| 1.33. | Parad-çıxış əlcəyi | 1 cüt | 2 il | |
| 1.34. | Gündəlik əlcək | 1 cüt | 2 il | |
| **2. Alt paltarı** | | | | |
| 2.1. | Mayka | 2 ədəd | 1 il | |
| 2.2. | Səhra geyim maykası | 2 ədəd | 2 il | 14 |
| 2.3. | Tuman | 2 ədəd | 1 il | |
| 2.4. | Corab | 2 cüt | 1 il | 15 |
| 2.5. | İsti alt tumanı və köynəyi | 1 dəst | 2 il | |
| **3. Ayaqqabı** | | | | |
| 3.1. | Gündəlik ayaqqabı | 1 cüt | 1 il | 16 |
| 3.2. | Qış çəkməsi | 1 cüt | 2 il | 17 |
| 3.3. | Səhra çəkməsi | 1 cüt | 2 il | 18 |
| 3.4. | Uzunboğaz çəkmə | 1 cüt | 2 il | 3 |
| 3.5. | İdman ayaqqabısı | 1 cüt | 2 il | |
| 3.6. | Şap-şap | 1 cüt | 2 il | 19 |
| **4. Ləvazimat** | | | | |
| 4.1. | Parad-çıxış kəməri | 1 ədəd | 15 il | 20 |
| 4.2. | Akselbant | 1 ədəd | 15 il | 20 |
| 4.3. | Şalvar üçün qayış | 1 ədəd | 3 il | 21 |
| 4.4. | Xüsusi kəmər | 1 dəst | 4 il | 21 |
| 4.5. | Fıştırıq | 1 ədəd | 5 il | |
| **5. Atribut** | | | | |
| 5.1. | Fərqlənmə nişanı | | | 22 |

**Qeydlər:**
1. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasının kursantlarına 4 (dörd) il müddətinə verilir.
2. Bayır xidmətinin əməkdaşlarına 1 (bir) il müddətinə verilir.
3. Qadınlara verilir.
4. Mütəmadi təlimlərə cəlb olunan əməkdaşlara əlavə qış səhra gödəkçəsi 1 ədəd 2 (iki) il müddətinə verilir.
5. Böyük və orta rəis heyətinə verilir.
6. Qadınlara yubka ilə, bayır xidmətinin əməkdaşlarına 1 (bir) il müddətinə verilir.
7. Qadınlara və bayır xidmətinin əməkdaşlarına verilir.
8. Mütəmadi təlimlərə cəlb olunan əməkdaşlara əlavə səhra kostyumu 1 dəst 1 (bir) il müddətinə verilir.
9. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Çevik Polis Alayı, post-patrul, yol-patrul və ictimai təhlükəsizlik xidmətlərinin əməkdaşlarına verilir.
10. Motosiklet təhkim olunmuş əməkdaşlara 1 dəst yay, 1 dəst qış kostyumu verilir.
11. Motosiklet təhkim olunmuş əməkdaşlara verilir.
12. Post-patrul və yol-patrul xidmətlərinin əməkdaşlarına verilir.
13. Bayır xidmətinin əməkdaşlarına verilmir.
14. Mütəmadi təlimlərə cəlb olunan əməkdaşlara 1 (bir) il müddətinə verilir.
15. Qadınlara kapron corab, mütəmadi təlimlərə cəlb olunan əməkdaşlara əlavə 2 cüt isti corab verilir.
16. Bayır xidmətinin əməkdaşlarına 2 cüt verilir.
17. Əməliyyat şəraiti çətin olan dağ rayonlarının bayır xidmətinin əməkdaşlarına 1 (bir) il müddətinə verilir.
18. Mütəmadi təlimlərə cəlb olunan əməkdaşlara 2 cüt verilir.
19. Kursant və dinləyicilərə verilir.
20. Kursant və fəxri qarovula mərasimlərdə müvəqqəti istifadə üçün verilir.
21. Bayır xidmətinin əməkdaşlarına 2 (iki) il müddətinə verilir.
22. Fərqlənmə nişanları hər geyim formasına uyğun onun istifadə müddətinə verilir.

# Baş prokuror Türk Dövlətləri Təşkilatının Baş katibi ilə görüşüb



**İyulun 6-da baş prokuror Kamran Əliyev ölkəmizdə işgüzar səfərdə olan Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi Kubanıçbek Ömüralıyevlə görüşüb.**

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, qonağı salamlayan baş prokuror Azərbaycanla TDT arasında əməkdaşlığın əhəmiyyətini vurğulayaraq qardaş və dost türkdilli ölkələrin müxtəlif qurumları, o cümlədən prokurorluq orqanları arasında əlaqələrin gücləndirilməsinin önəmli olduğunu bildirib.

Kamran Əliyev Vətən müharibəsi zamanı TDT tərəfindən ölkəmizin haqlı mövqeyi daim dəstəkləndiyinə görə təşəkkürünü ifadə edərək Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın diqqəti ilə Qarabağda aparılan geniş quruculuq bərpa işləri haqda qonağı məlumatlandırıb.

2021-ci il noyabrın 1-də Azərbaycan və Türkiyə prokurorluqlarının təşəbbüsü ilə Bakıda TDƏŞ-ə üzv dövlətlərin Baş prokurorlarının ilk iclası və Baş prokurorlar Şurasının təsis edilməsinin əhəmiyyəti vurğulanaraq, ötən ilin avqust ayında ölkəmizin evsahibliyi ilə Bakıda TDT üzv ölkələrin gənc prokurorları üçün hüquqi əməkdaşlıq mövzusunda beynəlxalq seminarın keçirilməsi qeyd olunub.

Baş katib Kubanıçbek Ömüralıyev yaradılmış platformanın TDT tərəfindən təqdir edildiyini və dəstəkləndiyini bildirərək türkdilli ölkələr arasında hərtərəfli əməkdaşlığın inkişafında, xüsusən də cinayətkarlığa qarşı mübarizədə təsis edilmiş şuranın mühüm əhəmiyyətə malik olduğunu vurğulayıb.

Görüş zamanı qarşılıqlı maraq doğuran, o cümlədən şuranın ikinci iclasının cari ilin noyabr ayında Ankara şəhərində keçirilməsi və sair məsələlər üzrə səmərəli fikir mübadiləsi aparılıb.

# Energetika naziri səudiyyəli həmkarı ilə görüşüb



**Vyanada OPEC tədbiri çərçivəsində energetika naziri Pərviz Şahbazov ilə Səudiyyə Ərəbistanı Krallığının energetika naziri şahzadə Əbdül Əziz bin Salman Əl-Səud arasında görüş olub.**

AZƏRTAC xəbər verir ki, görüşdə "OPEC plus" və ikitərəfli formatda enerji əməkdaşlığı məsələləri müzakirə edilib. Qlobal neft bazarının cari vəziyyəti, tənzimləmə prosesi çərçivəsində hasilatın könüllü azaldılması ilə bağlı həyata keçirilən tədbirlər ətrafında fikir mübadiləsi aparılıb. Gələcəkdə enerji bazarlarında qeyri-sabitlik və enerji çatışmazlığı probleminin yaranmaması üçün dialoqa əsaslanan çoxtərəfli əməkdaşlığın əhəmiyyəti qeyd olunub.

# Müdafiə Nazirliyinin Tibb İdarəsində təlim-metodiki toplanış keçirilib

**Bu ilin hazırlıq planına əsasən, Müdafiə Nazirliyinin Tibb İdarəsində təlim-metodiki toplanış keçirilib.**

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Vətənimizin azadlığı, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi birdəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Azərbaycan Ordusunun tibbi hərbi hissə və müəssisələrinin komandirləri (rəisləri), qoşun (qüvvə) növlərinin tibb xidməti rəisləri və Müdafiə Nazirliyinin baş tibb mütəxəssislərinin iştirak etdiyi toplanışda cari ildə ordumuzda tibb sahəsində görülən işlər barədə ətraflı məruzələr dinlənilib.

Bildirilib ki, bu ilin qış tədris dövründə hərbi tibb müəssisələrində ixtisaslı tibb işçiləri tərəfindən hərbi qulluqçulara yüksək səviyyədə bütün növ zəruri tibbi yardım göstərilib, eləcə də şəxsi heyət arasında xəstəliklərin yayılmasının qarşısının alınması məqsədilə mütəmadi olaraq profilaktik tədbirlər həyata keçirilib.

Toplanışda həmçinin hərbi tibb sahəsi üzrə digər mövzulara dair ətraflı müzakirələr aparılıb.

## ELAN

**"Bakı Toxucu" QSC-nin 2022-ci il üzrə maliyyə hesabatlarını Azərbaycan Respublikası Auditorlar Palatasının 2023-cü il tarixli SA/065 saylı icazə qeydiyyatı ilə fəaliyyət göstərən sərbəst auditor Vəli Oruc oğlu Bayramov aparmışdır. Audit nəticəsində 05 iyul 2023-cü ildə müsbət audit rəyi ilə rəsmiləşdirilmişdir.**

**“Bakı Toxucu” Qapalı Səhmdar Cəmiyyətin Rəhbərliyinə**

**Maliyyə hesabatları haqqında**

**Rəy.** Mən, “Bakı Toxucu” Qapalı Səhmdar Cəmiyyətin 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan, məcmu gəlirlər haqqında hesabatdan, kapitalda dəyişiklikləri haqqında hesabatdan və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçotu siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışam.

**Hesab edirəm ki, əlavə edilmiş maliyyə hesabatları “Bakı Toxucu” QSC-in 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətdi aspektlərdə ədalətli əks etdirir.**

**Rəy üçün əsaslar.** Mən, auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətim əlavə olaraq hesabatımın “Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti” bölməsində təsvir edilir. Mən Azərbaycan Respublikası maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun yerinə yetirmişəm. Hesab edirəm ki, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Əsas audit məsələləri.** Əsas audit məsələləri mən peşəkar mühakiməmə görə cari dövrün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına dair rəyimin formalaşdırılmasında bütövlükdə nəzərə alınmışdır və mən bu məsələlərə dair ayrılıqda rəy vermirəm.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti.** Rəhbərlik maliyyə hesabatlarının İFRS (Beynəlxalq maliyyə hesabatları standartlarına) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda rəhbərlik Cəmiyyətin ləğv və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqinda məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsiplərinin istifadə edilməsinə görə məsuliyyət daşıyır. İqtisadi suyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin maliyyə hesabatlarını verilmə prosesinə nəzarət görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti** Mənim məqsədim maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olnbolmadığına dair kafi əminlik əldə etmək və rəyimə daxil olan auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zamanət vermir ki, əhəmiyyətli təhrif movcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmşə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə təqdim edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə etimalı olduğu halda, əhəmiyyətli hesab edilir. Azərbaycan Respublikası Auditorlar Palatasının 22 dekabr 2021-ci il tarixli SA /065 saylı İcazə qeydiyyatı ilə fəaliyyət göstərən sərbəst auditor Vəli Oruc oğlu Bayramov Müstəqil auditor rəyini 05 iyul 2023-cü il tarixində tərtib etmişdir.

Auditorlar Palatasının
Sərbəst auditor

Vəli Oruc oğlu Bayramov

# Bakıda NATO-nun ekspert heyəti ilə işçi görüşü keçirilib

**Cari ilin fərdi tərəfdaşlıq üzrə əməkdaşlıq planına əsasən Bakıda NATO nümayəndələri ilə "Ekspert heyətinin işçi görüşü" keçirilib.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, ölkəmizdə səfərdə olan NATO-nun Brunssum Birgə Qüvvələr Komandanlığının qərargah rəisinin müavini general-mayor Stefan Fiksin rəhbərlik etdiyi nümayəndə heyəti Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində olub.

İdarədə keçirilən görüşdə polkovnik Mahir Bayramov Azərbaycan-NATO əlaqələrinin uğurlu inkişaf yolu və Azərbaycan Ordusunda aparılan uğurlu islahatlar, eləcə də ordumuzun sülhməramlı əməliyyatlara verdiyi töhfədən danışıb.

Azərbaycanın Alyansın etibarlı tərəfdaşı olduğunu bildirən general-mayor S.Fiks NATO proqramlarında hərbi qulluqçularımızın fəal iştirakının yüksək qiymətləndirildiyini qeyd edib.

Ekspert heyətinin işçi görüşündə növbəti ilin fəaliyyətlər planı barədə ilkin razılıq əldə olunub.

# Gənclər layihələrin idarəedilməsi bacarığına yiyələnirlər

**Ölkəmizin 8 ali təhsil müəssisəsində həyata keçirilmiş sosial proqram tələbələrdə layihələri idarəetmə səriştəsi yaratmağa yönəldilmişdi. Uğurla yekunlaşan bu proqramın icraçısı AzPMA (Azərbaycan Layihə İdarəetmə Assosiasiyası), maliyyə dəstəkçisi isə bp şirkəti idi.**

Azərbaycanda ən iri neft, qaz və ixrac layihələrinin əməliyyatçısı olan bp-nin fəaliyyətinin ayrılmaz bir hissəsini də sosial proqramlar təşkil edir. Şirkətin ölkəmizdə həyata keçirdiyi geniş sosial layihələr və bacarıqların inkişaf etdirilməsi istiqamətindəki səyləri indiyədək insanlara əhəmiyyətli faydalar gətirib. Sosial sərmayələr əsasən yerli icmaların, sahibkarlığın, təhsilin inkişafına, ətraf mühitin qorunmasına, idman potensialının artırılmasına, habelə ölkənin zəngin mədəni irsinin tədqiqi və təbliği kimi sahələrə yönəldilib.

Sosial proqramlarda təhsilə dəstək önəmli yer tutur. Elə bu günlərdə şirkət yerli universitetlərin potensialının artırılması üçün daha bir layihənin uğurla başa çatdığını elan edib. Bu proqramın məqsədi bir sıra ali təhsil müəssisələrində layihələrin idarəedilməsi sahəsində səriştə və bacarıqları daha da gücləndirmək olub.

Sözügedən layihə eynimәqsədli digər bir təhsil proqramının davamı olaraq həyata keçirilib. Əvvəlki proqram çərçivəsində bp və tərəfdaşları 15 yerli universitetdə layihələrin idarəedilməsi komandalarının yaradılmasına və təliminə dəstək vermişdilər. Növbəti layihənin məqsədi isə, qeyd edildiyi kimi, tələbələrə, həmçinin müəllim heyətinə təlim keçməklə universitetlərdə layihələrin idarəedilməsi potensialını əlavə resurslarla daha da artırmaq olub.

2021-ci ilin noyabrından 2023-cü ilin yanvarınadək davam edən bu layihə çərçivəsində 8 ali təhsil müəssisəsinin 95 tələbə və 123 heyət üzvünə təlimlər keçirilib. 14 aylıq proqramda Azərbaycan Turizm və Menecment Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Texniki Universiteti, Bakı Mühəndislik Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Dövlət İdarəçilik Akademiyası, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Milli Aviasiya Akademiyası iştirak ediblər.

Layihənin başa çatması münasibətilə keçirilən tədbirdə bütün bunlar barədə ətraflı danışılıb. Tədbirə evsahibliyi edən Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) prorektoru Rafiq Qasımov bildirib ki, bu ali təhsil müəssisəsi maliyyə, biznesin idarəedilməsi və digər sahələr üzrə 24 şirkətlə əməkdaşlıq memorandumu imzalayıb. Sözügedən layihədə isə UNEC-in 10 tələbəsi və 12 müəllimi iştirak edib. Universitetin Zaqatala filialının fəallığı xüsusilə təqdirəlayiqdir. Çünki bu, bölgələrin sosial-iqtisadi inkişafı baxımından mühüm əhəmiyyət daşıyır.

Layihənin icraçısı olan AzPMA-nın prezidenti İqbal Babayev layihə barədə geniş məlumat verib. Belə ki, iştirakçı tələbələrə 120 saatlıq təlimlər keçirilib. Sonda ən yüksək bal toplayan 64 tələbəyə layihə menecerlərinin qiymətləndirilməsində dünya lideri olan IPMA (Beynəlxalq Layihə İdarəetmə Assosiasiyası) təşkilatının Səviyyə D sertifikatları təqdim olunub. Bu sertifikat Beynəlxalq Layihə İdarəetmə Assosiasiyasının qiymətləndirilməsində dörd dərəcədən biridir. 28 tələbə isə AzPMA-nın sertifikatlarına layiq görülüb.

bp-nin Xəzər regionunda kommunikasiya və xarici əlaqələr üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli bir-birinin ardınca həyata keçirdikləri iki təhsil proqramından bəhs edərək deyib: "Birini tərəfdaşlarımızla birlikdə dəstəklədiyimiz, digərini isə bp-nin özünün maliyyələşdirdiyi bu iki proqram yerli universitetlərin yerli təşkilatlarla və get-gedə daha çox sayda beynəlxalq tərəfdaşlarla həyata keçirdikləri layihələrin peşəkar şəkildə idarə edilməsi üçün lazım olan səriştə və bacarıqları yaratmaq və inkişaf etdirmək üçün nəzərdə tutulmuşdur. Çox məmnunuq ki, bu iki layihəmiz sayəsində yerli universitetlərin əksəriyyəti indi artıq öz layihələrini, eləcə də ölkə daxilində və beynəlxalq səviyyədə əməkdaşlıq fəaliyyətləri çərçivəsində bağlanan qrant müqavilələrini effektiv şəkildə idarə etmək üçün yaxşı bilik, müasir metod və mexanizmlər və ən əsası, beynəlxalq və milli sertifikatlı mütəxəssislərlə təmin olunub".

Qeyd edək ki, proqram çərçivəsində həmçinin layihələrin idarəedilməsinə dair 52 saatlıq akademik tədris kursu da hazırlanıb. İştirakçı universitetlərin 19 müəllimi bu kursu səmərəli şəkildə tədris etmək üçün təlimlər keçib. Eləcə də həmin universitetlərin hamısına layihələrin idarəedilməsi ofislərini yaratmaqda kömək məqsədilə bu sahə üzrə mütəxəssis konsultasiyaları verilib.

Layihənin dəyəri 209 min 703 AZN (123 min 355 dollar) təşkil edib. Xatırladaq ki, indiyədək bp özü və əməliyyatçısı olduğu birgə layihələrdəki tərəfdaşları adından ölkəmizdəki sosial sərmayə layihələrinə ümumilikdə 108 milyon dollardan çox vəsait xərcləyib.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

«AZƏRBAYCAN» qəzetinin 1918-ci il 20 dekabr (Cümə günü) tarixli 69-cu nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Cümə, 16 rəbiüləvvəl sənə 1337.
20 kanuni-əvvəl sənə 1918.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 70 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir.
Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir.

Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

## ELAN

Cümə günü kanuni-əvvəlin [de-kabrın] 20-də gündüz saat 12 tamamda Məclisi-Məbusanın fövqəladə iclası olacağını Məclisin idarəsi elan edir.

*İdarə müdiri əvəzində*
*Rza Ağasıbəyov*

## BAKI, 20 KANUNİ-ƏVVƏL [DEKABR]

**Yeni fəlakət qarşısında**

Qafqaz millətlərinin istiqlaliyyəti əleyhində olan güruhlar "Qafqaz Rusiyasız yaşaya bilməz" bəhanəsini gətirdikdə, ələlxüsus onda yaşayan millətlərin mədəniyyətcə bulunduqları dərəcəyə işarə edib deyirlər ki, bu millətlər başqa bir mədəni dövlətlə sıxı əlaqədə olmazlarsa, onlar öz başlarına müstəqil yaşaya bilməzlər; çünki mədəniyyətcə zəifdirlər. Yani "vəhşi" kimidirlər.

Biz Qafqaz millətləri isə deyiriz ki, xeyr, vəhşilik kim tərəfdə olduğu bu gün ümuma məlumdur. Sübut istərsəniz, Rusiya daxilində hökmfərma olan [hökm sürən] hərc-mərc və vəhşiliyi, Qafqaz məmləkətləri daxilindəki əmnasayişlə [əmin-amanlıq və asayişlə] müqayisə ediniz. Mədəniyyət asarı [əsərləri] nərədə artıq dərəcədə müşahidə edilir; sizdəmi ya bizdəmi?

Əvvəllərdə də yazdığımız üzrə, bir millət müstəqil yaşamaq iddiasında bulunursa, bu xüsusda öz istedad, qabiliyyət və istehqaqını [bir şeyə layiq olduğunu; haqqı çatdığını] göstərməlidir. Axır müqəddəratımızın təyini işində nüfuz sahibləri olan Avropa dövlətləri həmin şəraiti nəzərdə tutub da ona müstəhaq olanı [haqqı çatanı] azad yaşamağa buraxacaqdırlar. Olmayana yenə də bir "qəyyum" təyin edəcəkdirlər.

İştə məsələ bu yerdə idi ki, Qafqaza həmin Avropa dövlətlərinin nümayəndələri qədəm qoydular və bizə rəsmi surətdə elan etdilər ki, Qafqaz millətlərinin hər bir rəy və xahişi, məsələləri, gələcək sülh konfransında həll olunacaqdır. Demək, bununla bizə bir ümid verdilər. Bununla belə, bütün Qafqaz millətlərinin boynuna mənəvi bir vəzifə qoydular ki, ümum sülh konfransından istiqlaliyyət istəməyə şayəstə [layiq] olmaq haqqını göstərməkdir. Yəni istiqlaliyyət istəyən, özünü mədəni və azad yaşamağa qabil və müstəhaq bir millət kimi göstərməlidir.

Buna binaən [buna əsasən], bütün arxadaş millətlərin rifah və səadətini nəzəri-etibara alan Qafqaz millət və dövlətləri, əlbəttə ki, avropalılara göstərdiyimiz istedad, qabiliyyət və mədəniyyəti daha da vüsətləndirməyə, daha genişləndirməyə çalışıb da qonşu millətlərlə sıxı bir rabitə və səmimi bir ülfət hüsulu [əldə edilməsi] yolunda səy və kuşiş etməli [çalışmalı] idi.

Filhaqiqə [həqiqətən], böylə bir ittihad [birlik] və ittifaqın lüzumiyyəti üçün gərək Azərbaycan və gərək Gürcüstan ricali-dövləti [dövlət xadimləri] ilə demokratiyası [xalqı] var qüvvələri ilə çalışmaqda idilər. Aralarında sadir olan [meydana çıxan] mübahisəli məsələlərin həlli məsləhət və sazişlə bərtərəf edilmək [aradan qaldırılmaq] üçün təşrini-saninin [noyabrın] 10-unda Ümumqafqaz Millətləri Konfransı dəvət etdilər. Lakin Gürcüstan ricali-dövlətinin bu təşəbbüsü Azərbaycan türkləri tərəfindən ən səmimanə surətdə qarşılandığı halda, nədənsə qonşu erməni cümhuriyyəti hökuməti ona etina etməyib, dürlü-dürlü bəhanələrlə həmin sülh və müsalimətə [barışığa] vəsilə [vasitə] olacaq bir konfransda iştirak etməməkləri ilə işi pozdular.

İştə, Qafqaz millətlərinin aralarında sıxı və bəradərana [qardaşca] bir irtibat hüsula gəlməsinə mane olan sui [mənfi] hərəkətlərdən birincisi bu oldu.

Bədəhu [ondan sonra], Andranik nam [adlı] quldurun Qarabağ civarına [ətrafına] təcavüz edib müsəlman kəndlərini dağıdıb və əhalisini qırmaq fəqərəsini [hadisəsini] Ermənistan Hökuməti bir an əvvəl bilə-bilə vəhşiliyin önünü almaq üçün heç bir təşəbbüsatda bulunmadı. Hətta quruca bir etiraz belə eləmədi və əlavə, Andranikin təhti-komandasında [komandası altında] mövcud 10 min nəfəri mütəcaviz [keçən] nizami erməni qoşun dəstəsinin və bu dəstənin əlində olan top-tüfəng və sair ləvazimati-hərbiyyənin nərədən əmələ gəldiyi fəqərəsi dəxi bizcə örtülü qaldı.

İndi isə aralığa Sanain hadisəsi düşdü ki, bu hadisə Gürcüstan-Ermənistan toqquşmasından başlanıb da axırda müharibəyə müncər oldu [çevrildi]. Qafqaz millətlərinin gələcəyinə xələl verəcəyi şübhəsiz olan bu hadiseyi-müəssifənin [təəssüf verici hadisənin] tövlidi [doğuşu], qəzetimizdə dərc etdiyimiz əxbarlardan [xəbərlərdən] bəllidir.

Mübahisəli yerlərə malik olmağa hangi tərəfin daha artıq haqqı var? Gürcülərinmi, ermənilərinmi və ya başqa bir millətin? Bu məsələni biz burada həll etmək istəməyiz. Mətləb yalnız tərzi-hərəkət xüsusundadır.

Bütün Qafqaz millətləri istiqlaliyyət istehsalı üçün Müttəfiqlər qarşısında böyük bir səy və təlaşda bulunduqları halda, bir tərəfdən öz daxili işlərini islah etmək vəzifəsi qarşısında qalıb, digər tərəfdən də iddialarını getdikcə artıran rus millətçiləri ilə mübarizə edərək, başqa tərəfdən dəxi Müttəfiqlərlə tərzi-müamilə siyasətini [rəftar etmək qaydasını] yürütməkdə müşkülatla uğraşarkən, arada müharibə kimi böyük bir fəlakət zühuru [meydana çıxması] kimin mənafeyinə xidmət edə bilər? Təbii, böylə bir fəlakət ümum Qafqaz millətlərinin azad və asudə yaşamağına zidd olan ənasir [ünsürlər] və güruhların ancaq mənafeyi qəbilindənədd oluna [sayıla] bilər. Qafqaz millətlərinin arasında vaqe olan bu düşmənçilik "həmin millətlər öz başlarına qalarlarsa biri-birini qırıb qurtararlar" dəlilini gətirən rus imperialistlərinin əllərinə yeni bir bəhanə verir. Digər tərəfdən isə daxildə əmnü asayiş işinə məşğul olub da məmləkətin idarəsi üçün lazımi islahat icrasında bulunan millətlər, müharibə icabına [müharibənin gətirdiyi zərurətlərə] görə, daxili idarə işlərini buraxıb da, bütün səy və kuşişlərini biri-birini tələf etmək əməlinə sərfə məcbur olacaqdırlar.

Bu isə əski hərc-mərci törədici bir zəmindir.

Ümum Qafqaz demokratiyası [xalqı] qarşısında iştə mühüm bir məsələ: Qafqaz millətlərinin istiqlal və istiqbalına [gələcəyinə] zidd olan mənhus qüvvəni arayıb da, bir kərəlik rədd və dəf etməklə ümum ölkənin asayiş və müsalimətini [əmin-amanlığını] təmin qılmaq.

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

Məclisi-Məbusanın 10 kanuni-əvvəl [dekabr] tarixli iclasında oxunub da, bu vaxtadək qəzetimizdə dərc edilməmiş olan bəyannamələr:

**Almanlar nümayəndəsi Kunun bəyannaməsi:**

Vətəndaşlar!

Tam yüz il bundan müqəddəm [qabaq] talehimizin iqtizası [tələbi] ilə hal-hazırda nümayəndəsi bulunmaq şərəfinə nail və onun namından [adından] birinci Azərbaycan Parlamanını təbrik və təhniyət [qutlama] səadətinə müvəffəq olduğum alman millətinin bir qismi Zaqafqaziya və əzcümlə [o cümlədən] Azərbaycan dairəsinə atılmış və burada alman koloniyası təşkil etmiş oldu.

Yüz ildən bəri nahiyə əhalisi ilə yanyana salim zəhmətkeş həyatı ilə yaşayaraq, aramızda ən səmimi mehriban qonşuluq münasibatı heç vaxt pozulmamış və biz almanlar, məhəlli [yerli] əhalinin səadət və müsibətinə şərik olaraq, həmişə Qafqaziyanı özümüzə ümumi müştərək vətən hesab etməyə adət etmişiz. Şimdi isə biz almanlar, Azərbaycan millətinin azad millətlər ailəsinə düxulu [girməsi] münasibətilə böyük süruruna [sevincinə] səmimi-qəlb ilə iştirak ediriz.

Sabiq vətənimizdən tamamilə ayrılmış olduğumuza, sabiq üsuli-idarənin kərratla [dəfələrlə] milli xassəmizə israrla sui-niyyətinə baxmayaraq, biz həmişə milli xassəmizin müdafiəsinə çalışdıq. Halbuki, bu hümmətimiz getdikcə böyük müşkülata məruz qalırdı. Son illər Rusiya ilə Almaniya arasında müharibə vüquundan [meydana gəlməsindən] dolayı biz ağır imtahanlar, hətta tamamilə məhv olmaq təhlükəsinə məruz qaldıq və bizi ancaq müsavat və üxuvvəti-miləl [millətlərin qardaşlığı və bərabərliyini] elan və nahiyəmizi yeni, müstəqil və azad siyasi həyata təhrik etmiş olan böyük inqilab, üzərimizə gələn müdhiş kabusu rəf etmişdir [aradan qaldırmışdır].

Şimdi Qafqaziyada həyatımızın yeni əsri və yeni dövrü müqəddiməsində duraraq, biz Azərbaycan almanları, həyatımızın bu surətlə kökündən dəyişməsini bir falinik [uğurlu işarə] kimi tələqqi [qəbul] edərək, istiqbalımızı sükut və rahatla bəkləyir və qəviyyən etiqad ediriz [möhkəm inanırıq] ki, gənc Azərbaycan Cümhuriyyətinin demokratik qanunu sayəsində milli xassələrimizi baqi saxlayaraq, sülh və müsalimətlə [əmin-amanlıqla] kəsbkarımızı davam etdirəcək və bundan naşi [ötrü] də həmişə var qüvvəmizlə ümum Azərbaycan millətlərilə sıxı əlaqə və rabitədə olaraq, azad Azərbaycanın tərəqqi və mənfəətinə var qüvvəmizlə xidmət edəcəyiz.

**Məclisi-Məbusanın "Hümmət" və Sosialistlər İttifaqı fraksiyalarından (İdarəyə məktub)**

Möhtərəm müdir əfəndi! Aşağıdakı məktubumuza qəzetənizdə yer verməniz rica olunur.

Azərbaycan Cümhuriyyətinin Kabinəsi istefasından sonra məhəlli [yerli] mətbuat sütunlarında işbu Kabinənin fəaliyyəti barəsində bir çox yerli etirazlar edilmişdir. Vicdani-ictimaiyyə [ictimai vicdan] bu altı ay zərfində olmuş qarışıqlığı hiss edir, təkdir edirdi [pisləyirdi].

İşbu ittihamların mərkəzi sabiq Kabinə sədri Fətəli xan Xoyski olması bədihidir [aydındır]. Məclisi-Məbusanın "Hümmət" və Sosialistlər İttifaqı fraksiyaları Fətəli xan Xoyski üzərinə atılan ittihamların nə dərəcədə doğru olmasını təhqiq etməyi öhdəsinə götürməyi özünə vəzifə ədd [hesab] etdi. Müzakirat və məlumatdan sonra fraksiyalar ümumiyyətlə böylə bir qətnaməni qəbul etmişdir:

Fətəli xan Xoyski, Sədri-Vükəla [Nazirlər Kabinetinin sədri] olduğu kimi, rəsmi surətdə ümum siyasət cavab-dəhəndəsi [məsuliyyətli şəxsi] kimi tələqqi etdirilirsə [qiymətləndirilirsə], mənəvi cəhətdən məsul deyildir. Zira ki, müşarileyhin [adı çəkilən şəxsin] və bir neçə Kabinə əzasının [Hökumət üzvlərinin] siyasətləri hökumətin əleyhinə idi. Binaileyh [ona görə], sədri-müşarileyh [adı çəkilən sədr] və bir neçə Kabinə əzası vətənimiz keçirdiyi əhvali-fövqəladədən dolayı Kabinədə qalmağa məcbur olaraq, əksəriyyətin nəticəsi qorxulu siyasətilə razı olmağa məcbur olmuşlar. Hal-hazırda da Fətəli xan Xoyski qeyri-məsul əşxasın [şəxslərin] siyasəti qurbanı kimi görülür. Gələcək təhqiqat, məsul zəvatın [şəxslərin] günahı dərəcəsini göstərəcəkdir. Bizim sosialist vicdanımız işbu məlumatı aşkarən deməyə bizi məcbur edir.

*"Hümmət" (Menşevik) və Müsəlman Sosialistlər İttifaqı*
*Məclisi-Məbusan fraksiyaları*

## TELEQRAF XƏBƏRLƏRİ

**(Royter acentəliyindən)**

* Hindistan nümayəndələri Sülh Konfransında iştirak etməkdən ötrü Londona varid olmuşlardır [gedib çatmışlar].

* Rəisi-cümhur [Prezident] Vilson, şənbə günü səhər Parisə varid olub Bua-de-Bulon dəmiryol mövqifi [stansiyası] yanında böyük şadlıqla istiqbal edilmişdir [qarşılanmışdır]. Yelisey sarayında Vilson şərəfinə kəşidə edilmiş [verilmiş] ziyafətdə Puankare, Vilsonu təbrik etmişdir. Vilson Parisdə bir neçə həftə qalacaqdır. Rəsmi görüşlər üçün 48 saat vaxt təyin edilmişdir. Vilson Londona getmək haqqında kral tərəfindən edilən dəvətini qəbul etmişdir.

* Şənbə günü İngiltərədə vaqe olan seçkilər əsnasında iğtişaş olmamışdır. Ancaq Tinderaridə sinfeyner ilə millətçilər arasında toqquşma olmuşdur. İngiltərə seçkilərində bir təəccüblü hal arvadların hər yerdə seçkilərdə iştirak etməyə çalışmalarıdır. Ancaq bir tək Londonda 10 arvada bir kişi, Hammersmitdə isə 50 nəfər arvada 1 kişi seçkidə iştirak etmişdir.

* Moskvadan teleqraf edirlər ki, Ukrayna Hökumət rəisi Skoropadski hökumətdən imtina edib, bir para nazirlər və Könüllü ordu hissəsi ilə Kiyevdən naməlum yerə qaçmışdır. Petlyura dəstəsi Kiyev, Odessa və Nikolayev şəhərlərinə daxil olmuşlardır. Kiyevdə hökumət Petlyura əlinə keçmişdir.

* Kiyevdən verilən xəbərlərə görə, Don kazakları, Novoxopyorsk yanında bolşeviklərə qalib gəlmişlərdir. Voronej tərəfdə vaqe olan iki günlük müharibədə kazaklar 11 min əsir, 21 top almışlardır.

* Varşavadan verilən teleqraf xəbərlərinə görə, Qrabski mətbuat nümayəndələrinə xəbər vermişdir ki, Müttəfiq dövlətlər Polşanın Baltik və Qara dəniz arasında Romaniya və Cənub Slavlar iştirakı ilə vücuda gətiriləcək hökumətlər ittifaqına daxil olmasını lazım ədd [hesab] edirlər.

* Rotterdamdan xəbər verirlər ki, knyaz Lvov, baron Kurov və İzvolski, Amerika Hökumətinə müraciətən milyard yarım ingilis lirəsi istiqraz verilməsini xahiş etmişlərdir.

**Xüsusi teleqraf**

Tiflisdən idarəmizə Rəsulzadə Məhəmməd Əmin bəyə böylə bir teleqraf çəkilmişdir:

*"Axıska şəhərinin süqutundan bir neçə gün sonra Ömər Faiq əfəndi ilə şəhər müsəlmanlarından üç nəfəri, naməlum səbəblərə görə həbs edilib Tiflisə gətirilmişlərdir. Hal-hazırda məhbuslar komandanlıq həbsxanasında saxlanılırlar. Bunların azad olunmalarına çalışmanızı rica edərim.*

*İsmayıl Haqqı"*

* Moskvadan xəbər verirlər ki, almanlarla petlyuralılar arasında olan ixtilaf bərtərəf edilmişdir [aradan qaldırılmışdır]. Almanlar Konotop ilə Baxmaçı tərk edirlər. Konotop dəmiryolu təmizlənmişdir. Getməkdə olan alman saldatları əslihələrini [silahlarını] satmaqdadır. Kontrol istasyonlarında petlyuralılar, almanların əslihələlərini əllərindən alırlar.

* Amsterdamdan verilən teleqraf xəbərlərinə görə, Berlində tətil hərəkatı genişlənməkdədir. Qəzetələrdən ancaq ikisi kiçik bir şəkildə çıxmışdır. Eyni zamanda xəbər verilir ki, 360 min fəhlə tətil etmişlərdir.

## SÜLH ƏTRAFINDA

* Parisdə iclas etməkdə olan Mütarikə Komissiyasından [Atəşkəs Komissiyasından] verilən teleqrafda deyilir ki, mütarikə müddəti yanvarın 17-si səhər saat 5-ə qədər imtidad etdirilmişdir [uzadılmışdır].

* Mütarikə şərtlərindən biri tələb edir ki, Almaniya limanlarında təqribən iki milyon yarım ton həcmində olan bütün ticarət gəmiləri Almaniyaya ərzaq daşımaqdan ötrü Müttəfiqlər kontrolu altında olacaqlardır. Bu gəmilərin hamısı Almaniyanın xüsusi malı olur. Müttəfiqlərə lazım olduğu təqdirdə Köln şimalında və Hollandiya sərhədinə tərəf Reyn nəhrinin sağ sahilini tuta bilmək ixtiyarını özlərinə vagüzar etmişlərdir [vermişlər].

## ERMƏNİ-GÜRCÜ TOQQUŞMASI

Kanuni-əvvəlin [dekabrın] 13-ü tarixli Gürcüstan Parlamanı iclasında Hərbiyyə naziri erməni-gürcü toqquşmasına dair məlumat verir və əhvalatı bu növ ilə nəql edir:

Kanuni-əvvəlin 9-unda Uzundərə kəndi əhalisi bizim sərhədlərimizə hücum edib bir nəfər saldatımızı yaralamışdır; sabahı gün saldat həmin aldığı yaradan vəfat etmişdir. General Tsulukidzeyə bu barədə məlumat verilib, lazımi binagüzarlıqda bulunmaq [addımlar atmaq] tövsiyə edilmişdir. General ehtimal edirdi ki, sərhəddarlarımıza [sərhədçilərimizə] hücum yapan quldurlardır. Buna görə də oraya bir dəstə qoşun əfradı [əsgər] göndərir. Qoşun məhəlli-hadisəyə [hadisə yerinə] çatar-çatmaz atəşlə qarşılanar. Bunu da biz əlavə etməliyiz ki, məhəlli əhval [yerli vəziyyət] bizdən ötrü fənadır. Düşmən dağlıq və təpələrdə olduğundan naşi [olduğuna görə], daş yumalamaqla bizim dəstələrimizə əziyyət verir.

Qitəmiz [hərbi hissəmiz] ən ağır bir hal içərisində idi. Böyləliklə, qitəmiz səhərdən axşamadək düşmənlə atışırdı. Axşam olan kimi bizimkilər qaranlıqdan istifadə edib geri qayıtmağa müvəffəq olmuşdur. O gün 15 məqtul [ölü], 14 məcruhumuz [yaralımız] olmuşdur. Mən Borçalı general-qubernatorundan kimlə müharibə etdiyimizi sordum. Qubernator cavab vermişdir ki, ehtimal üzrə iştirak edənlər erməni saldatlarıdır. Məhəlli [yerli] əhali dəxi müfəttinlərin [fitnəkarların] təhrikatı ilə orada üsyan etmişlərdir. Bu işi təhqiq etmək qəsdilə Hökumət Hərbiyyə və Daxiliyyə nazirləri müavinlərindən mürəkkəb bir heyət təşkil edib oraya göndərdi. Heyət oraya çatmamış, əhval bir qədər də vəximləşdi [qorxulu hal aldı]. Düşmən, Allahverdi ilə Sanain arasındakı yolu dağıdıb keçdi, xarab etdi. Düşmən, Allahverdi təpəliklərini tutmaq istəyirdi. Bizim qoşunlar onlardan qabaq oraları tutmağa müvəffəq olmuşlar. Bu vaxtlarda bizim Korinc və Tsaterdəki sərhədlərimizə hücum edildi. Bir çoxları qətl edilib mabaqisi [qalanları] əsir aparılmışdır.

Dünən aldığım məktublar, əhvalı layiqincə təsvir edirlər. Məlum olmuşdur ki, bizim əleyhimizə məhəlli əhali erməni zabitanı [zabitləri] təhti-idarəsində [rəhbərliyi altında] fəaliyyətdə bulunurlar. Zabitlər bunlardır: Pirumov, Xaçaturyan, Mirmanov, Matveyev və qeyriləri. Bunların təhti-komandanlarındakı [komandaları altındakı] əfrad [əsgərlər], quldur dəstələri olmayıb, həqiqi saldatlardırlar. Bunların komandanlıqları Şaqali mövqifində [stansiyasında] polkovnik Mirmanovun təhti-idarəsindədir. Bunlar bütün müharibə nöqteyi-nəzərindən lazım olan vəsaitə malikdirlər. Telefonları, kəşfiyyat qolları və qeyriləri vardır.

Bunların fəaliyyəti Qarakilsə, Cəlaloğlu, Dilican, Allageranadək uzanır. Bunlar bir-birlərinə top, mitralyoz, tüfəng və patronla müavinətdə bulunurlar [kömək edirlər]. Orada iştirak edən nizami qoşunların nömrələrini də biz biliriz.

Bunlar tərəfindən Qarakilsədən xəbər alınır ki, müharibə elan olunmuşdurmu? Burada məlumat verirlər ki, qoşun qitələri [hissələri] hazırdır, lazım isə göndərək. Qalagerəndən xəbər verirlər ki, 600 türk tüfəngi göndərilir. Bu xəbərləri dünən gecə almışam və sizə də məlumat verirəm. Bu gün səhər bir məlumat almışam ki, Cəlaloğlu dairəsinə məxsusdur. Kanuni-əvvəlin [dekabrın] 10-da Aqarak kəndində bizim iki nəfər sərhəddarımız qətl edilmişdir. Əhvalı təhqiq etməkdən ötrü oraya qoşun göndərilmişdir. Gecə bizim qoşunlara hücum edilib 14 nəfəri qətl edilmişdir. Əhvalın bu rəngdə olması bizi, vətənimizi macərapərəstlərdən təmizləməyə məcbur edir.

Hərbiyyə nazirindən sonra Xariciyyə naziri Gegeçkori bu barədə məlumat verir:

Möhtərəm Parlaman əzası [üzvləri]! İşbu məsələlərə aid Xariciyyə Nəzarətində olan məlumatı sizə demək istəyirəm. Gürcüstan Hökuməti hamıya məlum etmişdir ki, o sülh tərəfdarıdır. Mən Gürcüstan Xariciyyə Nəzarətinin bütün ixtilaflı məsələləri sülhlə həll etmək barəsində verdiyi notasını demək istəyirəm. Notada bizim əlaqəmizi [münasibətlərimizi] həkəm [arbitr] vasitəsilə aşkar etmək təklif edilirdi.

Kanuni-əvvəlin 13-də Ermənistandakı mürəxxəsimiz [nümayəndəmiz] Mdivani bizə xəbər vermişdir ki, Ermənistan əsas etibarilə Zaqafqaziya cümhuriyyətləri arasında təyin edilmiş konfransda iştirak etməyi qəbul edir; fəqət nə vaxt və nə yerdə olacağı barəsində isticvabda [sorğuda] bulunmuşdur. Ermənistanın bu məsələyə razılıq verməsi bizim təşəbbüsatımız sayəsində olmuşdur. İşin xatirəsi üçün biz bir qədər güzəştlərdə bulunaraq rica etdik ki, ermənilər tez öz nümayəndələrini göndərsinlər.

Biz ehtimal edirdik bizim təklif qəbul olunacaqdır. Konfrans 10 təşrini-sanidə [noyabrda] çağrılacaqdı, sonra 14-nə təcil etdik [təxirə saldıq]. Axirül-əmir [sonda] 20-nə təyin edilmiş konfrans, erməni nümayəndələrinin gəlməməsindən naşi [ötrü] 30-na təcil edildi. Bu vaxt ərzində biz nota mübadiləsi edirdik. Təşrini-saninin 17-də biz bir nota aldıq. Notada əsas etibarilə konfrans qəbul edilirdi. Fəqət Ermənistan Hökuməti konfransda qoyulacaq məsələlərin sülhlə həll olunacağına inanmayırdı. Mdivani konqreyi 27 təşrini-saniyə təcil etməyi rica edirdi. Biz 30-na təcil etdik.

5 kanuni-əvvəldə [dekabrda] Ermənistandan aldığımız teleqramda hökumət bizim Axalkalakini işğal etməyimizə etiraz edir. Etilaflı [uzlaşmalı] məsələlərin həlli üçün Ermənistan Xariciyyə naziri Tiqranyanın oraya azim olmasını [yola düşməsini] xəbər verir. Biz cavab olaraq teleqrafən xəbər verdik. Gürcüstan Hökuməti sabiqki mövzeində [mövqeyində] qalaraq, məsələlərin sülhlə həll olunmağı və Zaqafqaziya Konfransının dəvəti tərəfdarıdır. Kanuni-əvvəlin 6-da Hərbiyyə naziri Sanain hadisatı [hadisələri] barəsində mənə məlumat verdi. 9 kanuni-əvvəldə mən Mdivaniyə teleqraf göndərib, orada erməni qoşunlarının iştirak etməsini xəbər verdim. Bu vaxtadək teleqraf yolu xarab olduğundan, xəbər alınmamışdır, fəqət bizim məlumatımız vardır ki, Mdivani erməni heyəti ilə Sanainə yaxınlaşmışsa da, yenidən geri qayıtmağa məcbur olmuşdur. Dünən mən radio-teleqram vasitəsilə İrəvana xəbər göndərərək Ermənistan Hökumətindən tələb etmişəm ki, bu işlərə xitam verilsin. Mən ehtimal edirəm ki, Ermənistan Hökumətinin Sanain hadisatına əlaqəsi yoxdur. Mən inanıram ki, Ermənistan Hökumətinin bir para dəstələrlə əlaqəsi yoxdur. *(Sağ tərəfdə səs-küy)*

Mən işbu kürsüdən başqa ehtimal edə bilmərəm, mən deyirəm ki, Gürcüstan və Ermənistan Hökuməti, Sanain hadisatından əmələ gələ biləcək nəticələrin qarşısını alacaqdır. Bununla bərabər mən məlum edirəm ki, sülh konfransı dəvəti üçün Gürcüstan Hökuməti lazımi təşəbbüsatda bulunmuşdur. Gürcüstan Cümhuriyyəti, Ermənistan Cümhuriyyətini qəbul etdiyi kimi, Ermənistan da Gürcüstana öylə əlaqədə olmalıdır. Bir vaxtadək biz diplomatik təşəbbüsatda bulunduq. Məsələ bu təriqlə [yolla] həll edilməzsə, o vaxt başqa təşəbbüsat araya gələsidir.

Parlaman bir böylə formula qəbul edir:

*"Sanain və Vorontsovka ətrafında baş qalxızmış hadisat barəsində Hökumətin məlumatını dinlədikdən sonra Parlaman etminan [inam] bəsləyir ki, Hökumət, dövləti düşmənlərdən müdafiə və mühafizə etmək üçün lazımi tədabiri ittixaz edəcəkdir [tədbirləri görəcəkdir]. Düşmənlərin yeganə məqsədi anarşi salmaqla iki qonşu milləti biri-biri üzərinə salıb, istiqlaliyyət və cümhuriyyətimizə zərər yetirmək istəyir."*

Bundan sonra Parlaman başqa məsələlərə keçir.

Elam edilmiş [açıqlanan] sənədlər Zaqafqaziya Konfransı və Erməni-Gürcü Konfransına və bu konfransların dəvətinə lazım tədabirin ittixazına [tədbirlərin görülməsinə] aiddir. Sənədlər oxunur. Ermənistan və Gürcüstan məsələlərini həll etmək üçün konfransadək tərəfeyn [hər iki tərəfin] etilafı [razılığa gəlməsi] lazımdır. Nota, Ermənistan Xariciyyə naziri Tiqranyan və Mdivani tərəfindən imza edilmişdir.

*"14 kanuni-əvvəl 4884 nömrəli teleqramın surəti. İrəvan. Gürcüstan siyasi nümayəndəsi Mdivaniyə.*

*Rica edirəm, Ermənistan Hökümətinə xəbər verəsiniz ki, Gürcüstan Hökuməti onun şəraiti [şərtləri] ilə aşina [tanış] olduqdan sonra rica edir ki, öz nümayəndələrini ən yaxın zamanda göndərsin.*

*Xariciyyə naziri Gegeçkori."*

Parlaman iclasının axırında Gürcüstan Xariciyyə naziri Gegeçkori Ermənistanla Gürcüstan sərhəd məsələsini həll etməkdən örtü indiyə qədər Ermənistan Hökumətinə göndərilən teleqrafları oxuyub və bu teleqraflara bir cavab alınmadığını bəyanla deyir ki, sərhədə olan hücumların erməni hökuməti razılığı ilə əmələ gəldiyinə inanmayıb, Gürcüstan Hökuməti teleqrafla Ermənistana müraciət edib qan tökülməsini qət etmək [kəsmək] üçün tədbirlər görülməsi təklifində bulunmuş idi. Fəqət bu tədbirlər görülməyib, hətta müharibə hərəkətlərinə bais oldu. Bu hərəkətlər, gəldikcə geniş meydan almaqdadır. Bundan əlavə, Ermənistan Hökuməti tərəfindən aldığımız rəsmi bəyanatda göstərilir ki, bu xəyanətli hücum, erməni hökumətinin əmri ilə olmuşdur. Gürcüstanda olan Erməni Milli Şurası nümayəndələri ilə bərabər məhəlli-hadisəyə [hadisə yerinə] göndərilən heyət, az qalmışdı ki, hadisat qurbanı olacaqdı.

Gürcüstan Hökuməti bir ay bundan əvvəl bütün mübahisəli məsələləri həll etməkdən ötrü Zaqafqaziya Konfransı çağırılmasını təklif etmişdi; lakin Ermənistan Hökuməti bundan imtina edib, əvvəlcə Erməni-Gürcü Konfransı dəvətində təkid etdi. Gürcüstan Hökuməti bütün mübahisəli məsələlərin sazişlə həlli üçün və buna nail olmadıqda beynəlmiləl həkəmi [arbitri] vasitəsilə həll edilmələrindən ötrü Ermənistan Hökümətinin bu təklifinə razı oldu. Biz Ermənistan nümayəndələrinin vürudunu [gəlişini] hər gün gözləyirdik; lakin bu nümayəndələr indiyə qədər gəlmədilər. Bunun əvəzində isə biz heç bir beynəlmiləl münasibatına yaraşmaz əhdşikənanə [sazişi pozan] hücumlar görürüz. Hər iki qonşu cümhuriyyətlər üçün həlakəti və rüsvayçılığı mövcib olan [məhv olmağa və rüsvayçılığa yol açan] qan tökmək işini bərtərəf etməkdən [aradan qaldırmaqdan] ötrü, burada söylədiyimiz kimi, biz hər bir vəsilələrə [vasitələrə] əl uzatdıq. Gürcüstan Hökuməti bütün cahan qarşısında erməni hökumətinin bu hərəkəti əleyhinə ciddi surətdə protesto edib, hər iki qardaş millətin töküləcək qanlarının məsuliyyətini onların öhdəsinə atır. İndiyə qədər bir dəfə də olsun, erməni-gürcü arasındakı münasibat xələldar edilməmişdir [münasibətlər pozulmamışdır]. Bu münasibatın xələldar edilməsi məsuliyyəti erməni hökumətinin boynuna düşür.

*"İrəvan. Xariciyyə nazirinə, surəti Gürcüstan diplomasi nümayəndəsinə.*

*Sizdən ancaq bir dənə 6913 nömrəli teleqraf almışız. Gürcüstan Hökuməti ayrı teleqraf almamışdır. Ümum ixtilaflı məsələlərin etilafla həll edilmələri uğrunda mənim hökumətim əlindən gələn qədər çalışmış, Ermənistan nümayəndələrini Ümumzaqafqaziya Konfrasına dəvət etmiş və məlum səbəblərə görə bu dəvət qeyri-məqbul görüldükdə, Gürcüstan Hökuməti bir ay əvvəl Ermənistan Hökumətinə xəbər vermişdir ki, ümum ixtilaflı məsələlər haqqında Ermənistanla ayrıca müzakirata girişməyə razıdır. Bu vaxtadək müzakirat başlanmamışsa, təqsir bizdə deyildir. Bütün cahan qarşısında Gürcüstan Hökuməti açıq elan edir ki, qardaş qanı tökücü müsadimənin [toqquşmanın] önünü almaq uğrunda onun təşəbbüsatı erməni hökumətinin naməlum səbəblərə görə işi uzatmasından dolayı tamamilə hədər olmuşdur. Erməni hökuməti bu surətlə heç əsas olmadığı halda iki milləti böyük qanlı müsadimə qarşısında bulundurmuşdur. Halbuki Gürcüstan Hökuməti elam edir [bildirir] ki, məzkur [adı çəkilən] iki millət arasında sülhlə həll edilməyəcək heç bir məsələ yoxdur. Gürcüstan Hökuməti qardaş müharibəsinin dayandırılmasını bir daha təkrar edir və 13 dekabr tarixli teleqrafını təyidlə [təsdiq etməklə, təkrar etməklə] bəyan edir ki, dekabrın 13-nədək bizim qoşunlarımız erməni kəndlərinə atəş açmamış və bizim tərəfimizdən heç bir xüruc [çıxış] olmamışdır. Ancaq bu zaman artıq 9 dekabrdan etibarən erməni qoşunlarının başlamış olduqları təcavüzkaranə hərəkat müqabilinə müdafiə tədbirləri görməyə başladıq.*

# «AZƏRBAYCAN» qəzetinin 1918-ci il 20 dekabr (Cümə günü) tarixli 69-cu nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

*Bu xüsusi bəyanla gürcü hökuməti özünü borclu bilir ədavətkaranə çıxışlara xitam verərək əski sərhədlərə çəkilib ixtilaflı məsələlərin həlli üçün Erməni-Gürcü Konfransı dəvət edilməsi və orada da həll olunmasa, beynəlmiləl hakəmlər məhkəməsinə [Beynəlxalq Arbitraj Məhkəməsinə] verilməsini təklif etsin. Əks surətdə işlərin hər iki cümhuriyyət üçün fəna nətayicinin [nəticələrinin] məsuliyyəti Ermənistan Hökuməti üzərinə düşür.*

*15 dekabr 1918*
*Gürcüstan Xariciyyə naziri Gegeçkori"*

### Toqquşma müharibəyə keçir

Gürcü Hökümətinin müraciətnaməsi:

Gürcüstan Cümhuriyyətinin ümum vətəndaşlarına!

Erməni qoşunları əhdşikənanə bir surətdə bizim hüdudumuza təərrüz [hücum] yaparaq sərhəddarlarımızın [sərhədçilərimizin] bir hissəsini qətl, bir hissəsini əsir aparmışlar və dəmiryollarını xarab edərək Ermənistanla Gürcüstan teleqraf müxabiratını [əlaqəsini] kəsmişlərdir. Qardaş qanı tökülmüşdür. Gürcüstan Demokratik Cümhuriyyəti Hökuməti işin əvvəllərindən Zaqafqaziya millətləri miyanında [arasında] dostluq bərpa etməklə bütün ixtilaflı məsələlərin sülhlə həll olunmasına çalışmışdır. İşbu konqredə sərhədlərə dair ixtilaflı məsələlər həll ediləcəkdi. Əks surətdə məsələlər beynəlmiləl həkəmə mühəvvəl edilməliydi [tapşırılmalıydı]. Demokratik hökumətlərinin daimi qayəsi bundan ibarət olmuşdur. Gürcüstan da bu təriqlə [bu yolda] yürümək istəyirdi, fəqət Ermənistan Hökuməti öz nümayəndələrini göndərməməklə Gürcüstanla Ermənistan miyanındakı məsələlərin həllini tələb edirdi. İşbu təklifi qəbul edərək konqre açılanadək bəkləyirdik.

Təşrini-saninin [noyabrın] 10-dan bu vaxtadək biz Zaqafqaziya Hökumətləri Konqresini bir neçə dəfə təxir etməyə məcbur olduq. Gündən-günə erməni nümayəndələrinin gəlməsini bəkləyirdik, fəqət Ermənistanın özündə (İrəvanda) müharibə tərəfdarları üstün gəldi. İş sülhlə bitməmək məsələsinə zidd idi. Şimdi Gürcüstan və Ermənistan demokratiyası yeni fəlakətlərə məruz qalmışdır. Kanuni-əvvəlin 9-da ermənilər Uzunlar kəndində bizim sərhəddarlarımıza hücum edərək bir hissəsini qətl, digər hissəsini əsir aparmışlardır. Əlavə belə hücumlara Qoberax və Korincdəki sərhədlərimiz də məruz qalmışlar. Biz güman edirdik ki, Ermənistan daxilində mövcud olan anarşi, əhvalı bu şəklə salmışdır. Buna görə də hərəkati-hərbiyyəni geniş miqyasda aparmaqdan çəkinirdik. Fəqət bir neçə gün bundan əqdəm [qabaq] məlum olmuşdur ki, əleyhimizə hərəkati-hərbiyyə açan dəstələr başında erməni zabitanı [zabitləri] durur. Yenə biz inanmaq istəməyiriz ki, Ermənistan demokratiyası başında duran hökumət böylə iqdamatda bulunsun [addım atsın]. İşbu etminamımız [inamımız], Ermənistanla Gürcüstan miyanındakı [arasındakı] əsri tarixə müstəniddir [əsrlik tarixə söykənir]. İki millət miyanında bu vaxtadək qan tökülməmişdir. Bərəks [əksinə], bu iki millət əl-ələ verərək şərq mütləqiyyəti ilə mübarizədə bulunmuşlardır.

Bu fikirdə ikən Ermənistan Hökuməti Xariciyyə naziri Tiqranyanın ultimatumunu aldıq. Ultimatumda, təcili surətdə, Borçalı və Zaqatal nahiyələrinin ermənilərlə məskun hissələrindən gürcü qoşunlarının çıxarılması tələb edilir. Böyləliklə, konqre əvəzində əvvəl təərrüz, sonra ultimatum, daha sonra müharibə və qan! Biz müharibəni bərtərəf etmək qəsdilə bütün əlimizdəki vəsaiti bitirdik. Qarovulçulardan bir çoxlarının qətl və əsarətindən sonra dəxi biz Avropa və Amerika demokratiyası ilə birlikdə olaraq çalışırız ki, müharibəyə yol verilməsin. Məəttəəssüf [təəssüflər olsun ki], qonşu cümhuriyyət başçıları demokratik əsaslarını fəramuş edərək [unudaraq] iki dövlətdə anarşi halət qalxızmaqla, mədəniyyətlərini bərbad etməklə bərabər, Avropa müharibəsindən sonra yenidən müharibə meydanı açırlar.

Gürcüstan Hökumətinin bu işdən xəbəri yoxdur. Məsuliyyət bütünlüklə Ermənistan Hökuməti üzərinə düşür. Hərəkati-hərbiyyə başlanmışdır. Hazırlanmış erməni qoşun qitəatı bizim şəhər və kəndlərimizi bilavasitə təhdid altına alır. Ölkəmizi təhdid etməkdə olan xarabalığın önünü almaq qəsdilə geniş müharibə hazırlıqları məcburiyyətindəyik. Bütün Gürcüstan vətəndaşları bilafərqidinü millət [din və millət fərqi olmadan] öz vəzifələrini vətən qarşısında ifa etməyə dəvət edilirlər.

Vətəndaşlar! Gürcü milləti daima öz qəhrəmanlığı və öz vətəndaş vəzifəsinə sadiq olması ilə məşhurdur. Biz də, işbu hissə müraciət ediriz. Hərəkati-hərbiyyə başlandıqdan sonra bütün vətəndaşların hüququ mühafizə ediləcəyinə etminanımız tamdır. Hərəkati-hərbiyyəyə başlar-başlamaz düşmənlərimiz anarşi qalxızmaq istəyirlər. Düşmənlərimiz tərəfindən tərtib verilən müfəttinliklərə [fitnəkarlıqlara] uymayıb dövləti nizama xələl yetirməyiniz. Bunu da bilməlisiniz ki, Gürcüstan Hökuməti erməni milləti ilə deyil, bəlkə qardaş qanı tökməkdə müttəhim edilən qoşun qitəatı [hərbi hissələr] ilə mübarizə edir. Gürcü demokratiyası mötərizlər [müxaliflər; etirazçılar] qarşısına bütün qoşunu çıxaracaqdır. Ən yaxın bir zamanda bütün dünya demokratiyası tərəfindən ixtilaflı məsələləri qılıncla deyil, sülhlə həll etmək kimi əsaslar qəbul etməyə düşməni məcbur edəcəkdir.

**Gürcüstan Xalq Qvardiyası ərkani-hərbindən [qərargahından]**

Gürcüstan Xalq Qvardiyası ərkani-hərbindən Qori, Mixaylovo, Şaraban, Kutais, Samtredia, Nitlad, Siqnax və Sartiçalaya böylə bir teleqraf göndərilmişdir:

Karçikyanı, Azadyanı öldürən, qonşu millətləri böyük bədbəxtliklərə düçar edən məsuliyyətsiz politikalar əli altında olan erməni üsyançı quldur dəstəsi və əsgəri hissələr, bizim sərhəd qaraqolxanamıza əhdşikanənə [xaincə] bir surətdə hücum edib, sərhəd mühafizə əsgərlərini dağıtmışlardır. Biz qan istəməyib, müdafiə etməklə saziş hüsula gəlməsini axtarırdıq. Lakin saziş məsələsi rədd edilib, hətta erməni heyəti erməni quldur dəstəsi tərəfindən qəbul edilməmişdir. Sülh əvəzinə bizi müharibəyə, qardaşlıq əvəzinə bizi qan tökməyə sövq etdilər. Bizim səbr kasamız dolub daşmaqdadır. Bu kasanı qardaş qanı ilə dolduran canilərdirlər. Qoy bu töküləcək hamı qanlar və bu qanlardan vücuda gələcək nifrət canilərin boynuna düşsün. Qan tökülməsini dayandırmaq arzusu ilə Xalq Qvardiyasının Baş ərkani-hərbi [Baş qərargahı] bütün Xalq Qvardiyasını qırmızı bayraq altına dəvət etməyi təhti-qərara almışdır. Əsgərliyə dəvət edilmiş hamı dəstələr öz zabitlərilə bərabər tezliklə Tiflisə göndərilməlidirlər. Qalan hissələri də əlahiddə dəstələrə ayrılıb təcili surətdə Tiflisə gəlməlidirlər. Hər yerdə nəzarəti şiddətləndirib, körpüləri diqqətlə mühafizə etməlidir. Burasını da unutmayın ki, hürriyyət və inqilab sizin müavinətinizi [köməyinizi] gözləyir. Əsgəri dəstələr Tiflisə göndərilmək zamanını Baş ərkani-hərbə teleqrafla xəbər veriniz.

– Tiflisdən xəbər verirlər ki, Gürcüstan Hökumətinin Ermənistanda olan siyasi nümayəndəsi Mdivani dünən İrəvandan Tiflisə varid olmuşdur [gəlmişdir].

– Gürcüstanda 1892, 1893, 1894 və 1895-ci illərdə təvvəllüd edənlər əsgərliyə dəvət edilirlər.

## QƏZETƏLƏRDƏN

**Sualtı qayıqları**

Qerviçə getmiş müxbir, təslim olmuş sualtı qayıqlarının nerədə olmasını böylə təsvir edir: qayıqlar durduqları yer, ağac uzunluğundadır; eni isə üç-dörd qayıqdır.

**Uralsk altında müharibələr**

Axır vaxtlarda Uralsk altında bolşeviklərlə qızğın müharibə gedirmiş. Uralska girmiş bolşeviklər, Orenburq kazakları tərəfindən çıxarılıb qovulmuşlardır.

**Ənvər paşaya sui-qəsd**

İstanbuldan verilən xəbərlərə görə, Berlində Ənvər paşaya sui-qəsd edilmişdir. Sui-qəsd, türk zabiti tərəfindən olmuşdur. İki dəfə güllə atmışsa da, isabət etməmişdir [dəyməmişdir]. Ənvər paşa salamatdır.

* Odessada davam edən Yassı müşavirəsi əzaları [üzvləri; iştirakçıları] Milyukov, Şebeko, Qurko və qeyriləri İstanbul və Brindizi təriqi [yolu] ilə Parisə azim olurlar [yola düşürlər].

* Romaniya milli-liberallarının müşavirəsində Bratianu demişdir ki, Bukovina ilə Transilvaniya muxtariyyət almadan Romaniyaya ilhaq ediləcəkdirlər [birləşdiriləcəkdir]. Sülh Konqresində Romaniya, Fransa ilə bağladığı əhdnaməyə müstənidən [istinad edərək] Tisa və Dnestrdən dənizədək olan ərazini istəyəcəkdir. Bessarabiya ilə Bukovina tələb ediləcəkdir. Transilvaniya ilə Dobruca əlavə olarsa, Romaniya 330000 kilometrəlik, 19 milyonluq bir yerə təsahüb edəcəkdir [sahib olacaqdır].

* Yassıdan xəbər verilir: Takiyansku bir heyətlə Vilsonun yanına getmişdir. Məqsəd Transilvaniya məsələsinin müdafiəsidir.

**Müttəfiqlər və Türkiyə**

İstanbuldan xəbər verilir:

Mütarikə [atəşkəs] şəraitinin vaxtı bitdikdən sonra, Müttəfiqlər yeni şərait [şərtlər] təklif etmişlər.

* Müdafiə və mühacimə [hücum] üçün Fransa ilə yunan miyanında [arasında] əqd edilmiş [imzalanmış] müqavilənaməyə görə, Yunanıstan 25 sənə müddətinə şərqdə Fransa mənafeyini müdafiə və mühafizə etməlidir. Fransa bunun əvəzində Yunanıstana maddi, hərbi, texniki müavinətdə [köməklikdə] bulunacaqdır. Əlavə beş sənəyədək Fransa 9 drednot, 12 zirehli, 40 minanos [torpedo gəmisi], 25 submarindən [sualtı qayıqdan] ibarət Yunanıstan donanmasını təmir edəcəkdir [quracaqdır].

* İstanbuldan xəbər verilir:

Vilhelmi-sani [İkinci Vilhelm] Yunanıstana təklif etmişdi ki, Korfu adasında qalmağa icazə versin. Yunanıstan işbu təklifi rədd etmişdir.

## MƏTBUAT

Knyaz Tumanov rusca "Azərbaycan" qəzetəsində "Rusiya və Qafqaziya" ünvanlı bir məqaləsində, inqilab nəticəsində Rusiyanın parçalanmasını, velikorus millətinin Rusiyada nizam və asayiş saxlaya bilməyərək hərcümərclik önünü ala bilmədiyini, şimdi də asayiş bərpası üçün kəndisi aciz qalaraq özgə millətləri köməyə çağırdığını, eyni zamanda Qafqaziya millətlərinin bu uğurda daha artıq müvəffəqiyyətlə iş görərək özgələrin müdaxiləsinə ehtiyac görmədən kəndiləri kəndi məmləkətlərini hüsn-idarə etdiklərini, hərcümərcin önünü aldıqlarını qeydlə, hal-hazırda rus ünsürünün nizam və asayişlə yaşayan Qafqaziya millətlərini dübarə hərc-mərc alovu ilə yanan Rusiyaya tabe etmək təşəbbüslərindən bəhs edir və yazır ki:

*"Sual olunur – Bunlar kimə gülürlər? İstiqlalına müqavimət və zidiyət göstərildiyinə baxmayaraq müstəqil dövlət təşkil etməyə müvəffəq olan Qafqaziya millətlərinəmi gülürlər, yaxud kəndi dövlətini müstəqillən yaşatmağı bacarmayıb özgələrin köməyinə ümidvar olan öz millətlərinəmi? Əgər rus milləti, sabiq Rusiya əyalətlərində yaşayan millətlərin istiqlalı müqabilinə sərf etdiyi səy və ehtimamı Rusiya daxilində bolşevizm müqabilinə sərf etsəydi, bəlkə bolşevizm çoxdan məhv edilərdi. İndi isə bunlar təyini-müqəddərat haqqı əsası ilə kənarlarda qurulan binaları dağıdırlar və özləri öz evlərində müstəqillən çalışmağı bacarmayıb ümidvar olurlar ki, Müttəfiqlər öz qoşunlarının gücü ilə Rusiyanı birləşdirib, rus millətinə də əski hakimliyini qaytaracaqlardır. Böylə ümidlərdə nə qədər siyasi sadəlövhlük var. Rus millətinə hangi xidməti üçün və nə səbəbə hakim millət imtiyazı qaytarılacaqmış? Onun üçünmü ki, öz məmləkətində, öz qüvvəsilə nizam və asayiş bərpa edə bilməyir? Yaxud kəndi daxilində müstəqillən dövlət təşkil edən Qafqaziya millətlərinə qarşı ədavətkaranə hücumlar etdikləri üçünmü?*

*Müttəfiqlər artıq Qafqaziyaya gəlmişlər və tədricən Rusiya daxilinə girirlər. Şimdi onlar sabiq Rusiyanın bu iki hissəsi arasında olan fərqi öz gözlərilə görürlər. Görürlər ki, Rusiya intəhasız bir hərc-mərc dənizidir ki, təlatümə gəlmiş dalğaları içində mədəniyyət və səadət məhv olur. Qafqaziya isə siyasi və iqtisadi imtiyazlarını qeyb etmək qarşısında bulunub da Qafqaziya millətlərinin istiqlalına qarşı şiddətlə mübarizə edən düşmən ənasirinin [ünsürlərinin] düşmənanə müqavimətinə baxmayaraq, sakit və rahat müstəqil dövlət qurmaq yolu ilə gedir.*

*Rusiya hələ dağılmaqdadır, Qafqaziya isə artıq qurulur. Rusiya qan və ölüm məmləkəti, Qafqaziya isə yeni rahat həyat verir.*

*Yaxşı olmazmı ki, vətəni doğrudan sevən ruslar, Qafqaziyada dövlətlər təşkilinə ədavət göstərməkdən vaz keçib, Qafqaziya millətlərinə mane olmasınlar və bu surətlə məzkur [adı çəkilən] dövlətlərlə Müttəfiqlərin yaxında asayiş bərpa edəcəyi Velikorusiya miyanında [arasında] mehriban qonşuluq münasibatı [münasibətləri] peydasına imkan buraxsınlar."*

## MAARİF MÜFƏTTİŞLƏRİNİN YIĞINCAĞI

(68-ci nömrənin mabədi)

Kanuni-əvvəlin [dekabrın] 18-də vaqe olan məclisdə, ibtidai iki, üç və dörd sinifli məktəblərin müəllim və müəllimələrinin məvaciblərini artırmaq və o məktəblərin idarəsi üçün lazım olan paranın təyin olunması barədə müzakirə olundu. Necə ki məlumdur, ibtidai məktəblərin müəllim və müəllimələri hökumətdən ayda ancaq 31 manat 33 qəpik məvacib alırdılar. Gündüz məktəbdə qırx-əlli nəfər şagirdlərin təlim və tərbiyəsi ilə məşğul və gecələr də onların 80 və 100 dənə dəftərlərinin təshihinə vaxt sərf edərək, gecə-gündüzdə ancaq dörd-beş saat istirahət edən zəhmətkeş müəllim baba, daima əziyyət çəkərək aldığı məvacib qədər kənardan borc para alıb əhli-əyalını [ailəsini] idarə edirdi. Müharibə münasibətilə zəruri şeylərin bahalanmasını nəzərə alıb Zaqafqaz Hökuməti mart ayının 3-dəki qətnaməsilə ümum qulluqçuların və o cümlədən müəllimlərin məvaciblərini bir qədər artırmışdı. Bazardakı şeylərin qiyməti gün-gündən birə on, iyirmi daha ziyadə artdığından, Azərbaycan Hökuməti oktyabr 18-indəki qərardadı ilə qulluqçuların məvacibini bir qədər də artırdı. Halbuki zəruri şeylərin qiyməti oktyabr ayındakı qiymətlərdən birə on artmışdır və gündən-günə artırtmaq ehtimalı vardır. Deməк, məvacibə göz dikən qulluqçular, yenə zəhmət və əziyyət çəkməkdədirlər. Bu tərəfdən pulun hazırkı qiymətini nəzərə alsaq, onda aşkar olar ki, 300 manat məvaciblə bir nəfər subay adam dolana bilməz, nəinki 5-6 baş külfətə malik olan bir müəllim. Ona görə, məclis bu xüsusda uzun-uzadıya müzakirə edəndən sonra indiki bahalığın müqabilində heç olmasa vəsət [orta] halda dolanmaq üçün (Allah bilir sabah, biri gün zəruri şeylərin qiyməti nə dərəcə artacaq?) ibtidai iki, üç, dörd sinifli məktəblərin müəllim və müəllimələrinə hökumət tərəfindən kafi qədər maaş verilməsi, müttəfiqülrəy təqərrür etdi [yekdilliklə qərara alındı]. Bu məsələdən sonra müəllim və müəllimələrin təqaüd sandığı barədə danışıq oldu. Bu vaxta qədər ümum Rusiya müəllimlərindən hər ay müəyyən qədər para çıxılırdı və bu paralar Petroqradda mərkəzi təqaüd idarəsində (Управление пенсионной кассы) mühafizə olunurdu. Axırıncı inqilabdan sonra zavallı müəllimlərin onsuz da cüzi maaşlarından saxlanmış paraların nerədə və kimin ixtiyarında olduğunu bilən yox. (Şübhəsiz, Azərbaycan Hökumətimiz gələcəkdə təşkil olunacaq Rusiya Hökumətilə əlaqə və münasibat əmələ gətirəndən sonra bu xüsusda ciddi iqdamatda [təşəbbüsdə] bulunub, həmin paraların sahiblərinə iadə olunmasına [qaytarılmasına] çalışacaqdır). İndi cavan Azərbaycan Hökumətində təqaüd sandığı və onun tərtib və təşkili təzə bir məsələ hesab olunur. Binaileyh [ona görə], bu tezlikdə belə mühüm və qarışıq məslənin tərtib və təşkili lazım olub-olmadığını aydın etmək və məruzə ilə məclisə müfəssəl məlumat vermək üçün beş nəfərdən ibarət bir heyət intixab olunub [seçilib], həmin məsələ onlara həvalə edildi [tapşırıldı].

Səhər saat 9-dan açılan məclis, günortadan sonra saat 3-də xitama yetdi. Başqa məsələlər barədə gələcək nömrədə bəyanat verəriz.

*İslam bəy Qəbulov*

## BAKI XƏBƏRLƏRİ

### Müftü həzrətlərinin məzuniyyəti

Müftü həzrətləri xəstə olduqlarından naşi [ötrü] bir ay məzuniyyət istəmişdir. Ona binaən [görə], müftülük vəzifəsinin ifası şimdilik Məşixiyyə Dairəsi [Şeyxülislamlıq İdarəsi] üzvü Ələddin əfəndi Sübhanquliyev həzrətlərinə həvalə edilmişdir [tapşırılmışdır].

* Bakıya, bolşeviklərlə axırıncı müharibədə yaralanan Tersk kazakları və Könüllü zabitan [zabitlər] trenləri [qatarları] varid olmuşdur [gəlmişdir]. 600-ədək bu məcruhin [yaralılar] Bakı xəstəxanalarında yerləşdirilmişlər.

* Hal-hazırda general Tomsonun təhriki [təşəbbüsü] ilə bir komisyon müqavileyi-müştərəkə [kollektiv müqavilə] və fəhlələrin muzdu məsələsini müzakirə etməkdədir.

* İşbu günlərdə Fransa hərbi mürəxxəsliyi [nümayəndəliyi] müdiri Şardinye, Maarif Nəzarətinə müraciətən Bakıda firəng kursları açılmasına müsaidə istəmişdir. İşbu kurslar üçün Birinci Realnı məktəbinin dörd otağının günortadan sonra təyin edilməsi rica edilmişdir. Maarif Nəzarəti müsaidə vermişdir.

* Kanuni-əvvəlin [dekabrın] 17-ci gecəsi, 8-ci Zavağzalnı və Balaxanski küçələrin küncündə naməlum şəxslər tərəfindən 50-yədək güllə atılmışdır.

* Kanuni-əvvəlin 16-da saat 7 radələrində Naqornı küçə yaxınlığında naməlum əşxas [şəxslər] tərəfindən bir neçə güllə atılmışdır. Məhəlli-hadisəyə [hadisə yerinə] gəlmiş polis əfradı [nəfərləri] yeddi dəvə görmüşdür. Dəvə üstündə oturmuş bir nəfər, polis nəfəratına iki güllə atmışdır. Güllədən biri, kağız paylayan Mixail Vlasyanı ayağından yaralamışdır. Güllə atan qaçıb gizlənmişdir. Dəvələr polis idarəsinə gətirildikdən sonra sahibi Əzim Sultan oğlu ardınca gəlmiş, o dəxi tövqif [həbs] edilmişdir.

* İşbu günlərdə rus lisanında "Naş mir" nam [adlı] bir qəzetə nəşrə başlayacaqdır. Müdiri-məsul Tiqyanosyandır.

* Azərbaycan Türüq və Məabir Nəzarəti [Nəqliyyat və Rabitə Nazirliyi] bir çox sui-istemalı təhqiq etmək üçün Antoşevskini Poylu mövqifinə [stansiyasına] göndərmişdir.

* Quba qaimməqamı Bakı qubernatoruna müraciət edərək məlum etmişdir ki, Şollar su yolu qulluqçuları iki aydan ziyadədir ki, məvacib almayırlar. Fəhlələrin maddi cəhətdən sıxıntı çəkmələrini nəzəri-etibara alaraq, Bələdiyyə İdarəsi nəzdində məvaciblərinin verilmək barəsində iqdamatda [təşəbbüsdə] bulunulsun.

* * *

**Parlaman rus fraksiyasının isticvabı**

Parlamanın rus fraksiyası Azərbaycan dəmiryollarında hökmfərma olan [hökm sürən] rüşvətxorluq barəsində Türüq və Məabir Nəzarətindən [Nəqliyyat və Rabitə Nazirliyindən] isticvab etmişdir [cavab istəmişdir]. Fraksiya işbu işləri təhqiq edib günahkarları təhtiməsuliyyətə [məsuliyyət altına] almaq üçün bir komisyon təşkilini müdafiə edəcəkdir. Zira ki, böylə işlər şəhəri ərzaqdan məhrum edir.

## ERMƏNİSTANDA

Gürcüstanda olan erməni siyasi nümayəndəsi, Rus Milli Şurası məktubuna cavab vermişdir ki, öz evlərini tərk edən rus kəndlilərinin kəndləri yarım xarab edilib və bu günlərdə qaçqınlar yerləşdirilmişlərdir. Rus kəndlilərinin qayıtmasına heç bir mümaniət [maneə] yoxdur. Lakin Ermənistanda ərzaq az olduğuna görə, rus kəndliləri öz yerlərinə qayıtdıqda müşkülata düçar olacaqlardır. Buna görə, uyezdlərinə qayıtmaq istəyənlərə xəbər verilir ki, vətənlərinə övdət etməyi [qayıtmağı] bahar fəsilinə qədər təxirə salsınlar.

**Operetta**
**Axşam tamaşası**
Azərbaycan Hökuməti Teatrosunda
Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyli Qardaşlarının Müdiriyyəti
cümə günü rəbiüləvvəl ayının 16-da (dekabrın 20-də) 1337-1918 ildə bu mövsümdə birinci dəfə olaraq şükuhlu [təntənəli] bir surətdə mövqeyi-tamaşaya qoyulacaqdır
Zülfüqar bəy Hacıbəylinin yazmış olduğu məşhur
**"Əlli yaşında cavan"**
operettası.
Bu oyunda bir gecədə 4 komik iştirak edəcəkdir. Böylə ki, Orduxan bəy – Mirzəağa Əliyev, Muradxan bəy – Hacıağa Abbasov, nökər Qulu – Darablı Rza, nökər Heydər – Anaplı Əbülhəsən olub, Gülnazın rolunu Məğfurə xanım və Güllünün – Yeva xanım ifa edəcəkdir.
Orduxan bəyin qonaqlığında yallı və meyxana məclisi olub, tamaşa gözəl və çox gülməli bir mənzərədə başa gələsidir.
Biletlər teatrın kassasında satılmaqdadır.
Tamaşa başlanacaqdır axşam saat 8-in yarısında.
Dirijor: Zülfüqar bəy Hacıbəyli.
Məsul: Xəlil Hüseynzadə.
Rejissor: Hüseyn Ərəbli.
Müdir: Üzeyir bəy Hacıbəyli.

*735*

Bu günlərdə müqtədir şairlərimizdən Əbdülsəlimzadə Məhəmməd Hadi əfəndinin **"İnsanların tarixi faciələri" yaxud "Əlvahi-intibah"** adlı mənzum əsərinin birinci cüzü çapdan çıxıb mövqeyi-füruşa [satışa] qoyulmuşdur. Kitabça gözəl və qalın kağız üzərində təb' [çap] edilmiş, fiatı [qiyməti] 2 manatdır. Turan mətbəəsində, Parapetdə "Məktəb" mağazasında və Bazar caddəsində Paşa Qasımzadənin mağazasında.

*b. 4 – 1*

**Dəniz Nəqliyyatı İdarəsi icazəsilə**
**"Samolyot" paraxod cəmiyyəti**

Mal göndərən və mal gətirənlərə elan edir ki, 17 kanuni-əvvəldən [dekabrdan] cəmiyyət bütün Xəzər dənizindəki nümayəndəliklərini iadə etmişdir [geri qaytarmışdır]. Bakı şəhərində İran, Krasnovodsk və Petrovsk şəhərlərinə göndərilən yükləri 24 və 26-cı körpülərdə qəbul edir. Acentənin kantor telefon nömrəsi 19-22.

Acentə V. N. Natanzondur. Paraxodstvo [gəmiçilik] idarəsi, telefon nömrəsi 46-40.

Paraxodstvo müdiri F. F. Kulikov.

*b - 31*

**Xəzər müstəhlikin ittifaqı**
**"Kooperasiya"nın kitabxana şöbəsi**

Türkcə ədəbiyyat, tarix, coğrafiya, sənaye və kooperatsiyaya dair və həmçinin çocuqlara məxsus kitablar, məktəb kitabları, jurnal alır. Arzu edənlər Parapetdə "Azərbaycan" qəzetəsi kantorunda Əliəkbər Heydərzadəyə müraciət etməlidirlər. Telefon: 6-91.

*b/24 3 – 3*

**Həkimlərin xüsusi gecə və gündüz növbələri**

Ünvan: Bolşoy Moskva mehmanxanası, Qoqolevski və Torqovı küçələrin küncündə. Telefon nömrələri 7-96 və 49-81. Naxoşların evinə gedirlər.

**Doktor**
**Hacı Fəthullah Ağaəlizadə**

Böyüklərin və uşaqların daxili mərəzlərinə müalicə edir. Xəstələri qəbul edir hər gün səhər saat 8-dən 10-adək və axşam saat 4-dən 7-yədək Şamaxı küçəsində, 14 nömrəli evdə.

Telefon nömrəsi 19-27.

*289*

**Qabil diş qayıran**
**Mirzə Xəlil Canıbəyzadə**

Qızıldan və sairədən hər cür əla dişlər münasib qiymətlə qayırır. Ünvan: Qubernski küçə, "İslamiyyə"nin sağ tərəfində ev nömrə 55.

*295*

**Doktor Rza bəy Sultanov**
**Paris Darülfünunundan**

Qəbul edir daxiliyyə və əsəbi xəstələri hər gün saat 9-1-ədək, saat 4-7-yədək. Telefon 5-30. Adres: Parapet, Kolyubakinski küçədə nömrə 39. "Azərbaycan" qəzetə idarəsinin yanında.

*237*

**Doktor**
**Doktor Samuil İzrailoviç Kopelioviç**

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. "914" dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

*282*

**Arvad diş həkimi**
**A. P. Matsiyevskaya**

Naxoşları qəbul edir. Nikolayevski caddədə ev nömrə 33, Krasilnikovun evi. Telefon nömrə 45-90.

Qəbul edir saat 10-dan 2-yə kimi, 5-dən 7-yə kimi.

*283*

**Həkim S. L. Şklovskaya**

Mamalıq və daxili ünas əmrazını [qadın xəstəliklərini] qəbul edir. Naxoşlar qəbul olunur: səhər saat 9-dan birə və 5-dən 7-yə qədər. Ünvan: Aziatski küçədə nömrə 153, Bolşoy Marskoy və Krasnovodski küçələrin arasında. Telefon: 50-67.

Burada leyli [gecə] yatacaqlarıyla qadın cərrahiyyə xəstaxanası mövcuddur.

*209*

**Diş həkimi İsay Samuiloviç Karşteynbaum**

Naxoşlar[ı] əvvəlki kimi qəbul edir. Dişləri ağrısız çıxarır və qızıl üzərində süni dişlər qayırır.

Ünvan: Tsitsyanovski və Çadrovı küçələrin küncündə İsrafilovun 41 nömrəli evində. Qəbul edir hər gün saat 12-dən 3-ə kimi. Axşam 5-dən 8-ə kimi.

*2610*

**Mama M. K. Şerman**

Qəbul edir: mamalıq, ovmaq (massaj) və iynə vurmaq işləri. Həmçinin xəstələrə qulluq etmək işində də təcrübəsi vardır.

Ünvanı: Kolyubakinski küçədə Parapetin qabağında Dildarovun 26 nömrəli evində 2-nci mərtəbədə.

*Telefon 24-62*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qarma və hər növ qayırma dişlər. Dişin yaxşı qayrılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur 9-dan 2-yə və axşam 4-dən 7-yə kimi. Vorontsovski küçə, 14 nömrəli evdə, paradnı qapıdan.

*215*

**Qoldqor-Fradkinin**
**Diş müalicəxanası**

Dərya kənarında Başenni küçədə Ramazanovun 10 nömrəli evində qəbul edir hər gün saat 9-dan 2-yə kimi və 4-dən 7-yə kimi.

*2607 12 – 1*

**Müdir və baş mühərrir:**
**Ceyhun bəy Hacıbəyli**

### TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Bakı, 20 kanuni-əvvəl***

"Ümumqafqaz Millətləri Konfransı": Qafqazdakı münaqişələri sülh yoluyla həll etmək məqsədi ilə 1918-1919-cu illərdə çağırılan konfranslar (Zaqafqaziya Konfransı) nəzərdə tutulur.

***Teleqraf xəbərləri***

"Vilson Londona getmək haqqında kral tərəfindən...": Böyük Britaniya kralı V Corc nəzərdə tutulur.

"Sinfeyner": İrlandiyanın müstəqilliyi uğrunda mübarizə aparmaq məqsədi ilə 1905-ci ildə yaradılan "Sinn Feyn" (yaxud "Şinn Feyn"; Sinn Féin) təşkilatı üzvü.

"Knyaz Lvov": 1917-ci ildə Rusiyada Müvəqqəti Hökumətin başçısı olan Georgi Yevgenyeviç Lvov nəzərdə tutulur.

"Petlyuralılar": Ukrayna Xalq Respublikası Direktoriyasının rəhbərlərindən olan Simon Vasilyeviç Petlyura tərəfdarları nəzərdə tutulur.

***Erməni-gürcü toqquşması***

"Hərbiyyə naziri": söhbət Gürcüstanın Hərbi naziri Qriqol Giorqadzedən gedir.

Uzundərə: Gürcüstan-Ermənistan sərhədində kənd.

Aqarak: Gürcüstan-Ermənistan sərhədində kənd.

***Qəzetələrdən***

"Tisa və Dnestrdən dənizədək...": burada söhbət Qara dənizdən gedir.

***Ermənistanda***

"Gürcüstanda olan erməni siyasi nümayəndəsi...": bu vəzifəni Arşak Camalyan tuturdu.

# REGİONLAR

## Zəmilərdən bərəkət ətri gəlir

### Samux taxılçıları bu il də bol məhsul yetişdirmişlər



**Samuxda cari ilin məhsulu üçün 13486,3 hektarda taxıl toxumu səpilmişdir ki, bu da əvvəlki ildə əkilmiş taxıl sahəsindən 2626,4 hektar çoxdur. Səpilmiş toxumun 7476,7 hektarını buğda, 6009,6 hektarını arpa təşkil etmişdir.**

Səpin optimal müddətdə aparılmış və yetişmiş taxılın vaxtında biçilməsi üçün geniş hazırlıq işləri görülmüşdür. Samux Dövlət Aqrar İnkişaf Mərkəzində qərargah yaradılmış, taxıl biçininin optimal müddətdə aparılması və itkisiz yığılması üçün tədbirlər planı təsdiq edilmişdir. Həmin plana uyğun olaraq, biçinə hazırlıqla bağlı yerlərdə fermerlərlə görüşlər keçirilmiş, mövcud problemlər həll edilmiş, istehsalçılara məsləhət verilmişdir. Görüşlərdə fermerlərə taxıl sahələrinin biçindən sonra vaxtında şumlanması, taxıl sahələrinin yandırılmaması haqda tövsiyələr verilmişdir. Bunlardan əlavə, biçinə başlamazdan əvvəl "Aqroservis" ASC-nin Samux bölməsində olan kombaynlara baxış keçirilmiş, mexanizatorlar texniki təhlükəsizlik qaydaları barədə məlumatlandırılmışlar.

Hazırda zəmilərdə taxıl biçini mütəşəkkil keçir. Kombayn sarıdan problem yoxdur. Havaların qeyri-sabit keçməsinə baxmayaraq, biçin gecikmir. Arpa üzrə orta məhsuldarlıq 38,5 sentner olmuşdur. Buğda sahələrində isə bu göstərici hələlik 48,5 sentnerdir. Biçin davam edir.

## "Paşa Holdinq"in dəstəyi ilə Göygöldə daha bir layihə reallaşmışdır

### 10 qadın fermerə müxtəlif təyinatlı avadanlıqlar verilmişdir

**Kənd Təsərrüfatı Nazirliyi tərəfindən "Paşa Holdinq"in dəstəyi ilə həyata keçirilən "Aqrar fəaliyyətli Azərbaycan qadınları" (AFAQ) və "Şəhərdən kəndə" layihələri çərçivəsində Göygöl rayonunda kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən bir qrup fermerə dəstək verilmişdir.**



Layihələrin təqdimatı ilə bağlı rayonun Şəhriyar kəndində yerləşən Aqroturizm təsərrüfatında görüş keçirilmişdir. Kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova, Göygöl Rayon İcra Hakimiyyətinin başçısı Elvin Paşayev, Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki "Aqrar Tədarük və Təchizat" ASC-nin İdarə Heyətinin sədri Aqil Quliyev və fermerlərin iştirak etdikləri tədbirdə fermer İftixar Hüseynovun təsərrüfatı haqqında ətraflı məlumat verilmişdir. Qeyd edilmişdir ki, təsərrüfat, əsasən, aqroturizm, bağçılıq və quşçuluq, eləcə də bostançılıq üzrə fəaliyyət göstərir. Təsərrüfatın sahəsində göl də mövcuddur. "Şəhərdən kəndə" layihəsi çərçivəsində yenidənqurma işlərinin aparıldığı təsərrüfatda uşaq meydançası yaradılmış, təndir və ev quşları saxlamaq üçün hin inşa edilmişdir. Xidmət səviyyəsinin artırılması məqsədi ilə təsərrüfat bir sıra avadanlıq və ləvazimatlarla (manqal, oturacaqlar, lövhələr və s.) təmin olunmuşdur.

Tədbirdə 10 qadın fermerə əvvəlcədən aparılan sorğu əsasında AFAQ layihəsi çərçivəsində avadanlıqlar verilmişdir. Qırıqlı, Mollacəlili, Çaylı, Quşqara, Çaykənd, Nadel və Yeni Zod kəndlərindən olan xanım fermerlər yemyüdən avadanlıq, arı yeşikləri, südsağan aparat, südçəkən maşın və balsüzənlə təmin olunmuşlar.

Onu da bildirək ki, layihə çərçivəsində bu günə qədər yerli və əcnəbi mütəxəssislər tərəfindən həyata keçirilən təlimlərdə 221 təsərrüfat sahibi iştirak etmişdir. Ümumilikdə isə layihəyə qoşulmaq üçün 200-dən artıq aqrar sahibkar qeydiyyatdan keçmişdir. Baxış keçirilən 177 fermer təsərrüfatından 130-u aqroturizm fəaliyyəti üçün uyğun hesab edilmişdir.

Məlumat üçün bildirək ki, AFAQ layihəsi qadınların məşğulluğunun, onların informasiya, resurs və bazarlara çıxış imkanlarının, eyni zamanda qadınlar tərəfindən idarə olunan aqrar biznes subyektlərinin sayının artırılmasına və regionlarda sosial-iqtisadi rifahın yaxşılaşdırılmasına xidmət edir. Bu günədək layihəyə 1310-a yaxın müraciət daxil olmuş, layihə kriteriyalarına cavab verən 234 müraciətçinin təsərrüfatına baxış keçirilərək qiymətləndirmə sorğusu aparılmışdır. Layihənin tələblərinə cavab verən ümumilikdə 161 təsərrüfat sahibinə müvafiq avadanlıqlar və aktivlərlə dəstək verilmişdir. Layihə çərçivəsində 218 qadın fermer nəzəri və praktik təlimlərdə iştirak etmişdir.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Şəhər üçün 60 il nədir ki...

### Bu illər ərzində dəyişən təkcə Şirvanın adı və statusu olmayıb

**Şirvan Azərbaycanın inzibati coğrafiyasında yer alan ən gənc şəhərlərdəndir. Elə isə tarixinə qısa nəzər salaq: 1930-cu ilə qədər Ərəbşahverdi, Qırxçıraq, Zubovka, Papanino, 1938-ci ildə kolxozlaşma ilə əlaqədar rayon mərkəzinə çevrilərək Əli Bayramlı qəsəbəsi adlandırılmış, 1954-cü ildə isə Əli Bayramlı rayonunun tabeliyində şəhər statusu almaqla böyük bir kənd təsərrüfatı mərkəzinə çevrilmişdir.**



1963-cü ilin yanvar ayında Əli Bayramlı rayonu ləğv edilərək onun kəndləri Sabirabad, Şirvan və Şamaxı rayonlarının tabeliyinə keçirilmiş və ona respublika tabeçiliyində şəhər statusu verilmişdir. Prezident İlham Əliyevin 7 may 2008-ci il tarixli Fərmanı ilə şəhər Şirvan adlandırılmışdır.

Şəhər Bakıdan cənub-qərbdə, avtomobil yolu ilə 120 kilometr məsafədə, əsasən, Şirvan düzündə, Kür çayının şərq sahilində yerləşir. Əhalisi 85 min nəfərdir. Ərazisi neft və qazla zəngin olduğundan keçən əsrin 50-ci illərində burada ilk neft quyusu qazılıb. Quyuların sayı artdıqca neft istehsalı da artıb. Respublikamızın bütün rayonlarından gənclər işləməyə buraya gəlməyə başlayıblar. Ovaxtkı Neft və Kimya İnstitutunu bitirən məzunların bir çoxunun təyinatı da keçmiş Əli Bayramlıdakı neft və qazçıxarma müəssisələrinə verilirdi. Onların əməyi nəticəsində 1955-1957-ci illərdə gündəlik neft hasilatı 1411 tona, qaz hasilatı 17 min kubmetrə çatmışdı. 1963-cü ildə "Azneft" rəhbərliyinin təşəbbüsü ilə "Şirvanneft" Neft Mədənlər İdarəsində qazma kontoru yaradılandan sonra həyata keçirilən səmərəli tədbirlər nəticəsində 1965-ci ildə neft hasilatı 10 min tona, qaz hasilatı 2 milyon kubmetrə çatmışdı. Bu isə şəhərin şöhrəti ilə yanaşı, imkanlarını da artırmışdı.

1956-cı ildə şəhərin həyatında daha bir mühüm hadisə baş verir: Kür çayının sol sahilində Avropada birinci olan açıq tipli Dövlət İstilik-Elektrik Stansiyasının təməli qoyulur və 28 fevral 1962-ci ildə onun birinci bloku istismara verilir. Bu stansiyanın gücü o vaxt çox məşhur olan Mingəçevir Su-Elektrik Stansiyasının gücündən 3 dəfə çox idi.

Bu iki sahənin - neft-qaz və elektrik enerjisi hasilatı şəhərin həyatında mühüm rol oynamışdır. Şəhər sürətlə inkişaf edərək abadlaşmış, yeni yaşayış evləri, sosial əhəmiyyətli binalar, xidmət obyektləri tikilməyə başlanmışdır. Nəticədə şəhər öz ərazisinin hüdudlarını aşmışdır - Şirvan kanalının sol sahilində, Murovdağın ətəyində yeni, planlı şəkildə "Yeni şəhər" adlı böyük yaşayış massivi salınmışdır.

Paralel olaraq şəhərdə yeni müəssisələr - Mexaniki-Təmir İstehsalat Birliyi, Sənaye Avtomatikası və Telemexanika Zavodu, Dəmir-Beton Evtikmə Kombinatı, Dəzgahqayırma Zavodu, Yeyinti Konsentratları Kombinatı, 250 çarpayılıq xəstəxana, məişət evi, məktəblər, uşaq bağçaları və s. tikilib istifadəyə verilmişdir. Beləliklə, Əli Bayramlı şəhəri respublikanın iri sənaye mərkəzlərindən birinə çevrilmişdir. Açılan yeni müəssisələrdə, xüsusilə Telemexanika Zavodunda işləmək üçün keçmiş SSRİ-nin müxtəlif şəhərlərindən gənclər buraya axın etmişlər. Onların çoxu həyatlarını birdəfəlik indiki Şirvan şəhəri ilə bağlamışdır. Burada evlənib ailə qurmuş, ev-eşik, oğul-qız sahibi olmuşlar.

Bu gün Şirvan şəhəri yeni inkişaf dövrünü yaşayır. 2004-cü ildən icra olunan regional inkişaf proqramları sayəsində şəhərdə ölkə əhəmiyyətli Cənub Elektrik Stansiyası, Olimpiya İdman Kompleksi, Müalicə Diaqnostika Mərkəzi, qaçqın və köçkünlər üçün yaşayış kompleksi, Ticarət Mərkəzi, Müdafiə Sənayesi Nazirliyinin "Araz" Zavodu, onlarca məktəb, uşaq bağçası, səhiyyə, mədəniyyət ocağı inşa olunmuş, köhnələri əsaslı şəkildə təmir edilmişdir. Yollar, küçələr, körpülər, bağlar, xiyabanlar yüksək səviyyədə yenidən qurulmuşdur. Keçmişdəkindən daha abad, gözəl olan şəhərdə çoxsaylı regional idarələri fəaliyyət göstərir. Onların hər biri üçün müasir memarlıq üslubunda inzibati binalar tikilmişdir.

Bunlar müstəqillik dövründə görülən işlərin yalnız bir qismidir, qalan qismi haqqında məlumat almaq üçün isə gərək 60 yaşlı şəhərə gələsən. Şirvanlılar deyirlər ki, yeni ad şəhər üçün düşərli olmuşdur. Çünki Şirvan hər ayı, hər ili uğurla yola salır. Sənaye müəssisələri istehsal gücünü artırır, aparılan tikinti-quruculuq işləri bir an belə səngimir. Təkcə cari ilin birinci rübü ərzində şəhər üzrə 187 milyon 962 min manatlıq və ya keçən ilin müvafiq dövrü ilə müqayisədə 5,8 faiz çox məhsul istehsal edilmiş və xidmətlər göstərilmişdir.

Abadlıq işlərinə gəldikdə, bu sahədə də az iş görülməmişdir. Şəhərin mərkəzində yerləşən və uzun illərdən bəri bərbad vəziyyətdə olan M. Füzuli adına Şəhər Mədəniyyət və İstirahət Parkı əsaslı şəkildə yenidən qurularaq sakinlərin istifadəsinə verilmişdir. Parkda "Qarabağ" və "Zəfər" xiyabanları yaradılmış, cəsur əsgərlərimizin göstərdiyi qəhrəmanlığı əks etdirən abidə ucaldılmışdır. "IDEA" İctimai Birliyinin təşəbbüsü ilə parkda idman qurğuları quraşdırılmışdır. Söz düşmüşkən, onu da qeyd edək ki, "IDEA"nın təşəbbüsü ilə həyata keçirilən "Bizim həyət" layihəsi çərçivəsində Bakıdan kənarda ilk dəfə Şirvan şəhərində məhəllələr abadlaşdırılır.

60 yaşlı şəhər, beləcə, qaynar bir həyat yaşayır. Bayram ovqatlı tədbirlər bir-birini əvəz edir. Hər bir sakin istəyir ki, Şirvan şəhərinin dəyişən təkcə adı olmasın.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## Təkcə çörək vermir...

**İkram Ziyadov bölgədə yüksək əxlaqi keyfiyyətlərə malik dürüst insan, bacarıqlı mütəxəssis kimi tanınır. Halallıqla qazandığı ruzisini çətində, darda olanlarla, ehtiyac içində yaşayanlarla paylaşıb rahatlıq, təsəlli tapır. Elə bayram, elə əlamətdar gün olmaz ki, kasıb qapısını dolu zənbillə açmasın. Bu, təsadüfi deyil. İkram kişi külli Qarabağda yaxşı tanınan, hər zaman hörmət və ehtiramla yad edilən Seyid Mir Paşa ağa ocağının layəqətli davamçısıdır.**

Bərdə rayonunun Qazaxlar kəndində yaşayan İkram ağa faydalı və xeyirxah bir fəaliyyət növü - buğda, arpa, yonca toxumçuluğu ilə məşğuldur. 1997-ci ildən bu sahədə çalışır. Şəxsi təşəbbüsü və təşkilatçılığı ilə yaratdığı "Elkiyar" İstehsal Kommersiya Şirkəti fəaliyyət göstərdiyi illər ərzində bir çox uğurlara imza atıb. İkram Ziyadov düşüncələrini bizimlə həvəslə bölüşdü:

- Köhnə sistemin dağılması adamların vərdiş etdikləri iş üsulları ilə çalışmasını mümkünsüz etmişdi. Kolxozlar ləğv edilmiş, yeni aqrar idarəçilik formasının təşəkkülünə isə böyük zaman tələb olunurdu. Yaranmış imkanı doğru dəyərləndirməyə çalışdım. Qabiliyyətinə, bacarığına yaxından bələd olduğum köhnə dostları başıma yığıb fermer təsərrüfatı yaratdım. Dağılan kolxozdan bizə çatacaq əmlak payı qarşılığında müxtəlif kənd təsərrüfatı texnikaları götürməyə üstünlük verdik. İlk illər çətinliklərimiz çox olsa da, yavaş-yavaş işləri yoluna qoyur, yeni texnologiyalarla qabaqcıl təcrübəyə üstünlük verirdik.

Müstəqillik yolunda kövrək addımlarını atan ölkəmizdə problemlər yetərincə idi. Torpaq islahatının ilk mərhələsi ağrısız keçmirdi. Bir tərəfdən də nankor qonşularımızla müharibə böyük problemlər yaradırdı. Xalqın təkidi ilə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev yenilməz iradəsi, müdrik siyasəti ilə qısa zamanda həm torpaq islahatını reallaşdırdı, həm də cəbhədə atəşkəsə nail olmaqla fürsət qazandı. Belə bir ağır məqamda biz də öz seçimimizi etdik. Düşündük ki, müharibə şəraitində yaşayan bir dövlətə güclü ordunun vacib olduğu qədər də bol çörək lazımdır. Çörəyin, taxılın bolluğu isə keyfiyyətli toxumdan çox asılıdır. Bax biz bu amili əsas götürərək taxıl toxumçuluğu yolunu fəaliyyət istiqaməti olaraq seçdik. Peşman deyilik. Böyük uğurlar qazanmışıq. Şirkətimizin maddi - texniki bazası ildən-ilə möhkəmlənir. Artıq sağlam və keyfiyyətli toxumun etibarlı ünvanına çevrilmişik.



İkram Ziyadovla söhbətdən məlum oldu ki, "Elkiyar" şirkəti həm mülkiyyətində olan 60, həm də icarəyə götürdüyü 450 hektar torpaq sahəsindən buğda, arpa, yonca toxumunun istehsalında səmərəli istifadə edir. Üstəlik, əlavə olaraq bostan-tərəvəz məhsulları əkib-becərir. Şirkət, əsasən, "Fatimə", "Murov-2", "Mətin", "Qırmızı gül", "Tanya" buğda, "Qarabağ-22", "Qarabağ-33", "Günəş", "Filola" arpa sortlarını yetişdirir.

Hazırda şirkətin zəmilərində taxıl biçini gedir. Arpa biçini başa çatıb. Buğda biçini isə davam edir. Arpa sahələrinin orta məhsuldarlığı 50 sentnerə yaxındır. Biçini davam edən buğda sahələrində isə məhsuldarlıq hələlik 60 sentnerdir.

Bu ilin məhsulu üçün 112 hektarda arpa, 325 hektarda buğda yetişdirən "Elkiyar" şirkəti əlverişsiz keçən hava şəraitinin yaratdığı ciddi çətinliklərə sinə gərə bilib. Bütün qüvvələr böyük zəhmət bahasına başa gələn bir sünbülün belə itkiyə getməməsi üçün səfərbər edilib. Çəkilən zəhmət, axıdılan alın təri hədər getməyib.

İkram Ziyadovun əməyi dövlət tərəfindən də layiqincə qiymətləndirilib. Sinəsini "Tərəqqi" medalı bəzəyir. Azərbaycan Taxıl Toxumçuları Assosiasiyasının və Fermerlər Şurası İdarə Heyətinin üzvü, rayon Fermerlər Şurasının sədridir. Üstəlik, Bərdə RİH yanında İctimai Nəzarət Şurasında təmsil olunur. Toxumçuluqla bağlı çoxsaylı beynəlxalq elmi konfransların iştirakçısıdır.

İkram ağanın ocağı qonaqsız-qarasız olmur. Çətinə, dara düşənlər, qayğıya, köməyə ehtiyacı olanlar tərəddüd etmədən hər zaman hər kəsin üzünə açıq olan İkram ağanın ocağına üz tuturlar və peşman da olmurlar. Nurlu çöhrəsindən təbəssüm yağan, bir kəlməsi ilə küsülüləri barışdıran İkram ağanın pozitiv enerjisindən hər kəsə pay düşür.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

## Daşkəsəndə selin vurduğu ziyan aradan qaldırılır

**Xəbər verildiyi kimi, intensiv dolu və leysan yağışları nəticəsində Daşkəsən şəhərindən güclü sel keçmiş və nəticədə şəhərin yolları, istinad divarları dağılmış, elektrik və rabitə xətləri qırılmış, bir çox fərdi yaşayış evlərinin bünövrəsi uçmuşdur.**

Daşkəsən şəhərində leysan yağışları və sel sularının təsirindən yaranmış torpaq sürüşməsi şəhər sakini Zemfira Məmmədovaya məxsus fərdi yaşayış evini tamamilə qəzalı vəziyyətə salmışdır. Hazırda Zemfira Məmmədova və onun ailə üzvləri müvəqqəti olaraq zəruri avadanlıqlarla təchiz edilmiş 2 çadırda yerləşdirilmişdir.

Bundan başqa, güclü sel suları və ərazidəki çayların məcrasından çıxması rayonun Çovdar, Alaxançallı, Qaraqullar, Təzəkənd, Xoşbulaq, Əmirvar, Quşçu, Bayan, Dəstəfur, Gurbulaq, Tapan, Pirverdilər kəndlərində və Alunitdağ qəsəbəsində yollara, elektrik transformatorlarına, rabitə, qaz xətlərinə, fərdi yaşayış evlərinə, əkin sahələrinə, heyvandarlıq və arıçılıq təsərrüfatlarına ciddi ziyan vurmuş, dağıntılar törətmişdir. Dağlardan iri qaya parçaları və palçıq kütlələri avtomobil yollarına töküldüyündən əksər yollarda nəqliyyatın hərəkətində fasilələr yaranmışdır. Qaraqullar kənd sakini Afət Qənbərovanı



ildırım vurmuşdur. O, xəstəxanaya yerləşdirilmişdir. Təzəkənd kənd sakini Elgün Orucovu isə Əyriçay çayından keçən güclü sel aparmışdır. 23 yaşlı gənc həlak olmuşdur.

Hazırda təbii fəlakətin fəsadlarının aradan qaldırılması üçün əraziyə zəruri texnika və canlı qüvvə cəlb edilmişdir. Təbii fəlakətin törətdiyi fəsadların aradan qaldırılması üçün rayonda bütün qüvvələr səfərbərliyə alınmışdır.

*"Azərbaycan"*

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi respublika üzrə bir sıra təhsil müəssisələrinin təmir, kommunal-kommunikasiya və abadlıq işlərinin satın alınması ilə bağlı *açıq tender elan edir*

**Respublika üzrə bir sıra təhsil müəssisələrinin təmir, kommunal-kommunikasiya və abadlıq işlərinin satın alınması.**

Açıq tender iştirakçılarına təklif edilir ki, öz təkliflərini imzalanmış, möhürlənmiş, ikiqat bağlamada, yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: iddiaçıların ixtisas göstəricilərinin uyğunluğu, aşağı qiymət, ödəniş şərtləri, müqavilənin vaxtında yerinə yetirilməsi, təminat verilən istismar müddəti.

Açıq tender proseduru ilə əlaqədar məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət etmək olar:

Əlaqələndirici şəxs - Z.Quliyev.

Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Y.Bakuvi, 18.

Tel: (+99412) 465 73 48 (daxili: 134).

Maraqlananlar açıq tender prosedurunun əsas şərtlər toplusunu 1500 (bir min beş yüz) manat məbləğində iştirak haqqını aşağıda qeyd olunan hesaba köçürdükdən sonra yuxarıdakı ünvandan ala bilərlər.

| | |
|---|---|
| **Bankın adı:** | **"Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı** |
| **Kod:** | **805603** |
| **VÖEN:** | **9900001881** |
| **M/h:** | **AZ03NABZ01350100000000002944** |
| **S.W.I.F.T.** | **IBAZAZ 2X** |
| **H/h:** | **AZ88IBAZ38030019441856517211** |
| **VÖEN:** | **1500016711** |

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir. 03.07.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə bütün fəaliyyəti dövrü) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış (03.07.2023-cü il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının tikinti işlərinin həyata keçirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (vergi orqanı, icra probasiya şöbəsi və ya müvafiq kommersiya məhkəməsi tərəfindən təqdim olunmuş arayış);*
- *kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları (əgər varsa);*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən 03.07.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər, tenderdə xarici şirkətlər iştirak etdikdə onların Azərbaycan nümayəndəliyinin olmasını təsdiq edən sənədlər;*
- *iddiaçının müvafiq sahədə peşəkarlığı, təcrübəsi, maliyyə imkanları, işçi qüvvəsi, idarəetmə səriştəsi barədə təsdiqedici sənədlər (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *iddiaçının baş podratçı kimi analoji işlər üzrə bağlanmış müqavilənin təsdiq olunmuş surətini təqdim etməlidir (oxşar işlərə dair son 3 ildə bağlanmış müqavilələrin surətləri (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *oxşar işlər üzrə iş təcrübəsini təsdiq etmək üçün belə işlərin həyata keçirildiyi müəssisə və təşkilatdan tövsiyə məktubları;*
- *iddiaçının maddi - texniki bazası (sifarişi yerinə yetirilməsi imkanı) haqqında məlumat (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *iddiaçının tender təklifi (tender təklifinin qüvvədə olma müddəti zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü);*
- *tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri 10 avqust 2023-cü il saat 11:00-dək, tender təklifi və tender təklifinin bank təminatını 18 avqust 2023-cü il saat 17:00-dək yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri 21 avqust 2023-cü il saat 15:00-da Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri tenderdə iştirak edə bilərlər.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi respublika üzrə bir sıra təhsil müəssisələrinin təmir və kommunal-kommunikasiya işlərinin satın alınması ilə bağlı *açıq tender elan edir*

**Respublika üzrə bir sıra təhsil müəssisələrinin təmir və kommunal-kommunikasiya işlərinin satın alınması.**

Açıq tender iştirakçılarına təklif edilir ki, öz təkliflərini imzalanmış, möhürlənmiş, ikiqat bağlamada, yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: iddiaçıların ixtisas göstəricilərinin uyğunluğu, aşağı qiymət, ödəniş şərtləri, müqavilənin vaxtında yerinə yetirilməsi, təminat verilən istismar müddəti.

Açıq tender proseduru ilə əlaqədar məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət etmək olar:

Əlaqələndirici şəxs - Z.Quliyev.

Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Y.Bakuvi, 18.

Tel: (+99412) 465 73 48 (daxili: 134).

Maraqlananlar açıq tender prosedurunun əsas şərtlər toplusunu 1500 (bir min beş yüz) manat məbləğində iştirak haqqını aşağıda qeyd olunan hesaba köçürdükdən sonra yuxarıdakı ünvandan ala bilərlər.

| | |
|---|---|
| **Bankın adı:** | **"Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı** |
| **Kod:** | **805603** |
| **VÖEN:** | **9900001881** |
| **M/h:** | **AZ03NABZ01350100000000002944** |
| **S.W.I.F.T.** | **IBAZAZ 2X** |
| **H/h:** | **AZ88IBAZ38030019441856517211** |
| **VÖEN:** | **1500016711** |

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir. 03.07.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə bütün fəaliyyəti dövrü) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış (03.07.2023-cü il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının tikinti işlərinin həyata keçirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (vergi orqanı, icra probasiya şöbəsi və ya müvafiq kommersiya məhkəməsi tərəfindən təqdim olunmuş arayış);*
- *kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları (əgər varsa);*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən 03.07.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər, tenderdə xarici şirkətlər iştirak etdikdə onların Azərbaycan nümayəndəliyinin olmasını təsdiq edən sənədlər;*
- *iddiaçının müvafiq sahədə peşəkarlığı, təcrübəsi, maliyyə imkanları, işçi qüvvəsi, idarəetmə səriştəsi barədə təsdiqedici sənədlər (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *iddiaçının baş podratçı kimi analoji işlər üzrə bağlanmış müqavilənin təsdiq olunmuş surətini təqdim etməlidir (oxşar işlərə dair son 3 ildə bağlanmış müqavilələrin surətləri (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *oxşar işlər üzrə iş təcrübəsini təsdiq etmək üçün belə işlərin həyata keçirildiyi müəssisə və təşkilatdan tövsiyə məktubları;*
- *iddiaçının maddi - texniki bazası (sifarişi yerinə yetirilməsi imkanı) haqqında məlumat (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *iddiaçının tender təklifi (tender təklifinin qüvvədə olma müddəti zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü);*
- *tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri 10 avqust 2023-cü il saat 11:00-dək, tender təklifi və tender təklifinin bank təminatını 18 avqust 2023-cü il saat 17:00-dək yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri 21 avqust 2023-cü il saat 15:00-da Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri tenderdə iştirak edə bilərlər.

***Tender komissiyası***

**Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti tərəfindən Günel Hüsaməddin qızı Cabbarovanın adına verilmiş 24.11.2021-ci il tarixli PX1098 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.**

**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**

## Havanın temperaturu 39 dərəcəyədək yüksələcək

Azərbaycanda iyulun 7-də gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın günəşli olacağı gözlənilir. Şimal-qərb küləyi gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq. Havanın temperaturu gecə 20-25°, gündüz 32-37° isti olacaq. Atmosfer təzyiqi 759 millimetr civə sütunundan 757 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 60-70 faiz, gündüz 35-45 faiz olacaq.

Abşeron çimərliklərində şimal-qərb küləyi gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq. Dəniz suyunun temperaturu şimal çimərliklərində (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zağulba) 23-24° isti, cənub çimərliklərində (Türkan, Hövsan, Sahil, Şıx) 25-26° isti olacaq.



## OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |




**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*



*Təkrar*

## "Azərişıq" ASC "Qaradağ rayonu, Ələt qəsəbəsi, Azad İqtisadi Zonanın ərazisində 110/35/6 kV-luq "AİZ-1" yarımstansiyasının və idarəetmə mərkəzinin tikintisi" işlərinin satın alınması məqsədilə *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

**LOT-1: "Qaradağ rayonu, Ələt qəsəbəsi, Azad İqtisadi Zonanın ərazisində 110/35/6 kV-luq "AİZ-1" yarımstansiyasının və idarəetmə mərkəzinin tikintisi" işlərinin satın alınması**

**İştirak haqqı - 1500 manat**

"Azərişıq" ASC
Hesab: AZ83AIIB33020029441802068118
VÖEN: 9900069391
Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı
Kod: 200189
VÖEN: 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
SWIFT Code: AIIBAZ2X

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs: Namik Heybətov
Əlaqə telefonu (şəhər): 012 440 39 93 (daxili: 92-19)
Elektron poçt: namiq.heybetov@azerishiq.az
Ünvan: Bakı şəhəri, M.Əliyev küçəsi, 130, AZ1009

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Mirzağa Əliyev küçəsi, 130 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
2. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
3. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə (sənədlərin tender elanı tarixindən sonra notarial qaydada təsdiq olunması zəruridir).*
4. *İddiaçının VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış (sənədlərin tender elanı tarixindən sonra notarial qaydada təsdiq olunması zəruridir).*
5. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış (sənədlərin tender elanı tarixindən sonra notarial qaydada təsdiq olunması zəruridir).*
6. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
7. *İddiaçının yüklülük haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş arayış.*
8. *İddiaçının mikro, kiçik , orta və ya iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı sənəd.*
9. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki).*
10. *İddiaçının son 3 (üç) illik və ya fəaliyyətə başladığı dövrdən iş təcrübəsi, yerinə yetirdiyi böyük cari işlər və müqavilələr barədə məlumatlar, analoji işlərdə təcrübəsi haqqında məlumat.*
11. *Podrat müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, maddi-texniki bazasının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olmasını təsdiq edən sənəd.*
12. *Müvafiq lisenziya və icazələr.*
13. *Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.*
14. *Rəhbər şəxs və ya şəxslərin təyin olunması haqqında sənəd (əmr).*
15. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
16. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə tərtib olunan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **25.07.2023-cü il saat 15:00-a** qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə **02.08.2023-cü il saat 15:00-a** qədər Bakı şəhəri, Mirzağa Əliyev küçəsi, 130 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **03.08.2023-cü il saat 15:00-da** Mirzağa Əliyev küçəsi, 130 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri tenderdə iştirak edə bilərlər.

***Tender komissiyası***

# Dünyanı fəth edən "Məhəbbət əfsanəsi" baleti yenidən Bakı səhnəsində

Dünya klassik musiqisinin şah əsərlərindən biri - görkəmli bəstəkar, Xalq artisti Arif Məlikovun "Məhəbbət əfsanəsi" baleti Heydər Əliyev Fondunun təşkilatçılığı ilə yarım əsrdən çox müddətdən sonra təntənəli şəkildə yenidən müəllifin vətənində səhnəyə qoyulur. Belə ki, sentyabrın 18-i və 19-da Heydər Əliyev Sarayında "Məhəbbət əfsanəsi" baletinin təqdimatı keçiriləcək. "Məhəbbət əfsanəsi" möhtəşəm musiqi, səhnə quruluşu və tərtibatı ilə vəhdət təşkil edərək Milli Musiqi Günündə əsl bayram yaşadacaq.

AZƏRTAC xəbər verir ki, tamaşa məşhur baletmeyster Yuri Qriqoroviçin quruluşunda, tanınmış rəssam Simon Virsaladzenin səhnə tərtibatında nümayiş olunacaq və Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının balet truppası, Azərbaycan Dövlət Rəqs Ansamblının rəqqasları, Bakı Xoreoqrafiya Akademiyasının tələbələri çıxış edəcəklər. Əsər Xalq artisti Yalçın Adıgözəlovun dirijorluğu ilə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin ifasında səslənəcək.

Tarixi təqdimat üçün Heydər Əliyev Fondu tərəfindən Simon Virsaladzenin orijinal eskizləri əsasında 250 kostyum, həmçinin dekorasiya və rekvizitlər hazırlanıb.

Arif Məlikov "Məhəbbət əfsanəsi" baletini görkəmli türk şairi Nazim Hikmətin "Fərhad ilə Şirin" pyesi əsasındakı librettoya bəstələyib. Arif Məlikov 3 pərdə, 7 şəkildən ibarət əsər üzərində 1958-ci ildən işləməyə başlayıb və onu 2 ilə bitirib.

"Məhəbbət əfsanəsi" baletinin premyerası 1961-ci il martın 23-də Leninqrad Opera və Balet Teatrında (indiki Sankt-Peterburq Dövlət Akademik Mariya Teatrı) keçirilib. Tamaşanın quruluşçu baletmeysteri Yuri Qriqoroviç, rəssamı Simon Virsaladze, dirijoru isə maestro Niyazi olub. 1962-ci ilin iyulunda isə əsərin Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində premyerası keçirilib.

"Məhəbbət əfsanəsi" baleti bu günədək dünya səhnələrini fəth edib. Əsər müxtəlif ölkələrin 60-dan çox teatrında dəfələrlə görkəmli baletmeysterlərin quruluşunda təqdim olunub. Səhnə əsəri ABŞ, Almaniya, Avstriya, Bolqarıstan, Böyük Britaniya, Braziliya, Çexiya, Estoniya, Finlandiya, Fransa, İtaliya, Qazaxıstan, Misir, Özbəkistan, Polşa, Rumıniya, Slovakiya, Türkiyə, Ukrayna, Yaponiya və digər ölkələrdə rəğbətlə qarşılanıb.

Arif Məlikovun şah əsəri olan "Məhəbbət əfasanəsi"nin "Heydər Əliyev İli"ndə təqdim olunması da təsadüfi deyil. 2023-cü il dahi şəxsiyyət, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü, görkəmli bəstəkar Arif Məlikovun isə 90 illik yubileyidir. Ümummilli Lider Heydər Əliyev Arif Məlikovu bir sənətkar və insan kimi yüksək dəyərləndirirdi. Arif Məlikov isə Ümummilli Lider Heydər Əliyevə sevgi və ehtiramını öz yaradıcılığında da əks etdirib və bəstəkarın "Əbədiyyət" adlı 8-ci simfoniyası Ulu Öndərə ithaf olunub.

"Məhəbbət əfsanəsi"nin 18-19 sentyabr nümayişinin biletləri tezliklə şəhərin kassaları və iTicket.az saytında satışda olacaq.

## ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov Fikrət Əzizova qardaşı **RAMİZ ƏZİZOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Auditorlar Palatasının sədri Vahid Novruzov Fikrət Əzizova qardaşı **RAMİZ ƏZİZOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov Fikrət Əzizova qardaşı **RAMİZ ƏZİZOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**BAŞ REDAKTOR**

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 4646**
**Sifariş 1659**

**Qiyməti 40 qəpik**